Azərbaycan Respublikası
Müdafiə Nazirliyi

BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ MƏRKƏZİ

# AZƏRBAYCAN ORDUSUNUN SÜLHMƏRAMLI ƏMƏLİYYATLARINA DAİR HESABAT




KFOR КФОР ISAF RS UNMISS

Bu hesabat Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və
Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi tərəfindən birgə hazırlanmışdır

Azərbaycan Respublikası
Müdafiə Nazirliyi

BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ MƏRKƏZİ

# AZƏRBAYCAN ORDUSUNUN SÜLHMƏRAMLI ƏMƏLİYYATLARINA DAİR HESABAT

Bu hesabat
Azərbaycan Respublikasının Müdafiə Nazirliyi
və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi
tərəfindən birgə hazırlanmışdır

BAKI - 2026

**Müəlliflər haqqında**

**Dr. Gülşən Paşayeva**
Azərbaycan Respublikası Milli Məclisinin deputatı,
Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü

**Dr. Mətin Məmmədli**
Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri

**Polkovnik Abdulla Abdullayev**
Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Beynəlxalq
Hərbi Əməkdaşlıq İdarəsinin şöbə rəisi

**Polkovnik Elnur Qocayev**
Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Beynəlxalq
Hərbi Əməkdaşlıq İdarəsinin şöbə rəisi

**İngilis dilinə tərcümə** – Arzu Məmmədova - ADA Universitetinin Dil, Mədəniyyət və İncəsənət Departamentinin direktoru

**İngilis dili üzrə korrektor** – Tony Murphy

**Azərbaycan dili üzrə redaktor** – Aqşin Məmmədov

**Hesabata töhfə verən** – Günel Şükürova – Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin məsləhətçisi

**Hesabata töhfə verən** – Hüseyn Sultanlı – Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin məsləhətçisi

**Hesabata töhfə verən** – Məryəm İsmayılova – Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin məsləhətçisi

# MÜNDƏRİCAT

**İcra xülasəsi** ........ 4

**İxtisarlar siyahısı** ........ 5

**Ön söz** ........ 6

**Fəsil 1.**
**Sülhməramlı əməliyyatlar: nəzəri çərçivə** ........ 11

**Fəsil 2.**
**Azərbaycan Ordusunun sülhməramlı**
**əməliyyatlarının siyasi aspektləri** ........ 20

**Fəsil 3.**
**Azərbaycan Ordusunun sülhməramlı**
**əməliyyatlarının hərbi aspektləri** ........ 30

**Ədəbiyyat siyahısı** ........ 63

# İcra xülasəsi

Bu hesabatda silahlı münaqişələrdən sonrakı dövrdə sabitliyin bərpa olunmasında, atəşkəs rejiminin qorunmasında və uzunmüddətli sülhün təmin edilməsində mühüm rol oynayan sülhməramlı əməliyyatlar araşdırılır və illər ərzində Azərbaycan Ordusunun tərkibində formalaşdırılmış sülhməramlı kontingentin fəaliyyəti təhlil edilir. Üç fəsildən ibarət olan tədqiqat işi sülhməramlı əməliyyatların nəzəri çərçivəsini təqdim edir, onların siyasi və hərbi aspektlərini araşdırır.

Birinci fəsildə beynəlxalq hüququn, humanitar standartların və kollektiv təhlükəsizlik institutlarının inkişafı ilə paralel olaraq formalaşmış müasir sülhməramlı əməliyyatlar anlayışı nəzəri baxımdan təhlil edilir. Bu çərçivədə sülhməramlı əməliyyatların yaranma tarixinə qısa nəzər salınır, onların mahiyyəti, hüquqi əsasları, icra mexanizmləri və maliyyələşdirilməsi prinsipləri ətraflı izah edilir. Bununla yanaşı, sözügedən fəsildə BMT, eləcə də digər beynəlxalq və regional təşkilatlar, həmçinin dövlətlər tərəfindən həyata keçirilmiş sülhməramlı əməliyyatlara dair ümumi baxış təqdim edilir və sülhməramlı əməliyyatların əsas növləri – müşahidə missiyaları, çoxtərəfli sülhməramlı missiyalar və sülhə məcburetmə əməliyyatları – şərh olunur.

İkinci fəsildə Azərbaycanın beynəlxalq sülhməramlı əməliyyatlarda iştirakının siyasi aspektləri təhlil edilir və onların ölkənin milli təhlükəsizlik strategiyasında mühüm yer tutduğu vurğulanır. Sülhməramlı missiyalarda iştirakın ölkənin müasir beynəlxalq münasibətlər sisteminə sürətlə inteqrasiya etməsində birbaşa rol oynaması nümayiş etdirilir. Azərbaycanın etibarlı və sülhyönümlü dövlət kimi təqdim olunması ilə yanaşı, bu təcrübə, Türkiyə ilə münasibətlər də daxil olmaqla, bir sıra fundamental siyasi-hərbi əlaqələrin daha da dərinləşməsinə, NATO kimi beynəlxalq institutlarla əməkdaşlığın intensiv xarakter almasına və Azərbaycan Ordusunun yüksək peşəkarlıq səviyyəsinin beynəlxalq ictimaiyyətə nümayiş etdirilməsinə əlverişli şərait yaratmışdır. Ən önəmlisi isə odur ki, Azərbaycanın bu sahədəki fəaliyyəti daim beynəlxalq hüquqa sadiqlik, eləcə də regional və qlobal təhlükəsizliyin qorunmasına dair məsuliyyət götürməyə və onu bölüşməyə hazır olmaq kimi prinsiplərə əsaslanmışdır. Fəsildə vurğulanır ki, bu amillər Azərbaycanın beynəlxalq fəaliyyətində aparıcı rol oynamağa davam edir və Azərbaycanın sülhməramlı missiyalarda əldə etdiyi uğurların beynəlxalq səviyyədə tanınması ölkənin artan qlobal nüfuzunun və təsir imkanlarının mühüm siyasi göstəricisinə çevrilmişdir.

Üçüncü fəsildə Azərbaycan Ordusunun iştirak etdiyi sülhməramlı əməliyyatların müxtəlif hərbi aspektləri araşdırılır. Hesabatda istifadə olunan bəzi anlayışların izahı verilir, Azərbaycanın sülhməramlı qüvvələrinin yaradılması tarixi və bu prosesin başlıca səbəbləri təhlil edilir, Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakının hüquqi əsasları, sülhməramlı bölmələrin hazırlıq mərhələləri, əldə etdikləri praktik təcrübə və digər əlaqəli məsələlər əhatə olunur. Fəsildə Azərbaycan Ordusunun şəxsi heyətinin Kosovo, Əfqanıstan, İraq və Cənubi Sudan kimi mühüm sülhməramlı əməliyyatlarda qazandığı təcrübəyə istinad edilir, hərbi qulluqçuların məsuliyyət zonaları, xidmət keçdikləri əməliyyat şəraiti və yerinə yetirdikləri tapşırıqlar ətraflı şəkildə təqdim olunur. Azərbaycan Ordusunun zabit və hərbi qulluqçularının birbaşa müşahidə və təcrübələri, eləcə də tərəfdaş dövlətlərin yüksək vəzifəli rəsmilərinin fikirləri qarşıya çıxan təhlükə və çətinliklər, eləcə də Azərbaycanın sülhməramlı qüvvələrinin nümayiş etdirdiyi qəhrəmanlıq nümunələri barədə geniş təsəvvür formalaşdırır. Fəslin yekununda, xüsusilə ölkənin sülhməramlı qüvvələrinin inkişafının ölkə üçün son dərəcə mürəkkəb bir dövrə təsadüf etdiyi halda, Azərbaycanın bu sahədə əldə etdiyi nailiyyətlərin əhəmiyyəti vurğulanır. Qazanılmış təcrübə və beynəlxalq təhlükəsizliyin dəstəklənməsinin davam etdirilməsi istəyi gələcəkdə Azərbaycanın bu cür əməliyyatlarda daha geniş iştirakını təmin etmək üçün mühüm potensiala malik olduğunu göstərir.

## İxtisarlar siyahısı

ATƏT - Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

BMT - Birləşmiş Millətlər Təşkilatı

BMT TŞ - Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası

EUFOR - Avropa İttifaqının Qüvvəsi

EULEX - Aİ-nin Kosovoda Qanunun Aliliyi Missiyası

ƏİK - NATO-nun Əməliyyat İmkanları Konsepsiyası Qiymətləndirmə və Rəy Proqramı

İFOR – NATO-nun İcra Qüvvəsi

İPAP - Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı

İSAF – “Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri” Əməliyyatı

KFOR - NATO-nun Kosovodakı Sülhməramlı Qüvvələri

QHT - Qeyri-Hökumət Təşkilatı

NATO - Şimali Atlantika Müqaviləsi Təşkilatı

PAP - Planlaşdırma və Təhlil Prosesi (“Planning and Review Process”)

SFOR – NATO-nun Sabitləşdirici Qüvvəsi

SNT - Sülh Naminə Tərəfdaşlıq (NATO)

UNFİCYP - BMT-nin Kiprdəki Sülhməramlı Qüvvələri

UNMİSS - Cənubi Sudandakı BMT Sülhməramlı Missiyası

UNMOGİP - BMT-nin Hindistan və Pakistandakı Hərbi Müşahidəçilər Qrupu

UNTSO - BMT-nin Atəşkəsə Nəzarət Təşkilatı

## Ön söz

*Hörmətli oxucular!*

*Əziz xanımlar və cənablar!*

Azərbaycan xalqının Ümummilli Lideri, dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan Respublikasının strateji dövlətçilik və idarəçilik siyasətinin fundamental əsaslarını yaratmışdır. Möhkəm bünövrəyə söykənən daxili və xarici siyasət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək siyasi, hərbi, iqtisadi və digər sahələrdə böyük nailiyyətlərin əldə olunmasına, 44 günlük Vətən müharibəsində tarixi qələbə qazanaraq Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa edilməsinə, eləcə də ölkəmizin beynəlxalq aləmdə etibarlı dost və tərəfdaş kimi tanınmasına gətirib çıxarmışdır.

Azərbaycanın etibarlı dost və tərəfdaş kimi tanınmasında beynəlxalq təhlükəsizliyə verdiyi töhfələrin xüsusi yeri var. Azərbaycan sülhməramlı qüvvələrinin də bu töhfələr arasında payı az deyil.

Azərbaycan Respublikasının sülhməramlı qüvvələri 1997-ci ildə xalqımızın Ümummilli Lideri, dahi şəxsiyyət Heydər Əliyevin tapşırığı ilə yaradılıb. Bu tarixi qərar ölkəmizin sülhə, beynəlxalq təhlükəsizliyə və sabitliyə olan sadiqliyinin bariz nümunəsidir.

Sülhməramlı qüvvələrin yaradılması ölkəmiz üçün çox ağır bir dövrə təsadüf etmişdir. Ermənistanın hərbi təcavüzü ilə dərinləşən ciddi siyasi və iqtisadi problemlər də dövlətimizin həll etməli olduğu məsələlər sırasında dururdu. 1997-ci ildə Azərbaycan Respublikasının 1.000.000-a yaxın qaçqın və məcburi köçkünü var idi, eləcə də ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altında idi. Azərbaycan bütün resurslarını siyasi və iqtisadi problemlərinin, ərazi bütövlüyünün və suverenliyinin bərpasına, həmçinin evlərindən didərgin düşmüş və çadırlarda məskunlaşan insanların sosial şəraitinin yaxşılaşdırılmasına yönəltmişdir. Belə bir çətin şəraitdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin qarşısında sülhməramlı əməliyyatlarda iştirak edə bilmək üçün müvafiq imkan və qabiliyyətlərə malik qüvvənin yaradılması kimi çox mühüm və çətin bir vəzifə qoyulur. Bu isə öz növbəsində hərtərəfli düşünülmüş və bütün incəlikləri nəzərə alan addımların atılmasını tələb edirdi. Bu vəzifənin icrası üçün sülhməramlı qüvvənin ştat strukturunun hazırlanması, dislokasiya yerinin təyin edilməsi, şəxsi heyətlə komplektləşdirilməsi, şəxsi heyətin hazırlanması, onların rotasiyasının və maddi-texniki dəstəyinin təmin edilməsi, sülhməramlı əməliyyatın ərazisinə daşınması kimi bir sıra məsələlər həll edilməli idi.

Azərbaycan Respublikası, bütün çətinliklərə baxmayaraq, öz iradəsini və əzmini nümayiş etdirərək beynəlxalq təhlükəsizliyə töhfə vermək istəyinin həyata keçirilməsi üçün sülhməramlı qüvvələrini yaratmağa müvəffəq oldu.

Azərbaycan sülhməramlı bölmələri üçün ilk sınaq yeri Kosovo oldu. Sülhməramlı əməliyyatda ilk dəfə iştirak etməyimizə baxmayaraq, qüvvələrimiz səngərlərdə xidmət keçmiş döyüş təcrübəsi olan hərbi qulluqçularla komplektləşdirilmişdir. Sonradan Azərbaycan sülhməramlıları Əfqanıstanda və İraqda keçirilən sülhməramlı əməliyyatlarda da iştirak edərək beynəlxalq təhlükəsizliyə öz töhfələrini verməyə davam etmişlər.

Sülhməramlı qüvvələrimiz iştirak etdiyi əməliyyatlarda həyatlarını risk altına ataraq strateji əhəmiyyətli obyektlərin, qüvvələrin dislokasiya bazasının, beynəlxalq və qeyri-hökumət təşkilatlarının keçirdiyi tədbirlərin mühafizəsi, nəzarət-buraxılış və post-patrul xidmətinin icrası, müşahidə aparılması, sülhməramlı qüvvələrin əsas və ehtiyat təminat marşrutlarının təhlükəsizliyinin təmin edilməsi, humanitar yardım kolonlarının müşayiət olunması, axtarış

və xilasetmə əməliyyatlarının icrası, təhlükəsizlik mühitinin yaradılması, silahlı qruplaşmaların tərk-silah edilməsi, xəstə və yaralıların təxliyə edilməsi və onlara tibbi yardımın göstərilməsi, ictimai təhlükəsizliyin və asayişin, mülki əhalinin təhlükəsizliyinin və hərəkət azadlığının təmin edilməsi, qaçaqmalçılığa, qeyri-qanuni miqrasiyaya, transmilli cinayətkarlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə, yerli hərbi və polis qurumlarına təlimlərin keçirilməsi kimi əhəmiyyətli tapşırıqları yerinə yetirmişdir.

Azərbaycan sülhməramlıları Kosovoda Draqaş rayonu ərazisində yenidən baş verə biləcək silahlı hücumların və etnik azlıqların bir-birinə qarşı zorakılıq hərəkətlərinin qarşısını almış, təhlükəsizlik mühitinin yaradılmasını, ictimai təhlükəsizliyi, asayişi və hərəkət azadlığını təmin etmişdir.

Azərbaycan sülhməramlıları İraqın Əl-Ənbar vilayətində yerləşən və onun elektrik enerjisinə olan ehtiyacının 25%-ni təmin edən Həditə su anbarının təhlükəsizliyini təmin etmiş və hücumların qarşısını almışlar. Bu isə ABŞ qüvvələri üçün döyüşlərdə iştirak edən bölmələr hesabına sözügedən su anbarının mühafizəsinin təmin edilməsi, həmin ərazidə təhlükəsizlik və stabillik əməliyyatlarının keçirilməsi üçün əlavə qüvvələrin ayrılması zərurətini aradan qaldırmışdır.

Azərbaycan  Ordusunun sülhməramlı bölüyü Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin əməliyyatı çərçivəsində Kabil şəhərinin Uthil qəsəbəsində post-patrul xidmətini, "Doğan" bazasının şimal-şərq hissəsinin mühafizəsini həyata keçirmiş, Əfqanıstan İslam Respublikasının dövlət televiziya qülləsini və Poliçarki rayonunda İSAF qüvvələrinin silah-sursat anbarını mühafizə etmişdir.

"Qətiyyətli Dəstək" missiyası çərçivəsində Azərbaycan sülhməramlıları logistik cəhətdən böyük əhəmiyyət daşıyan Kabil Beynəlxalq Hava Limanının mühafizəsini təmin etmişdir. Missiya başa çatdıqdan sonra Əfqanıstanı ən son tərk edən Azərbaycan Ordusunun sülhməramlıları olmuşdur. Kabil Beynəlxalq Hava Limanının mühafizəsinə cəlb edilmiş digər dövlətlərin sülhməramlıları Əfqanıstanı tərk etdikcə onların hava limanının mühafizəsi ilə bağlı tapşırıqlarını da Azərbaycan sülhməramlıları yerinə yetirmiş, hərbi qüvvələrin və mülki heyətin təhlükəsiz təxliyəsini təmin edərək üzərilərinə düşən vəzifələri yüksək səviyyədə yerinə yetirmişdir.

Qüvvələrin strateji daşınması və Azərbaycan Respublikasının hüdudlarından kənarda sülhməramlı əməliyyatlarda iştirak etmək üçün ayrılmış qüvvələrin maddi-texniki dəstəyinin həyata keçirilməsi üçün ölkəmiz dost və tərəfdaş dövlətlərin imkanlarından istifadə etmişdir.

Kosovo və Əfqanıstanda keçirilən əməliyyatlarda bu dəstəyi Azərbaycan Respublikasına Türkiyə Respublikası, İraqda keçirilən əməliyyatda isə ABŞ göstərmişdir. Göstərilən bu qiymətli dəstəyə görə biz qardaş və strateji müttəfiqimiz olan Türkiyəyə, eləcə də dost və strateji tərəfdaşımız olan ABŞ-yə minnətdarıq.

Azərbaycan sülhməramlılarının iştirak etdiyi əməliyyatlar onların döyüş təcrübəsini daha da zənginləşdirmiş və eyni zamanda öz təcrübələrini digər ölkələrin sülhməramlıları ilə bölüşməsinə imkan yaratmışdır. Azərbaycan sülhməramlıları ölkəmizin üzərinə qoyulmuş məsuliyyətli və şərəfli missiyanı ən yüksək səviyyədə, layiqincə Kosovo, İraq və Əfqanıstanda yerinə yetirmişdir. 2019-cu ilin yanvar ayından etibarən Azərbaycan Ordusunun hərbi qulluqçuları Birləşmiş Millətlər Təşkilatının Cənubi Sudan Respublikasında həyata keçirdiyi sülhməramlı missiyasında hərbi müşahidəçi qismində beynəlxalq təhlükəsizliyə töhfələrini verməyə davam edirlər.

1999-cu ildən bu günə qədər Azərbaycan Ordusunun 3.000-dən çox hərbi qulluqçusu dünyanın müxtəlif regionlarında keçirilən sülhməramlı əməliyyatlarda iştirak etmişdir.

Azərbaycan Ordusunun sülhməramlılarının fəaliyyətləri tərkibində xidmət keçdikləri sülhməramlı qüvvələrin komandanlığı, müxtəlif ölkələr və beynəlxalq təşkilatlar tərəfindən daim yüksək qiymətləndirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən xüsusi diqqət ayrılan və müxtəlif inkişaf mərhələlərindən keçmiş sülhməramlı qüvvələrimizin müasir tələblərə cavab verməsi üçün durmadan işlər aparılır. Sülhməramlı qüvvələr müasir silah və texnika ilə təchiz edilir, şəxsi heyətin xüsusi hazırlıq proqramları təkmilləşdirilir.

Dünyada gedən turbulent geosiyasi proseslər və müxtəlif regionlarda baş verən münaqişələr sülhməramlıların rolunun artdığını göstərir. Azərbaycan Respublikası dünya birliyinin və BMT-nin üzvü kimi sülhün qorunmasına və qlobal təhlükəsizliyin dəstəklənməsinə yönəlmiş bütün təşəbbüsləri dəstəkləyir.

Hazırda beynəlxalq sülhün qorunmasına köməklik göstərilməsi üçün BMT-nin və NATO-nun keçirdiyi müxtəlif əməliyyatlarda Azərbaycan Ordusunun iştirak imkanları araşdırılır.

Sülhməramlı əməliyyatlarda iştirakla bağlı verilən siyasi qərarlar, ölkəmizin göstərdiyi iradə və sülhməramlı qüvvələrimizin verdiyi töhfələr Azərbaycanın dünyada etibarlı tərəfdaş və dost kimi nüfuzunu daha da gücləndirmiş, eləcə də sülhsevər ölkə kimi tanıtmışdır.

Ümid edirəm ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə hazırladığı hesabat oxucular üçün maraqlı olacaqdır.

Hazırlanmış materialın qiymətləndirilməsini oxucuların ixtiyarına buraxıram.

*Hörmətlə,*

**Zakir HƏSƏNOV,**
***general-polkovnik,***
***Azərbaycan Respublikasının müdafiə naziri***

****

Dünyanın geosiyasi mənzərəsi dəyişdikcə, "sülh" anlayışı da yeni məzmun qazanır. Bu gün sülh yalnız hərbi əməliyyatların dayanması deyil, həm də insan təhlükəsizliyinin, sosial bərabərliyin və etimadın bərqərar olması deməkdir. Münaqişələrin dinamikası göstərir ki, sülh təkcə diplomatik sənədlərin mövzusu deyil, o həm də siyasi iradənin və dəyərlərin ifadəsidir.

Azərbaycan Respublikası üçün bu dəyərlər müstəqillik dövrünün ilk günlərindən etibarən prioritet olub. Ulu Öndər Heydər Əliyevin 1997-ci ildə qəbul etdiyi qərarla sülhməramlı qüvvələrin yaradılması dövlətin xarici siyasət gündəliyində yeni bir mərhələnin başlanğıcını qoydu. O dövrün mürəkkəb geosiyasi şəraitində belə bir qərar yalnız hərbi plan kimi deyil, həm də Azərbaycanın beynəlxalq sistemdə məsuliyyətli tərəfdaş olmağa hazır olduğunun bəyanatı kimi qiymətləndirilməlidir.

Bu qərarın məğzi sadə, amma strateji idi: Azərbaycan təkcə öz sərhədlərini deyil, sülhün sərhədlərini də qorumağa qadirdir. Sonrakı illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə bu prinsip ölkəmizin xarici siyasətinin ayrılmaz hissəsinə çevrildi. Azərbaycanın təhlükəsizlik fəlsəfəsi bu gün regional sabitlik, dialoq və qarşılıqlı etimad anlayışları üzərində qurulub.

Azərbaycan sülhməramlılarının fəaliyyəti bu fəlsəfənin konkret təcəssümüdür. Kosovodan İraqa, Əfqanıstandan Cənubi Sudana qədər xidmət aparan Azərbaycan hərbçiləri sülhü yalnız qoruyan deyil, onu yaradan gücə çevriliblər. Onların fəaliyyəti təkcə əməliyyat tapşırıqlarını icra etmək deyil, eyni zamanda Azərbaycan adını etimad, peşəkarlıq və insanpərvərliklə assosiasiya etdirməkdir. Burada onu da qeyd etmək yerinə düşər ki, Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Ceyms Devid Vens ölkəmizə son səfərində Azərbaycanın Əfqanıstanda missiyasını başa vurmuş sülhməramlı qüvvələrinin fəaliyyətini yüksək dəyərləndirdiyini bəyan etmişdir. O, bildirmişdir ki: "Fikrimcə, bir çox amerikalılar bəlkə də bilmir ki, azərbaycanlılar Əfqanıstandan çıxan ən sonuncu tərəf oldular. Onlar dünya səviyyəsində terrorçuluğa qarşı aparılan mübarizəyə çox böyük dəstək verdilər. Onlar ABŞ-ın hərbi dənizçiləri ilə Əfqanıstanda çiyin-çiyinə vuruşublar və faktiki olaraq, dünyanın istənilən yerini götürsək belə, az sayda olan ən mübariz və cəsarətli qoşunlardan biri kimi nüfuz qazandılar"[1].

Təcrübə göstərdi ki, sülhməramlı missiya silahı çiynində olan, amma niyyəti barış olan insanın fəaliyyətidir. Azərbaycan sülhməramlısı bu mənada hərbi diplomatiyanın canlı simvoludur. O, müxtəlif xalqların mədəniyyətləri arasında körpü salır, gərginlikdən sonra inamı bərpa edir, təhlükə ilə üz-üzə qalanda belə insan həyatını prioritet tutur.

Azərbaycanın bu sahədə qazandığı təcrübə həm ordu quruculuğuna, həm də beynəlxalq siyasətdə nüfuzunun artmasına mühüm təsir göstərmişdir. Sülhməramlı əməliyyatlar bizim zabitlərimizə çoxmillətli əməkdaşlığın incəliklərini, qərarların beynəlxalq koordinasiyada necə formalaşdığını və müasir təhlükəsizlik yanaşmalarının necə işlədiyini öyrədib. Bütün bunlar son nəticədə Azərbaycanın hərbi-siyasi idarəçilik mədəniyyətinin inkişafına xidmət edib.

Azərbaycan sülhməramlı siyasətinin xüsusiliyi ondan ibarətdir ki, o, yalnız beynəlxalq öhdəliklərdən doğmur, bu həm də milli kimliyimizin təbii davamıdır. Bizim üçün sülh ədalətsiz kompromis deyil, mənəvi məsuliyyət daşıyan dəyərdir. Azərbaycan tarixində güc və ədalət anlayışları heç vaxt ziddiyyət təşkil etməyib; əksinə, biri digərini tamamlayıb. Məhz buna görə də Azərbaycan həm müharibədə qalib gələn, həm də sülhün mənasını qoruyan dövlətdir.

44 günlük Vətən müharibəsindən sonra formalaşan yeni regional reallıqlar bu fəlsəfənin təsdiqidir. Azərbaycan müharibəni bitirən, lakin barışı davam etdirən tərəfdir. Bu, sülhün "bəyanatla" deyil, "fəaliyyətlə" təmin olunduğunun göstəricisidir. Bu gün regionda dayanıqlı

1 President.az, *"İlham Əliyev və ABŞ-ın Vitse-prezidenti Cey. Di. Vens mətbuata bəyanatlarla çıxış ediblər"*, 10 fevral 2026, Elektron resurs: https://president.az/az/articles/view/71561

əməkdaşlıq və qarşılıqlı etimad mühitinin formalaşmasına yönəlmiş bütün təşəbbüslər Azərbaycanın sülh yanaşmasının məntiqi davamıdır.

Azərbaycanın beynəlxalq sülhməramlı fəaliyyətinin əhəmiyyəti təkcə təhlükəsizlik ölçüləri ilə məhdudlaşmır. Bu fəaliyyət həm də bir dövlətin özünü qlobal sistemdə necə mövqeləndirdiyinin göstəricisidir. Biz BMT, NATO və digər beynəlxalq qurumlarla əməkdaşlıq edərək beynəlxalq təhlükəsizlik arxitekturasının fəal komponentinə çevrilmişik. Bu, dövlətin həm strateji məsuliyyətinin, həm də diplomatik yetkinliyinin ifadəsidir.

Bu hesabatın hazırlanması, əslində, Azərbaycan sülhməramlı təcrübəsinin elmi müstəviyə daşınması baxımından mühüm addımdır. Hesabat təkcə tarixi faktların toplusu deyil, həm də Azərbaycanın sülh fəlsəfəsini, onun beynəlxalq təhlükəsizlik proseslərindəki rolunu və töhfəsini analitik şəkildə təqdim edir. Onu da əlavə edək ki, Azərbaycan sülhməramlılarının fəaliyyətinə dair bu hesabat 29 may 2025-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi arasında imzalanmış Anlaşma Memorandumuna əsasən hazırlanmışdır. Bu baxımdan qeyd olunan hesabatı hər iki qurumun birgə fəaliyyətinin ilk nümunəsi hesab etmək olar.

Sülhü qorumaq, əslində, onu hər gün yenidən qurmaq deməkdir. Azərbaycan sülhməramlıları bu prosesi əməli fəaliyyətləri ilə həyata keçiriblər. Onlar dünyanın müxtəlif bölgələrində təkcə təhlükəsizliyin deyil, həm də etimadın rəmzinə çevriliblər.

Ümid edirəm ki, bu sənəd oxuculara Azərbaycanın sülhməramlı fəaliyyətinin dərinliyini, çoxşaxəliliyini və dövlətçilik fəlsəfəmizlə birbaşa bağlı mahiyyətini daha aydın şəkildə göstərəcəkdir. Azərbaycanın sülh missiyası artıq konkret əməliyyatların deyil, milli xarakterin ifadəsidir - düşünülmüş, məsuliyyətli və insani dəyərlərə söykənən bir yanaşmadır.

**Fərid ŞƏFİYEV,**

***Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri***

## Fəsil 1. Sülhməramlı əməliyyatlar: nəzəri çərçivə

Sülhməramlı əməliyyatlar silahlı münaqişələrdən sonra sabitliyin bərpa olunması, atəşkəs rejiminin qorunması və uzunmüddətli dinc həyatın təmin edilməsi istiqamətində istifadə edilən vacib vasitələrdən biridir. Onlar dövlət institutlarının bərpası, qaçqın və məcburi köçkünlərin geri qayıdışı və s. bu kimi kompleks məsələlərin həyata keçirilməsini də özündə ehtiva edir.

Maraqlıdır ki, hələ XIX əsrin sonu və XX əsrin əvvəllərində müvafiq ərazilərdə xüsusi böhranları və ya ərazi mübahisələrini həll etmək üçün beynəlxalq komissiyaların və ya qüvvələrin yerləşdirilməsi halları mövcud olmuş və onlar adətən, məhdud sayda ölkələrin təmsilçiləri arasında xüsusi razılaşmalar əsasında həyata keçirilmişdir.

Millətlər Liqasının fəaliyyəti dövründə də (1920-1946-cı illər)[2] Birinci Dünya müharibəsində məğlub olmuş dövlətlərin nəzarəti altında olan ərazilər üzərində yaradılmış mandatlar sistemi çərçivəsində inkişafı təmin etmək və asayişi qorumaq məqsədilə bu ərazilərə beynəlxalq qüvvələr yerləşdirilmişdir. Məsələn, Birinci Dünya müharibəsindən sonra 15 il müddətinə təyin edilmiş mandat çərçivəsində Millətlər Liqası tərəfindən idarə edilən Saar ərazisində bu müddət başa çatdıqdan sonra əhali arasında ərazinin gələcək statusunu müəyyən edən plebissit keçirilmişdir. Plebissitin keçirildiyi gün Millətlər Liqası Şurasının qərarı ilə Böyük Britaniyanın, Niderlandın, İtaliyanın və İsveçin əsgərlərindən ibarət beynəlxalq polis qüvvələri bu əraziyə yerləşdirilmiş[3] və onlar Millətlər Liqasının nəzarəti altında Saar ərazisində dinc plebissitin keçirilməsini təmin etmişlər. P. Diehlin fikrincə, bu qüvvələr "beynəlxalq sülh müşahidə missiyasının ilk həqiqi nümunəsi"[4] kimi qiymətləndirilməlidir.

Nəzəri baxımdan müasir sülhməramlılıq konsepsiyası beynəlxalq hüququn, humanitar standartların və kollektiv təhlükəsizlik institutlarının inkişafı ilə paralel olaraq formalaşmışdır. Eyni zamanda sülhməramlı fəaliyyət növlərinin tətbiqi də müxtəlif nəzəri yanaşmalar və hüquqi mexanizmlər üzərində qurulur. Onların mahiyyəti, məqsədi və icra formaları beynəlxalq münasibətlər nəzəriyyəsində olduğu kimi, təcrübədə də fərqli interpretasiyalara məruz qalır.

Bu gün sülhməramlı əməliyyatlar Birləşmiş Millətlər Təşkilatı (BMT), beynəlxalq regional təşkilatlar və dövlətlər tərəfindən həyata keçirilir.

### BMT sülhməramlı qüvvələri tərəfindən həyata keçirilən əməliyyatlar

1945-ci ildə BMT yaradıldıqdan sonra beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması istiqamətində bir sıra fəaliyyət növləri həyata keçirilmişdir. Sülhməramlı əməliyyatlar da daxil olmaqla onların sırasına münaqişələrin qarşısının alınması və vasitəçilik (conflict prevention and mediation), sülhün qorunması (peace making), sülhün məcburi surətdə bərqərar edilməsi (peace enforcement) və sülh quruculuğu (peacemaking) aid edilir[5].

BMT sülhməramlı qüvvələrinin, adətən, müvafiq əraziyə atəşkəs və ya sülh sazişinin həyata keçirilməsini dəstəkləmək məqsədilə yerləşdirilməsinə baxmayaraq, onlardan yuxarıda qeyd edilən digər fəaliyyət növlərinin yerinə yetirilməsi zamanı da istifadə edilə bilər. Sirr deyil ki, bugünkü çoxölçülü sülhməramlı əməliyyatlar siyasi proseslərə dəstəyin verilməsini, mülki əhalinin müdafiə edilməsini, keçmiş döyüşçülərin tərk-silah, demobilizasiya (tərxis) və

---

2 United Nations Office at Geneva, *"The League of Nations"*, Available at: https://www.ungeneva.org/en/about/league-of-nations/overview; United Nations Library Geneva, *"The Covenant of the League of Nations"*, Available at: https://libraryresources.unog.ch/ld.php?content_id=32971179.

3 Library of Congress, *"Under the Auspices of the League, Saar Plebiscite"*, Available at: https://www.loc.gov/item/2021670571/

4 Paul F. Diehl. *Peace Operations*, Polity Press, 2008, pp. 34–36.

5 United Nations Peacekeeping, *"Terminology"*, Available at: https://peacekeeping.un.org/en/terminology

cəmiyyətə reinteqrasiya edilməsini və s. əhatə edir. Xüsusi olaraq qeyd edilməlidir ki, hər hansı dövlət təhlükəsizliyi və asayişi təmin edə bilmədiyi halda BMT Sülhməramlı Qüvvələri özünü, mandatlarını və mülki əhalini qorumaq üçün güc tətbiq etmək səlahiyyətlərinə malik ola bilər[6].

Sülhməramlı əməliyyatlar üçün BMT institusional mexanizm rolunu oynayır və onlara siyasi rəhbərlik və dəstək verməklə yanaşı, əməliyyatların planlaşdırılmasını, yerləşdirilməsini və idarə olunmasını, eləcə də bu prosesdə iştirak edən regional təşkilatların, qeyri-hökumət təşkilatlarının (QHT), humanitar agentliklərin və üzv dövlətlərin fəaliyyətini əlaqələndirir. Eyni zamanda sülhməramlı əməliyyatlar üç əsas prinsipə - tərəflərin razılığı, qərəzsizlik və gücdən istifadə etməmək (özünümüdafiə və mandatla bağlılıq olmadığı təqdirdə) prinsiplərinə əsaslanır[7].

Məlum olduğu kimi, sülhə məcburetmə halı istisna olmaqla, missiyaların yerləşdirilməsi yalnız tərəflərin razılığı ilə mümkündür. Uğurlu sülhməramlı əməliyyatların aparılması üçün ev sahibi olan ölkənin razılığı və əməkdaşlığı tələb olunur. Ev sahibi olan hökumət və yerli icmalarla müsbət münasibətlərin qurulması inamın yaradılması və sülhməramlı missiyanın mandatının effektiv həyata keçirilməsi üçün olduqca vacibdir.

Eyni zamanda BMT sülhməramlı qüvvələri neytrallıq və qərəzsizlik nümayiş etdirərək, obyektiv mövqe sərgiləməli və ölkələrin daxili işlərinə qarışmamalıdırlar. Onlar eləcə də gücdən yalnız özünümüdafiə hallarında və müvafiq mandat çərçivəsində istifadə edə bilərlər.

BMT tərəfindən həyata keçirilən sülhməramlı əməliyyatların hüquqi əsaslarını BMT-nin Nizamnaməsinin VI və VII fəsilləri[8] təşkil edir. "Mübahisələrin dinc yolla həll olunması" adlanan BMT Nizamnaməsinin VI fəslinin 33-38-ci maddələri BMT Təhlükəsizlik Şurasının (BMT TŞ) mübahisələri araşdırmaq və onlara vasitəçilik etmək səlahiyyətini özündə əks etdirir. "Sülhə təhlükə, sülhün pozulması və təcavüz aktları ilə bağlı tədbirlər" adlanan VII fəslin 39-51-ci maddələri isə BMT TŞ-nın iqtisadi, diplomatik və hərbi sanksiyalarının, eləcə də zəruri hallarda silahlı qüvvələrin tətbiq edilməsini nəzərdə tutur. Əlavə olaraq, sülhməramlı əməliyyatların hüquqi bazasını 1949-cu il Cenevrə konvensiyaları[9] və onlara Əlavə protokollar[10] kimi tanınan beynəlxalq humanitar hüquq normaları, habelə "Müdafiə etmək məsuliyyəti" (Responsibility to Protect — R2P) prinsipi[11] təşkil edir.

BMT-nin Nizamnaməsinə əsasən, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün əsas məsuliyyət daşıyan qurum BMT TŞ-dir. Bu ali qurum sülhməramlı əməliyyatların nə vaxt və harada yerləşdirilməsini və mandatlarını müəyyən edir. Sülhməramlı əməliyyatların mandatına sülh və təhlükəsizliyin qorunması, siyasi proseslərin asanlaşdırılması, mülki şəxslərin müdafiəsi, tərk-silah edilməsinə yardım, seçkilərin dəstəklənməsi, insan hüquqlarının təşviq edilməsi və s. məsələlər daxil edilə bilər.

Xüsusi olaraq qeyd edilməlidir ki, böyük xərc tələb edən sülhməramlı əməliyyatların maliyyələşdirilməsində BMT-nin digər orqanı – Baş Məclis əsas rol oynayır. Bütün xərclər BMT-yə üzv olan dövlətlər arasında bölünür və Baş Məclis üzv dövlətlərin nisbi iqtisadi sərvətlərini nəzərə almaqla xüsusi qiymətləndirmə şkalası əsasında bunu həyata keçirir. Lakin BMT TŞ-nin

6 Yenə orada

7 United Nations Peacekeeping, *"What is peacekeeping"*, Available at: https://peacekeeping.un.org/en/what-is-peacekeeping

8 United Nations, *"United Nations Charter (full text)"*, Available at: https://www.un.org/en/about-us/un-charter/full-text

9 ICRC, *"The Geneva Conventions of 12 August 1949"*, Available at: https://www.icrc.org/sites/default/files/external/doc/en/assets/files/publications/icrc-002-0173.pdf

10 ICRC, *"Protocols additional to the Geneva Conventions of 12 August 1949"*, Available at: https://www.icrc.org/sites/default/files/external/doc/en/assets/files/other/icrc_002_0321.pdf

11 United Nations, *"About the Responsibility to Protect"*, Available at: https://www.un.org/en/genocide-prevention/responsibility-protect/about

daimi üzvləri beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması üçün xüsusi məsuliyyət daşıyır və büdcənin daha böyük hissəsini qarşılayırlar[12]. Məsələn, 1 iyul 2024 - 30 iyun 2025-ci maliyyə ili üzrə BMT-nin sülhməramlı əməliyyatları üçün təsdiq edilmiş büdcə 5,6 milyard ABŞ dollarıdır. 2024-2025-ci illərdə BMT-nin sülhməramlı əməliyyatlarına ən çox töhfə vermiş on ölkə aşağıdakılardır: ABŞ (26,95%), Çin (18,69%), Yaponiya (8,03%), Almaniya (6,11%), Böyük Britaniya (5,36%), Fransa (5,29%), İtaliya (3,19%), Kanada (2,63%), Koreya Respublikası (2,57%) və Rusiya Federasiyası (2,29%)[13].

Eyni zamanda BMT-nin Baş katibi sülhməramlı əməliyyatların idarə edilməsinə görə məsuliyyət daşıyır. O, dünya üzrə onlarla sülhməramlı əməliyyata nəzarət edən Baş katibin Sülhməramlı əməliyyatlar üzrə müavinini təyin edir[14].

BMT-nin Baş katibi A. Quterreşin BMT-nin beynəlxalq sülh və təhlükəsizlik istiqamətində səkkiz sahə üzrə həyata keçirdiyi islahatlar arasında BMT Sülhməramlı Qüvvələrində gender bərabərliyinin gücləndirilməsi, ev sahibi olan hökumətlərlə əlaqələndirmənin təkmilləşdirilməsi və qanun pozuntularına görə məsuliyyətin artırılması məsələlərini qeyd etmək olar. “Sülhməramlı əməliyyatlar üzrə Fəaliyyət” (“Action for Peacekeeping” (A4P)) təşəbbüsü də onların arasındadır[15].

Beləliklə, BMT tərəfindən həyata keçirilən sülhməramlı əməliyyatlar unikal qlobal bir tərəfdaşlıqdır. O, Baş Məclisi, Təhlükəsizlik Şurasını, Katibliyi, qoşun və polis qüvvələrinə töhfə verən və eləcə də ev sahibi olan hökumətləri beynəlxalq sülh və təhlükəsizliyi qorumaq üçün birgə səylərdə birləşdirir. Onun gücü BMT Nizamnaməsinin legitimliyində, bu əməliyyatlarda iştirak edən və onlara geniş miqyasda töhfə verən ölkələrdədir[16]. Əldə etdiyi nailiyyətlərə görə BMT Sülhməramlı Qüvvələri 1988-ci ildə Nobel Sülh Mükafatı ilə təltif edilmişdir[17].

Lakin bu gün BMT-nin sülhməramlı əməliyyatlarının qarşısında bir sıra çağırışlar da mövcuddur. İlk növbədə qeyd edilməlidir ki, münaqişələrin təbiəti daim dəyişir və ona görə də adətən çevik uyğunlaşmaya ehtiyac duyulur. Çox zaman mürəkkəb daxili dinamikaya malik olan və humanitar böhranlarla səciyyələnən ölkədaxili münaqişələr çoxölçülü yanaşmalar tələb edir. Belə olan hallarda sülhməramlı əməliyyatlar yalnız ənənəvi vəzifələri həll etmək üçün deyil, həm də siyasi razılaşmalara kömək etmək, mülki əhalini qorumaq və dövlət quruculuğu səylərinə dəstək vermək baxımından hazırlanmalıdır. Digər tərəfdən, sülhməramlı əməliyyatların siyasi aspektlərinə daxil edilən aydın çıxış strategiyalarının olmaması qeyri-müəyyən nəticələr ilə müşayiət olunan uzunmüddətli sülhməramlı əməliyyatlara da səbəb ola bilər.

BMT tərəfindən həyata keçirilən sülhməramlı əməliyyatların hüquqi qiymətləndirilməsi bəzən siyasi və geosiyasi maraqların təsiri altına düşür. Məsələn, mandatların verilməsi prosesi bəzən müxtəlif geosiyasi maraqlar və siyasi gündəliyə malik olan BMT TŞ-nin üzvləri arasında baş verən qarşıdurmalar nəticəsində tez-tez mürəkkəbləşir və sülhməramlı əməliyyatın mandatının həcminə və müddətinə də əhəmiyyətli dərəcədə təsir göstərir. Beləliklə, ikili standartların tətbiq edilməsi nəticəsində oxşar hüquqi əsaslara malik olmalarına baxmayaraq, bəzi mü-

12 United Nations Peacekeeping, *“Role of the General Assembly”,* Available at: https://peacekeeping.un.org/en/role-of-general-assembly

13 United Nations Peacekeeping, *“How we are funded”*, Available at: https://peacekeeping.un.org/en/how-we-are-funded

14 United Nations Peacekeeping, *“Leadership. Office of the Under-Secretary-General”*, Available at: https://peacekeeping.un.org/en/leadership

15 “Council on Foreign Relations, “*The Role of the UN Secretary-General. Backgrounder*”, 17 September 2025, Available at: https://www.cfr.org/backgrounder/role-un-secretary-general

16 United Nations Peacekeeping, *“What is peacekeeping”*, Available at: https://peacekeeping.un.org/en/what-is-peacekeeping

17 United Nations Peacekeeping, *“Our history”*, Available at: https://peacekeeping.un.org/en/our-history

daxilələr ciddi şəkildə pislənir, digərləri isə müdafiə olunur, bu da hüquqi yanaşmanın selektiv xarakter daşımasına səbəb olur.

Sülhməramlı əməliyyatlar BMT-yə üzv dövlətlərdən, xüsusən də qoşun və resurslar baxımından töhfə verən dövlətlərdən güclü siyasi dəstək tələb edir. Üzv dövlətlər arasında fikir ayrılıqları və ya konkret missiyaya dair öhdəliyin olmaması ilə səciyyələnən siyasi iradənin çatışmazlığı halları missiyanın effektivliyinə xələl gətirməklə yanaşı, onun tam və ya qismən uğursuz olmasına da səbəb ola bilər. Şübhəsiz, bu gün dünyada gedən müharibələr kontekstində sülhməramlı əməliyyatların dəstəklənməsi üçün üzv dövlətlərdən şüurlu səylər tələb olunur.

Beləliklə, 1948-ci ildə BMT TŞ-nin qərarı ilə hərbi müşahidəçilərin Yaxın Şərqə göndərilməsi ilə başlayan BMT Sülhməramlı Qüvvələrinin fəaliyyəti çərçivəsində yüz minlərlə hərbi qulluqçu, on minlərlə BMT polisi və digər mülki şəxslər sülhməramlı əməliyyatlarda iştirak etmişdir[18]. Eyni zamanda ötən illər ərzində 4400 nəfərdən çox BMT sülhməramlısı BMT bayrağı altında xidmət edərkən həlak olmuşdur[19].

## Beynəlxalq regional təşkilatlar və dövlətlər tərəfindən həyata keçirilən sülhməramlı əməliyyatlar

BMT-nin birbaşa rəhbərliyi və genişmiqyaslı iştirakı olmadan da regional təşkilatlar, dövlət və ya dövlətlərin koalisiyaları tərəfindən sülhməramlı əməliyyatlar həyata keçirilir. Onların arasında Şimali Atlantika Müqaviləsi Təşkilatını (NATO), Avropa İttifaqını (Aİ) və s. göstərmək olar.

BMT-dən fərqli olaraq NATO böhranların idarə edilməsi istiqamətində fəaliyyət göstərir, Aİ isə daha çox mülki və polis missiyalarına fokuslanır. Məsələn, NATO-nun Kosovodakı Sülhməramlı Qüvvələri (KFOR[20]) və NATO-nun Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri əməliyyatı (İSAF [21]), Aİ-nin isə Kosovoda Qanunun Aliliyi Missiyası (EULEX[22]) buna misal ola bilər.

2001-2014-cü illəri əhatə edən İSAF formal olaraq BMT TŞ-nin 20 dekabr 2001-ci il tarixli 1386 saylı qətnaməsi[23] əsasında həyata keçirilmişdir. Bu missiyanın məqsədi Əfqanıstan Müvəqqəti Hökumətinə Kabildə və ətraf ərazilərdə təhlükəsizliyi təmin etməkdə, dövlət institutlarını bərpa etməkdə və s. bu kimi məsələlərin həllində dəstək vermək idi.

2014-cü ilin sonunda İSAF Əfqanıstanda başa çatdıqdan sonra 2015-ci ilin yanvarın 1-dən NATO-nun Qətiyyətli Dəstək[24] adlı yeni missiyası bu ölkədə fəaliyyətə başlamış və 2021-ci ilin sentyabrında öz fəaliyyətini dayandırmışdır. Bu missiya da BMT TŞ-nin 12 dekabr 2014-cü il tarixli 2189 saylı qətnaməsinə əsaslanır[25]. Onun məqsədi Əfqanıstanı müdafiə etmək və vətəndaşları qorumaq üçün bu ölkənin silahlı qüvvələrinin və dövlət təsisatlarının potensialını inkişaf etdirmək idi. Qeyd edilən dövr ərzində bu istiqamətlərdə müəyyən müsbət nəticələr əldə edilməsinə

18 United Nations Peacekeeping, *"Data"*, Available at: https://peacekeeping.un.org/en/data

19 United Nations Peacekeeping, *"Our history"*, Available at: https://peacekeeping.un.org/en/our-history

20 NATO, *"Kosovo Force"*, Available at: https://jfcnaples.nato.int/kfor

21 NATO, *"ISAF's mission in Afghanistan (2001-2014)"*, Available at: https://www.nato.int/cps/en/natolive/topics_69366.htm

22 European Union, *"The European Union Rule of Law Mission in Kosovo (EULEX Kosovo)"*, Available at: https://www.eulex-kosovo.eu

23 United Nations, *"Resolution 1386 (2001) adopted by the Security Council at its 4443rd meeting, on 20 December 2001"*, Available at: https://digitallibrary.un.org/record/454998?v=pdf

24 NATO, *"Resolute Support Mission in Afghanistan (2015-2021)"*, 30 May 2022, Available at: https://www.nato.int/cps/en/natohq/topics_113694.htm

25 United Nations, *"Resolution 2189 (2014) adopted by the Security Council at its 7338th meeting, on 12 December 2014"*, Available at: https://digitallibrary.un.org/record/784885?v=pdf

baxmayaraq, Taliban döyüşçüləri ilə toqquşmalar ölkədə təhlükəsizliyin tam mənada təmin edilməsinə imkan verməmişdir. 2021-ci il aprelin 14-də ABŞ Prezidenti Co Bayden bütün ABŞ hərbi qüvvələrinin 2021-ci ilin mayın 1-dən başlayaraq sentyabrın 11-nə qədər Əfqanıstanı tərk edəcəyini bəyan etdikdən sonra[26], ölkədə vəziyyət daha da gərginləşmişdir. Nəhayət, 2021-ci ilin avqustun 15-də Prezident Əşrəf Qani ölkəni tərk etdikdən bir neçə saat sonra zəif müqavimətlə üzləşən Taliban döyüşçüləri paytaxt Kabili tutmuş və tezliklə bütün Əfqanıstanı ələ keçirmişdilər[27]. Beləliklə, 2021-ci ilin yayında Əfqanıstan hökumətinin və Əfqan Milli Müdafiə və Təhlükəsizlik Qüvvələrinin süqutundan sonra NATO əsas diqqətini müttəfiq və tərəfdaş ölkələrdən olan heyətin, eləcə də öz əfqan əməkdaşlarının təhlükəsiz şəkildə ölkəni tərk etməsinə yönəltmişdir[28].

Eyni zamanda NATO-nun 1999-cu ilin mart-iyun aylarında Kosovoda 78 gün davam etmiş hava əməliyyatı (the Kosovo Air Campaign), həmçinin ABŞ və müttəfiqlərinin İraqa 2003-cü ildə müdaxiləsi BMT TŞ-nin birbaşa mandatı olmadan həyata keçirilmişdir. Bir çox dövlətlər tərəfindən bu hallar beynəlxalq hüququn pozulması kimi qiymətləndirilir.

Lakin Kosovo nümunəsində eləcə də qeyd edilməlidir ki, NATO tərəfindən həyata keçirilmiş Hava əməliyyatı nəticəsində Yuqoslaviya Federativ Respublikası hökumətinin Kosovo böhranını siyasi vasitələrlə həll etmək qərarından sonra BMT TŞ 1999-cu il iyunun 10-da 1244 saylı qətnaməsini[29] qəbul etmiş və BMT-nin himayəsi altında Kosovoda beynəlxalq mülki və təhlükəsizlik qüvvələri yerləşdirilmişdir.

Beləliklə, 1999-cu ilin iyunundan bu günə qədər NATO Kosovoda sülhə dəstək əməliyyatına rəhbərlik edir. Bu gün bu sülhməramlı əməliyyatda 28 ölkədən təxminən 4500 hərbi qulluqçu iştirak edir və Kosovoda yaşayan mülki əhalinin sabit və təhlükəsiz bir mühitdə yaşaması və onların hərəkət azadlığının qorunması üçün fəaliyyət göstərir[30].

Eyni zamanda ABŞ və müttəfiqləri 2003-cü ilin martında İraqa müdaxilə edərkən, BMT-nin əvvəlki qətnamələrini, xüsusilə 2002-ci ildə qəbul edilmiş 1441 saylı qətnaməni[31] əsas gətirərək, İraqın tərk-silah tələblərini yerinə yetirmədiyi üçün ona qarşı güc tətbiq etdiklərini bildirmişlər. Lakin Səddam Hüseyn rejiminin devrilməsindən sonra BMT TŞ İraqda keçid dövrünü tənzimləyən bir sıra sənədlər qəbul etmişdir. Onların arasında 2003-cü ilin 16 oktyabr tarixində qəbul edilmiş 1511 saylı qətnaməni[32] və 2004-cü ilin 8 iyun tarixində qəbul edilmiş 1546 saylı qətnaməni[33] xüsusi olaraq qeyd etmək lazımdır.

BMT TŞ-nin 1511 saylı qətnaməsi ABŞ-nin rəhbərlik etdiyi çoxmillətli qüvvələrə mandat verməklə yanaşı, onların İraqda təhlükəsizliyin və sabitliyin təmin edilməsinə dəstək göstərəcəyini təsdiqləmişdir. BMT TŞ-nin 1546 saylı qətnaməsi isə İraqın suverenliyinin İraq Müvəqqəti Hökumətinə verilməsini tanımış, çoxmillətli qüvvələrin statusunu bir daha təsdiqləmiş və onların İraqın yeni hökumətinin tələblərinə uyğun olaraq hərəkət edəcəyini bəyan etmişdir.

26 U.S. Department of War, *"Biden Announces Full U.S. Troop Withdrawal From Afghanistan by Sept. 11"*, 14 April 2021, Available at: https://www.war.gov/News/News-Stories/Article/article/2573268/biden-announces-full-us-troop-withdrawal-from-afghanistan-by-sept-11/

27 Zachary Laub and Lindsay Maizland, "1999–2021: The U.S. War in Afghanistan", *Council on Foreign Relations*, Available at: https://www.cfr.org/timeline/us-war-afghanistan

28 NATO, *"NATO and Afghanistan"*, 31 August 2022, Available at: https://www.nato.int/cps/en/natohq/topics_8189.htm

29 United Nations, *"Resolution 1244 (1999) adopted by the Security Council at its 4011th meeting, on 10 June 1999"*, Available at: https://digitallibrary.un.org/record/274488?v=pdf

30 NATO, *"NATO's Role in Kosovo"*, Available at: https://jfcnaples.nato.int/kfor/about-us/welcome-to-kfor/natos-role-in-kosovo

31 United Nations, *"Resolution 1441 (2002) adopted by the Security Council at its 4644th meeting, on 8 November 2002"*, Available at: https://www.un.org/depts/unmovic/documents/1441.pdf

32 United Nations, *"Resolution 1511 (2003) adopted by the Security Council at its 4844th meeting, on 16 October 2003"*, Available at: https://digitallibrary.un.org/record/504316?v=pdf

33 United Nations, *"Resolution 1546 (2004) adopted by the Security Council at its 4987th meeting, on 8 June 2004"*, Available at: https://digitallibrary.un.org/record/523025/?v=pdf&ln=es

Beləliklə, aydındır ki, sülhməramlı əməliyyatların həyata keçirilməsində müxtəlif ölkələrin silahlı qüvvələrinin birgə fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Lakin bu prosesdə bir sıra çətinliklər də mövcuddur. Onlar arasında milli kontingentlər arasında silahlanma və texniki avadanlıqda fərqlər, idarəetmə sistemlərində uyğunluğun zəif olması, şəxsi heyətin hazırlıq səviyyəsinin və təlim standartlarının müxtəlif olması və s. bu kimi məsələlər birgə əməliyyatların həyata keçirilməsində müəyyən problemlər yarada bilər.

## Sülhməramlı əməliyyatların təsnifatı

70 ildən artıq bir dövr ərzində həyata keçirilmiş sülhməramlı əməliyyatlar zaman keçdikcə mahiyyət və forma etibarilə müəyyən dəyişikliklərə məruz qalmış və onların məqsəd və vəzifələri tədricən xeyli genişlənmişdir.

Nəzəri olaraq bu gün sülhməramlı əməliyyatları aşağıdakı üç qrupa bölmək olar:

1. müşahidə missiyaları;
2. çoxölçülü sülhməramlı missiyalar və
3. sülhə məcburetmə əməliyyatları.

### *1. Müşahidə missiyaları*

"Soyuq müharibə" dövründə həyata keçirilən ilk sülhməramlı əməliyyatlara müşahidə missiyaları aid edilir. Adətən, silahsız və neytral müşahidəçilərdən ibarət belə əməliyyatların məqsədi silahlı müdaxilə etmədən münaqişə tərəfləri arasında atəşkəsin icrasına nəzarət etmək, hesabatlar hazırlamaq və etimad quruculuğu yaratmaq rolunu oynamaq olmuşdur[34].

Nümunələr arasında 1949-cu ildən etibarən BMT-nin Yaxın Şərqdəki ilk müşahidə missiyası olan BMT-nin Atəşkəsə Nəzarət Təşkilatını (UNTSO)[35] göstərmək olar.

Məlum olduğu kimi, 1947-ci ilin noyabrında BMT-nin Baş Məclisi Fələstinin bölünməsinə dair planı təsdiq etdikdən sonra Fələstinin ərazisində ərəb və yəhudi dövlətləri yaradılmalı, Qüds isə beynəlxalq status çərçivəsində fəaliyyət göstərməli idi. Lakin bu plan nə Fələstində yaşayan ərəblər, nə də ümimilikdə ərəb dövlətləri tərəfindən qəbul edildi. Nəticədə 1948-ci il mayın 14-də Böyük Britaniya Fələstin üzərində mandatından imtina etdikdən və İsrail Dövləti elan edildikdən sonra Fələstin ərəbləri ərəb dövlətlərinin köməyi ilə İsrailə qarşı hərbi əməliyyatlara başladılar.

Nəticədə 1948-ci ilin 29 may tarixində BMT-nin Təhlükəsizlik Şurası 50 (1948)[36] saylı qətnaməsi ilə Fələstində hərbi əməliyyatların dayandırılmasına çağırış etdi və atəşkəsə bir qrup hərbi müşahidəçinin köməkliyi ilə BMT-nin vasitəçisi tərəfindən nəzarət edilməsi qərarını verdi. Beləliklə, ilk hərbi müşahidəçilər qrupu olan UNTSO 1949-cu ildə İsrail və ərəb ölkələri arasında atəşkəs rejiminə nəzarət etmək məqsədilə Qüds şəhərində yaradılmışdır.

UNTSO-nun hərbi müşahidəçiləri atəşkəs rejiminə və atəşkəs razılaşmalarına nəzarət etmək, təcrid olunmuş insidentlərin artmasının qarşısını almaq və BMT-nin bölgədə fəaliyyət göstərən digər sülhməramlı əməliyyatlarına kömək etmək məqsədilə Yaxın Şərqdə bu gün də qalmaqdadırlar.

Müşahidə missiyalarına, eləcə də BMT-nin Hindistan və Pakistandakı Hərbi Müşahidəçilər Qrupu (UNMOGİP)[37] aid edilir. Bu missiyanın əsasını Cammu və Kəşmir əyalətində Hindistan

34 United Nations Peacekeeping, *"Our history"*, Available at: https://peacekeeping.un.org/en/our-history

35 United Nations, *"United Nations Truce Supervision Organization"*, Available at: https://untso.unmissions.org/

36 United Nations, *"Resolution 50 (1948) adopted by the Security Council at its 310th meeting, of 29 May 1948"*, Available at: https://digitallibrary.un.org/record/111999?v=pdf

37 United Nations Peacekeeping, *"UNMOGIP Fact Sheet: United Nations Military Observer Group in India and Pakistan"*, Available at: https://peacekeeping.un.org/en/mission/unmogip

və Pakistan arasında atəşkəsə nəzarət etmək məqsədilə 1949-cu ilin 24 yanvar tarixində bu əraziyə yerləşdirilmiş BMT hərbi müşahidəçilərinin ilk qrupu təşkil etmişdir. Bu müşahidəçilər BMT Baş katibinin təyin etdiyi hərbi müşavirin komandanlığı altında fəaliyyət göstərməli idi.

1971-ci ildə hərbi əməliyyatlar yenidən başladıqdan sonra UNMOGİP 17 dekabr 1971-ci il tarixli atəşkəs rejiminin şərtlərinə ciddi riayət edilməsi ilə bağlı hadisələri müşahidə etmək və bu barədə Baş katibə hesabat vermək məqsədilə ərazidə saxlanılmışdır. UNMOGİP bu gün də öz fəaliyyətini davam etdirir.

Yunan və türk icmaları arasında münaqişənin qarşısını almaq və atəşkəs rejiminə nəzarət etmək məqsədilə 1964-cü ildən etibarən Kiprdə yerləşdirilmiş BMT Sülhməramlı Qüvvələri (UNFİCYP)[38] də bu qrupa daxildir. Bu sülhməramlı əməliyyat BMT TŞ-nin 4 mart 1964-cü il tarixli, 186 saylı qətnaməsi[39] ilə həyata keçirilir. 1974-cü ildə baş vermiş hərbi əməliyyatlardan sonra BMT TŞ bu sülhməramlı qüvvələrin mandatını bir qədər genişləndirmişdir. Kipr münaqişəsi hələ də öz həllini tapmadığı üçün UNFİCYP atəşkəsə nəzarət etmək, bufer zonanı saxlamaq, humanitar fəaliyyətləri həyata keçirmək və BMT Baş katibinin xoş niyyətlər missiyasını dəstəkləmək üçün Kiprdə öz fəaliyyətini davam etdirir.

### *2. Çoxölçülü sülhməramlı missiyalar*

"Soyuq müharibə"nin başa çatması ilə BMT-nin sülhməramlı əməliyyatlarının strateji konteksti kəskin şəkildə dəyişdi. BMT artıq hərtərəfli sülh sazişlərinin reallaşmasını təmin etmək və davamlı sülhün əsaslarının qoyulmasına kömək etmək məqsədilə çoxölçülü sülhməramlı missiyalar həyata keçirməyə başladı. Eləcə də zaman keçdikcə münaqişələrin xarakterinin dəyişməsi nəticəsində BMT Sülhməramlı Qüvvələri ölkə daxilində baş verən münaqişələrə, vətəndaş müharibələrinə müdaxilə etməli olurdular. Onlardan davamlı idarəçilik institutlarının qurulmasına kömək etmək, insan hüquqlarının monitorinqini, təhlükəsizlik sektorunda islahatları, keçmiş döyüşçülərin tərk-silah, demobilizasiya (tərxis) və reinteqrasiya edilməsini həyata keçirmək tələb olunurdu[40].

Bu dövrdə sülhməramlı əməliyyatların sayı da xeyli artdı. Məsələn, BMT TŞ 1989-1994-cü illər arasında BMT sülhməramlılarının sayını 11.000-dən 75.000-ə çatdırmaqla ümumilikdə 20 yeni sülhməramlı əməliyyatın həyata keçirilməsinə icazə verdi. Bu missiyalar Anqola, Kamboca, El Salvador, Mozambik və Namibiyada həyata keçirilməyə başlandı.

Lakin 1990-cı illərin əvvəllərində və ortalarında sülhməramlı əməliyyatlar çərçivəsində baş vermiş bəzi uğursuzluqlar BMT TŞ-nı yeni sülhməramlı missiyaların sayını məhdudlaşdırmağa və belə uğursuzluqların bir daha baş verməməsi üçün ciddi qiymətləndirmə aparmağa sövq etdi[41].

1990-cı illərin ikinci yarısında BMT Sülhməramlı Qüvvələri Anqolada, Bosniya və Herseqovinada, Xorvatiyada, Şimali Makedoniyada, Qvatemalada və Haitidə yeni sülhməramlı əməliyyatlar həyata keçirməyə başladılar. Sonrakı illərdə də BMT TŞ bir sıra Afrika ölkələrində də (Burundi, Çad, Mərkəzi Afrika Respublikası, Kot-d'İvuar, Konqo Demokratik Respublikası, Eritreya/Efiopiya, Liberiya, Sierra Leone, Sudan, Cənubi Sudan, Suriya) genişmiqyaslı və mürəkkəb sülhməramlı əməliyyatların həyata keçirilməsini təsdiqlədi. Bu gün bu əməliyyatların bir çoxu öz mandatını artıq başa çatdırmışdır[42].

38 United Nations Peacekeeping, *"United Nations Peacekeeping Force in Cyprus"*, Available at: https://peacekeeping.un.org/en/mission/unficyp

39 United Nations, *"Resolution 186 (1964) adopted by the Security Council at its 1102nd meeting, of 4 March 1964"*, Available at: https://digitallibrary.un.org/record/112185?v=pdf

40 United Nations Peacekeeping, *"Our history"*, Available at: https://peacekeeping.un.org/en/our-history

41 Yenə orada

42 Yenə orada

Hal-hazırda 121 ölkədən 68.784 BMT sülhməramlısı 11 sülhməramlı əməliyyatda iştirak edir[43]. Sülhməramlı əməliyyatların sayının azalması heç də BMT-nin qarşılaşdığı problemlərin azalmasını göstərmir. Məlum olduğu kimi, BMT tərəfindən həyata keçirilən əməliyyatlar həm də icrası baxımından siyasi mülahizələrlə sıx şəkildə bağlıdır. Eyni zamanda sülhməramlı əməliyyatların uğuru yalnız hərbi və maddi-texniki imkanlardan deyil, eləcə də aydın şəkildə müəyyən edilmiş mandatdan, mürəkkəb siyasi dinamikaya və dəyişən münaqişə şəraitinə uyğunlaşmadan, möhkəm siyasi dəstəyin təmin edilməsindən və bütün iştirakçı tərəflərlə səmərəli əməkdaşlığın gücləndirilməsindən asılıdır.

Bundan əlavə, müasir sülhməramlı əməliyyatlar daha mürəkkəb və siyasi cəhətdən həssas bir mühitdə həyata keçirilir. Əgər əvvəllər BMT-nin nisbətən vahid əlaqələndirməsi altında aparılan əməliyyatlara legitimlik baxımından daha çox etibar olunurdusa, indi fərqli beynəlxalq və regional koalisiyalar tərəfindən həyata keçirilən çoxsaylı missiyalar beynəlxalq hüquq baxımından mübahisəlidir. Qlobal və regional güclər arasında artan rəqabət, normativ ikili standartlar və beynəlxalq hüququn selektiv tətbiqi, sülhməramlı əməliyyatların legitimliyi və effektivliyi üçün ciddi problemlər yaradır və onların siyasi neytrallığını sual altına qoyur.

### *3. Sülhə məcburetmə əməliyyatları*

Beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması istiqamətində həyata keçirilən daha bir fəaliyyət növü sülhə məcburetmə əməliyyatlarıdır.

Bu növ əməliyyatlar daha mürəkkəb münaqişələr zamanı həyata keçirilir və əsasən BMT Təhlükəsizlik Şurasının sanksiyası ilə qüvvəyə minir. Belə missiyalar tərəflərin razılığı olmadan belə həyata keçirilə bilər və onlar güc tətbiq etməyə hazır olan birləşmiş hərbi qüvvələr tərəfindən icra edilir. Əsas məqsəd zorakılığı dayandırmaq, insan hüquqlarının qorunmasını təmin etmək və mümkün humanitar fəlakətlərin qarşısını almaqdır.

Nümunələr arasında NATO-nun Bosniya və Herseqovinada Deyton sülh sazişinin icrasını təmin etmək və bölgədə təhlükəsizliyi bərpa etmək məqsədilə həyata keçirilən İcra Qüvvəsi (İFOR) və daha sonra Sabitləşdirici Qüvvəsi (SFOR) əməliyyatlarını göstərmək olar[44].

Bosniya və Herseqovinada 1992-1995-ci illərdə davam etmiş hərbi münaqişənin başa çatması prosesində NATO-nun müdaxiləsi xüsusi rol oynamışdır. Bu hərbi alyans ilk olaraq BMT-yə dəstək nümayiş etdirərək, iqtisadi sanksiyalar, silah embarqosu və uçuşa qadağa zonaları tətbiq etmiş və fövqəladə hərbi halların planlaşdırılmasını təmin etmişdir. Lakin bu tədbirlər müharibənin dayandırılmasına səbəb olmamışlar. Yalnız NATO-nun 1995-ci ilin sentyabr ayında apardığı 12 günlük genişmiqyası hava əməliyyatı 1995-ci il dekabrın 20-də Bosniya münaqişəsinə son qoymuş Deyton sülh sazişi ilə nəticələnmişdir[45].

Bu sazişin şərtlərinə əsasən, NATO-nun 60.000 sülhməramlısı İFOR missiyası çərçivəsində Bosniya ərazisində yerləşdirilmiş və bu, Alyansın "soyuq müharibə"dən sonra quruda həyata keçirdiyi ilk böyük hərbi əməliyyatı olmuşdur. Bu missiyada həm NATO, həm də qeyri-NATO ölkələrinin hərbçiləri iştirak etmişlər. BMT mandatına əsasən, İFOR missiyası hərbi əməliyyatların dayandırılmasını təmin etməli, ölkədə yeni yaradılmış qurumlar olan Bosniya və Herseqovina Federasiyasının və Serb Respublikasının silahlı qüvvələrini ayırmalı və onların ağır silahlarını təhlükəsiz zonalara yerləşdirməli, eləcə də digər vəzifələri yerinə yetirməli idi.

43 United Nations Peacekeeping, *"Data"*, Available at: https://peacekeeping.un.org/en/data

44 NATO, *"Peace support operations in Bosnia and Herzegovina (1995-2004)"*, 21 March 2024, Available at: https://www.nato.int/en/what-we-do/operations-and-missions/peace-support-operations-in-bosnia-and-herzegovina-1995-2004

45 NATO, *"Bosnia"*, Available at: https://shape.nato.int/page139104827

Bir il sonra İFOR öz işini yekunlaşdırdıqdan sonra, 1996-cı ilin dekabrında onu SFOR missiyası əvəz etmişdir. Sülhməramlılar qaçqınların öz evlərinə qayıtmasına dəstək verməklə yanaşı, seçkilərin keçirilməsinin təhlükəsizliyini təmin etmiş, Bosniya hərbi qüvvələrinin islahatlarına töhfə vermiş, eləcə də ittiham olunan hərbi cinayətkarların tutulmasına köməklik göstərmişlər.

Beləliklə, NATO-nun sülhməramlı qüvvələri 1995-ci ilin dekabrından etibarən doqquz il ərzində Deyton sülh sazişinin həyata keçirilməsində əsas rol oynamışlar. 2004-cü ilin dekabrında isə Deyton sülh sazişinin hərbi aspektləri üzrə əsas məsuliyyət Aİ-nin Bosniya və Herseqovinada həyata keçirdiyi EUFOR Althea[46] əməliyyatına verilmişdir. NATO bu gün də Berlin Plus Sazişləri çərçivəsində EUFOR Althea əməliyyatına dəstək verməkdədir[47].

## Nəticə

1940-cı illərin sonundan, yəni ilk BMT sülhməramlı missiyalarının yaradılmasından bu günə qədər keçən dövr ərzində belə əməliyyatlara münasibətdə sərgilənən siyasi yanaşma xeyli dəyişmişdir. Əgər əvvəllər sülhməramlı missiyalar sırf neytral və müşahidəçi xarakter daşıyırdısa, zaman keçdikcə və beynəlxalq mühit mürəkkəbləşdikcə onlar daha aydın siyasi xarakter daşımağa başlamışdır.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, "soyuq müharibə" dövründə (1946–1991) də sülhməramlı missiyaların böyük dövlətlər arasında rəqabət şəraitində həyata keçirilməsinə baxmayaraq, BMT öz neytrallığını qoruyub saxlamağa çalışırdı. Lakin "soyuq müharibə"dən sonra BMT-nin mandatı olmadan həyata keçirilən bir sıra sülhməramlı əməliyyatlar beynəlxalq hüquq, legitimlik və effektivlik baxımından qarışıq nəticələrə səbəb olmuşdur. Digər tərəfdən, sülhməramlı əməliyyatların geosiyasi maraqların alətinə çevrilməsi davamlı sülhün əldə edilməsinə də imkan vermir.

Eyni zamanda 1990-cı illərdən başlayaraq, sülhməramlı əməliyyatlar yalnız hərbi deyil, həm də siyasi, humanitar və sosial aspektləri də əhatə etməyə başlamışdır. Hal-hazırda demokratik institutların qurulması, seçki proseslərinin müşahidəsi, hüquq-mühafizə və təhlükəsizlik sektorunda islahatların keçirilməsi, insan hüquqlarının müdafiəsi kimi məsələlər də missiyaların mandatına daxil edilir.

2000-ci illərdən etibarən beynəlxalq münasibətlərdə çoxqütblülük və regional güclərin təsirinin artması sülhməramlı əməliyyatların siyasi tərəflərinin idarə olunmasını daha da mürəkkəbləşdirmişdir. Bu gün missiyaların uğuru yalnız hərbi nailiyyətlərlə deyil, həm də siyasi diplomatiya, tərəfdaşlarla əlaqələndirmə və yerli səviyyədə legitimliyin əldə olunması ilə ölçülür.

1992-ci il martın 2-də BMT-yə üzv qəbul edilmiş Azərbaycan Respublikası beynəlxalq sülhün və təhlükəsizliyin qorunması istiqamətində məqsədyönlü fəaliyyət həyata keçirir. Ötən illər ərzində Azərbaycan Ordusunun tərkibində yaradılmış sülhməramlı kontingent bir sıra əməliyyatlarda yaxından iştirak etmiş və bu gün də öz səmərəli fəaliyyətini davam etdirməkdədir.

46 European Union, *"EUFOR Bosnia-Herzegovina Military Operation ALTHEA"*, 30 November 2020, Available at: https://www.eeas.europa.eu/eufor-althea/eufor-bosnia-herzegovina-military-operation-althea_und_en

47 NATO, *"Relations with Bosnia and Herzegovina"*, 9 December 2025, Available at: https://www.nato.int/cps/uk/natohq/topics_49127.htm?selectedLocale=en

# Fəsil 2. Azərbaycan Ordusunun sülhməramlı əməliyyatlarının siyasi aspektləri

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası qısa müddət ərzində beynəlxalq təhlükəsizlik sisteminə fəal inteqrasiya olunmağa başlamış və qlobal sülhə töhfə verən ölkə kimi öz rolunu ortaya qoymuşdur. Ölkənin Milli Təhlükəsizlik Konsepsiyasında da vurğulandığı kimi, "müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlı əməliyyatlarda iştirak etmək" Azərbaycanın müdafiə siyasətinin əsas istiqamətlərindən biri hesab olunur[48]. Bu strateji xəttə uyğun olaraq, 1997-ci ildə Azərbaycan Ordusunun tərkibində ilk sülhməramlı bölüyün, 2001-ci ildə isə sülhməramlı taborun yaradılması ölkənin qlobal sülhyaratma proseslərində rol almaq niyyətini praktiki müstəviyə keçirmişdir. Beləliklə, 1999-cu ildən başlayaraq Azərbaycan Ordusunun sülhməramlı kontingenti dünyanın müxtəlif münaqişə bölgələrində - Kosovo, İraq, Əfqanıstan kimi ölkələrdə və son dövrdə Cənubi Sudanda – beynəlxalq sülhməramlı missiyalarda uğurla iştirak etmişdir.

## Beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasında iştirak

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra qlobal təhlükəsizliyə fəal töhfə verməyi xarici siyasətinin vacib prioritetlərindən biri kimi müəyyənləşdirmişdir. Ölkə rəhbərliyi beynəlxalq sülh və sabitliyin qorunmasını yalnız regional deyil, qlobal səviyyədə də öz təhlükəsizlik maraqlarının və dayanıqlı inkişafının tərkib hissəsi kimi görür. Bu baxımdan, Azərbaycan Ordusunun sülhməramlı missiyalarda iştirakı Azərbaycanın sülhsevər siyasətinin real təzahürüdür. Azərbaycan dünyanın müxtəlif qaynar nöqtələrində sülhün bərqərar olmasına töhfə verməklə həm də öz milli maraqlarını təmin edir, çünki sülh və sabitlik beynəlxalq sistemin bir parçası olan hər bir ölkənin rifahı üçün vacib şərtdir.

Azərbaycanın beynəlxalq təhlükəsizliyə töhfə vermək iradəsi həm siyasi bəyanatlarda, həm də praktiki addımlarda özünü göstərir. Məsələn, 11 sentyabr terror aktlarından sonra beynəlxalq terrorçuluğa qarşı qlobal mübarizədə Azərbaycan tərəddüd etmədən koalisiya qüvvələrinə qoşularaq Əfqanıstan və İraq missiyalarında iştirak etmişdir. Bu qərarlar Azərbaycanın sülh və təhlükəsizlik naminə qlobal səylərə qoşulmaq əzmini nümayiş etdirdi. Sülhməramlı əməliyyatlarda iştirak sayəsində Azərbaycan etibarlı tərəfdaş imicini möhkəmləndirmiş, beynəlxalq ictimaiyyət qarşısında məsuliyyətli bir aktor olduğunu göstərmişdir.

Digər tərəfdən, sülhməramlı missiyalar daxili təhlükəsizliyə də dolayı yolla müsbət təsir göstərir. Belə ki, Azərbaycan Ordusunun əsgər və zabitləri beynəlxalq missiyalarda xidməti zamanı əldə etdikləri təcrübə sayəsində yeni peşəkar vərdişlər qazanır, bu da milli ordunun peşəkarlıq səviyyəsini yüksəldir. Amerikalı ekspert Brüs Pannier qeyd edir ki, Azərbaycanın sülhməramlı əməliyyatlarda iştirakı respublikaya misilsiz təcrübə qazandırır və xüsusilə hazırda dünyada artan münaqişələr fonunda bu təcrübə çox əhəmiyyətlidir[49]. Yəni Azərbaycan sülhməramlı kontingent göndərməklə yalnız başqalarına yardım etmir, eyni zamanda özü üçün də dəyərli təcrübə əldə edir.

Nəticə etibarilə, beynəlxalq təhlükəsizliyə töhfə vermək istəyi Azərbaycanın həm xarici siyasətində, həm də ordu quruculuğu strategiyasında öz əksini tapmışdır. Azərbaycan bu istəyi reallaşdırmaq üçün konkret addımlar ataraq qlobal missiyalara qoşulmuş və beləliklə, dünyada

48 E-qanun.az, *"Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"*, № 2198, 23 may 2007, Elektron resurs: https://e-qanun.az/framework/13373

49 Report.az, *"Amerikalı ekspert: "Azərbaycan Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak etməklə təcrübə qazanır""*, 14 noyabr 2017, Elektron resurs: https://report.az/analitika/amerikali-ekspert-azerbaycan-efqanistanda-sulhmeramli-emeliyyatlarda-istirak-etmekle-tecrube-qazanir-rey/

sülh və sabitlik işinə öz töhfəsini vermişdir. Bu siyasət ölkəni etibarlı tərəfdaş kimi tanıdır və beynəlxalq təhlükəsizlik arxitekturasında Azərbaycanın rolunu artırır.

## Beynəlxalq münasibətlər sisteminə inteqrasiya və nüfuzun artırılması

Azərbaycanın sülhməramlı əməliyyatlarda iştirakı onun beynəlxalq münasibətlər sisteminə uğurla inteqrasiya olunmasının mühüm göstəricilərindən biridir. Müstəqillik əldə etdikdən sonra Azərbaycan balanslı və çoxvektorlu xarici siyasət yürüdərək həm qonşu regionlarla, həm də Qərb dünyası ilə əlaqələrini inkişaf etdirməyə çalışmışdır[50]. Bu kontekstdə, qlobal və regional təşkilatlarla əməkdaşlıq və beynəlxalq missiyalarda iştirak ölkənin dünya birliyinə üzv kimi məsuliyyətini dərk etdiyini nümayiş etdirmişdir. Sülhməramlı missiyalarda olmaq Azərbaycanı dünya dövlətləri ailəsində etibarlı və fəal üzv kimi təqdim edir, siyasi nüfuzunu artırır.

İlk növbədə, NATO çərçivəsində əməkdaşlıq Azərbaycanın beynəlxalq sistemə inteqrasiyasında xüsusi rol oynayır. 1994-cü ildə "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulandan sonra Azərbaycan-NATO münasibətləri etibarlı tərəfdaşlıq zəminində inkişaf edib. Azərbaycan NATO-nun keçirdiyi sülhməramlı missiyalarda (Kosovo, Əfqanıstan, İraq) fəal iştirak etməklə, həm də Avro-Atlantik təhlükəsizlik sisteminə öz töhfəsini vermişdir. Bu iştirak sayəsində Azərbaycan bir tərəfdən öz təhlükəsizliyinə beynəlxalq dəstək qazanmış (məsələn, NATO həmişə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı dəstəkləyən mövqe ifadə edib), digər tərəfdən də Alyansın aparıcı ölkələri ilə siyasi dialoqunu dərinləşdirmişdir.

Azərbaycanın sülhməramlı fəaliyyəti ikitərəfli siyasi əlaqələri də möhkəmləndirir. Belə ki, Azərbaycan hərbçilərinin NATO və ya koalisiya qüvvələri tərkibində xidmət aparması həmin ölkələrlə qarşılıqlı etimad və əməkdaşlıq mühitini gücləndirir. Belə qeyd edilir ki, Azərbaycan kontingentinin Əfqanıstanda iştirakının əhəmiyyətli cəhətlərindən biri də məhz "Azərbaycan əsgərlərinin orada, əsasən NATO ölkələri olmaqla, bir çox ölkənin əsgərləri ilə çiyin-çiyinə xidmət aparması və bunun nəticəsində həmin dövlətlərlə əlaqələrin möhkəmlənməsidir"[51]. Yəni sülhməramlı missiyalar diplomatik kanalların qeyri-rəsmi davamı kimi çıxış edərək Azərbaycan ilə tərəfdaş ölkələr arasında siyasi körpülər yaradır. Məsələn, İraq və Əfqanıstan missiyalarında ABŞ, Türkiyə, İtaliya, Gürcüstan, Ukrayna və s. ölkələrlə ortaq fəaliyyət ölkənin həmin dövlətlərlə hərbi-siyasi dialoqunu zənginləşdirmişdir.

Azərbaycanın beynəlxalq nüfuzu da bu fəaliyyət nəticəsində yüksəlib. Azərbaycan sülhməramlılarının peşəkarlığı və nizam-intizamı yüksək qiymətləndirilir, dünya mətbuatında və beynəlxalq rəsmilərin çıxışlarında təqdir olunur. Məsələn, NATO-nun sabiq Baş katibi Yens Stoltenberq dəfələrlə Azərbaycanın sülhməramlı əməliyyatlara verdiyi töhfəni yüksək dəyərləndirmiş, xüsusilə ölkənin Əfqanıstanda göstərdiyi dəstəyə görə təşəkkür etmişdir[52]. Bu kimi rəylər Azərbaycanın beynəlxalq arenada müsbət imicini formalaşdırır və etibarlı tərəfdaş reputasiyasını gücləndirir.

Nəticə etibarilə, Azərbaycan Ordusunun beynəlxalq missiyalarda iştirakı ölkənin qlobal siyasətə inteqrasiyasına xidmət edir. Bu iştirak sayəsində Azərbaycan beynəlxalq təşkilatlarda və koalisiyalarda söz sahibinə çevrilir, dost və tərəfdaş dövlətlərin sayını artırır. Ən əsası isə

50 Mətin Məmmədli, "Yeni geosiyasi reallıqlarda NATO-Azərbaycan əlaqələri", *Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi,* mart 2024, Elektron resurs: https://aircenter.az/uploads/_tZrQRkOwf68.pdf

51 Report.az, *"Amerikalı ekspert: 'Azərbaycan Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak etməklə təcrübə qazanır'"*, 14 noyabr 2017, Elektron resurs: https://report.az/analitika/amerikali-ekspert-azerbaycan-efqanistanda-sulhmeramli-emeliyyatlarda-istirak-etmekle-tecrube-qazanir-rey/

52 Apa.az, *"NATO-nun Baş katibi: Azərbaycan sülhməramlıları Əfqanıstanda çox vacib missiyanı yerinə yetirdi"*, 17 mart 2024, Elektron resurs: https://apa.az/xarici-siyaset/nato-bas-katibi-azerbaycan-sulhmeramlilari-efqanistanda-cox-vacib-missiyani-yerine-yetirdi-830045

Azərbaycan dünya birliyinin məsuliyyətli üzvü kimi qlobal sülhə real töhfələr verərək öz nüfuzunu yüksəldir və milli maraqlarını daha effektiv müdafiə etmək imkanı qazanır.

## Ordunun beynəlxalq standartlara uyğunlaşdırılması və döyüş qabiliyyətinin artırılması

Azərbaycan Ordusunun sülhməramlı əməliyyatlarda iştirakı yalnız siyasi-diplomatik məqsədlərə xidmət etmir, eyni zamanda ordunun peşəkarlıq səviyyəsinin artırılması baxımından da mühüm rol oynayır. Azərbaycan müstəqillik qazandıqdan sonra ordunun modernləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl islahatlar aparmışdır. Xüsusilə, NATO ilə əməkdaşlıq proqramları (Sülh Naminə Tərəfdaşlıq, Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (İPAP) və s.) çərçivəsində Azərbaycan Ordusunda qərargah planlaması, təlim-tədris sistemi, idarəetmə və logistika sahələrində standartların təkmilləşdirilməsi davam etmişdir. Sülhməramlı missiyalarda iştirak isə bu standartların praktikada tətbiqinə və şəxsi heyətin real şəraitdə sınaqdan çıxmasına imkan yaratmışdır.

Beynəlxalq əməliyyatlarda iştirak ilk növbədə Azərbaycan hərbçilərinin döyüş hazırlığını və peşəkarlığını yüksəldib. NATO qoşunları ilə çiyin-çiyinə xidmət aparan Azərbaycan sülhməramlıları müasir döyüş taktikalarını öyrənir, qərargah prosedurlarına bələd olur və çoxmillətli komanda mühitində fəaliyyət bacarığı əldə edirlər. Məsələn, hələ 1999-cu ildə Kosovoya göndərilən ilk heyət NATO standartları ilə yaxından tanış olaraq ortaq əməliyyatlarda iştirak təcrübəsi qazandı və sülhməramlı bölmələr peşəkarlıq səviyyəsini artırdı. Bu təcrübə sonrakı illərdə digər bölmələrə də ötürülmüş və ordunun ümumi hazırlıq səviyyəsinə müsbət təsir göstərmişdir.

Bundan əlavə, Azərbaycanın ABŞ və digər Qərb tərəfdaşları ilə hərbi təlim-təhsil sahəsində əməkdaşlığı ordunun imkanlarını artırıb. 2000-ci illərdən etibarən ABŞ-ın Xarici Hərbi Maliyyələşdirmə (FMF) və Beynəlxalq Hərbi Təhsil və Təlim (IMET) proqramları çərçivəsində xeyli sayda Azərbaycan zabiti xaricdə kurslar keçmiş, ordunun maddi-texniki bazasının təkmilləşdirilməsinə dəstək verilmişdir. Xüsusən, Oklahoma Milli Qvardiyası (ONG) ilə Dövlət Tərəfdaşlığı Proqramı çərçivəsində 2003-cü ildən bəri keçirilən birgə tədbirlər və təlim mübadilələri nəticəsində Azərbaycan hərbçilərinin NATO qüvvələri ilə uzlaşma (interoperability) qabiliyyəti daha da artmışdır[53]. Bu cür proqramlar sayəsində Azərbaycan Ordusu beynəlxalq missiyalara qoşulmamışdan əvvəl zəruri bilik və vərdişlərə yiyələnmiş olur.

Azərbaycan sülhməramlı kontingentlərinin tərkibinə şəxsi heyət seçimi də ordunun ümumi inkişafına xidmət edir. Respublika rəhbərliyi sülhməramlı missiyalara göndərilən heyətin ən hazırlıqlı kadrlar arasından seçilməsinə xüsusi diqqət yetirir. Beləliklə, həm seçim meyarları, həm də beynəlxalq mühitdə xidmət aparmaq təcrübəsi Azərbaycan ordusunun şəxsi heyətinin keyfiyyətini daim yüksəldir.

Bütövlükdə, beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak Azərbaycan Ordusunun NATO miqyasında əhəmiyyətini göstərməklə yanaşı, ordunun döyüş qabiliyyətini də artırır. Çoxmillətli missiyalarda üzərinə düşən tapşırıqları layiqincə yerinə yetirən Azərbaycan əsgər və zabiti artıq dünya orduları ilə rəqabət apara biləcək səviyyədə təcrübə qazanıb. Bu təcrübə Vətən müharibəsi (2020) kimi milli məsələlərdə də ordunun uğur qazanmasına dolayısı ilə töhfə vermişdir. Belə ki, illərlə beynəlxalq missiyalarda təcrübə qazanmış bölmələrin real döyüş şəraitində soyuqqanlı qərarlar vermək, mürəkkəb əməliyyat planlaşdırmaq bacarıqları 2020-ci ildə ərazi bütövlüyümüzün bərpası uğrunda aparılan əməliyyatlarda özünü büruzə verdi.

53 Embassy of Republic of Azerbaijan to the United States of America, *"Defense and Security Cooperation"*, Available at: https://washington.mfa.gov.az/en/category/defense-and-security-cooperation

Bütün bunlar onu göstərir ki, ordunun beynəlxalq standartlara uyğunlaşdırılması və döyüş qabiliyyətinin artırılması istiqamətində atılan addımlar strateji baxımdan səmərəli olmuşdur.

## Azərbaycan – Türkiyə əməkdaşlığı sülhməramlı fəaliyyət kontekstində

Azərbaycanın sülhməramlı əməliyyatlarda iştirakına Türkiyə Respublikası fəal hərbi-siyasi dəstək vermişdir. Bu həm Azərbaycan hərbiçilərinin müxtəlif beynəlxalq missiyalara qəbul olunmasını asanlaşdırıb, həm də ölkənin beynəlxalq imicini gücləndirmişdir. Azərbaycanın sülhməramlı qüvvələrinin ilk ciddi təcrübəsi də məhz Türkiyə ilə əməkdaşlıq çərçivəsində olmuşdur. Ümumiyyətlə, Türkiyə ilə bu istiqamətdə də əməkdaşlıq Azərbaycanın beynəlxalq təhlükəsizlik arxitekturasına inteqrasiyasını sürətləndirib. Burada, fikrimizcə, beynəlxalq standartlara uyğunlaşmada Türkiyə ilə hərbi əməkdaşlıq xüsusilə qeyd olunmalıdır. NATO-nun aparıcı üzvlərindən biri olan qardaş Türkiyə ilə sıx təlim və təhsil əlaqələri sayəsində Azərbaycan Ordusu tez bir zamanda alyans standartlarını mənimsəmişdir. Azərbaycan sülhməramlı bölmələri demək olar ki, bütün beynəlxalq əməliyyatlarda (Kosovo, Əfqanıstan) məhz türk taborlarının tərkibində fəaliyyət göstərmiş, bu da heyətin həm dil, həm də taktiki metodlar baxımından uyğunluğunu asanlaşdırmışdır. Türkiyə ilə birgə təlimlər, kurslar, hərbi məktəblərdə zabit hazırlığı ordunun NATO-nun doktrina və təlimatlarına inteqrasiya səviyyəsini yüksəltmişdir. Azərbaycanın sülhməramlı əməliyyatlarda iştirak təcrübəsinin formalaşması və inkişafını birbaşa olaraq Türkiyə ilə hərbi-strateji əməkdaşlığın nəticəsi kimi dəyərləndirmək olar.

Bütövlükdə, Türkiyə Azərbaycanın ən yaxın siyasi-hərbi müttəfiqi kimi əlaqələrin genişlənməsində mərkəzi rol oynayır. Ordu quruculuğu prosesində Türkiyə Silahlı Qüvvələri ilə ortaq təlimlər, hərbi təhsil mübadiləsi, silah alış-verişi kimi sahələrdə əməkdaşlıq Azərbaycan Ordusunu gücləndirmiş və eyni zamanda regionda sülhə xidmət etmişdir. Azərbaycan-Türkiyə birgə hərbi təlimləri (məsələn, "Mustafa Kamal Atatürk" təlimləri və s.) həm iki ölkə ordularının qarşılıqlı fəaliyyət bacarığını artırır, həm də bölgədə güc balansını sabitləşdirir. 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətlərini rəsmən təsbit etməklə, hərbi əməkdaşlığın ən yüksək səviyyəyə çatdığını göstərir.

## Azərbaycan Ordusunun hərbi əlaqələrinin genişləndirilməsi

Son onilliklər ərzində Azərbaycan təkcə iqtisadi və siyasi deyil, həm də hərbi sahədə beynəlxalq əlaqələrini xeyli genişləndirmişdir. Sülhməramlı əməliyyatlarda iştirak bu genişlənmənin həm səbəbi, həm də nəticəsidir. Yəni bir tərəfdən ölkə mövcud hərbi əməkdaşlıq imkanlarını səfərbər edərək beynəlxalq missiyalara qoşulmuş, digər tərəfdən isə həmin missiyalarda iştirak yeni əməkdaşlıq körpüləri yaratmışdır. Bunun sayəsində Azərbaycan Ordusu bu gün dünyanın bir çox ölkəsinin silahlı qüvvələri ilə işbirliyi təcrübəsinə malikdir ki, bu da milli hərbi potensialı daha çevik və adaptasiya olunmuş edir.

NATO platforması üzərində qurulmuş əlaqələr xüsusi diqqətə layiqdir. 1990-cı illərin sonundan başlayaraq Azərbaycan NATO-nun müxtəlif proqramlarında (SNT, PAP, IPAP və s.) fəal iştirak edib. Bu çərçivədə keçirilən çoxmillətli təlimlər, kurslar və qərargah görüşləri Azərbaycan zabitlərinin alyansdakı həmkarları ilə sıx ünsiyyətinə və qarşılıqlı etimadın yaranmasına gətirib çıxarıb. NATO xətti ilə müxtəlif tədbirlərdə hər il 200-dən çox Azərbaycan nümayəndələri iştirak edir, bu isə Azərbaycanın hərbi diplomatiyası üçün geniş şəbəkə formalaşdırır. Xüsusilə, 2017-2020-ci illərdə Bakıda NATO-Rusiya və ABŞ-Rusiya yüksək rütbəli hərbçilərinin görüşlərinə bir neçə dəfə ev sahibliyi etməyi Azərbaycanın etibarlı tərəfdaş kimi qəbul olunduğunu göstərir.

Azərbaycanın ABŞ, Avropa dövlətləri, İsrail, Pakistan, Gürcüstan və digərlər ölkələrlə də hərbi əlaqələri genişlənməkdədir. ABŞ ilə müdafiə və təhlükəsizlik sahəsində birgə işçi qrupları, ikitərəfli müdafiə məsləhətləşmələri formatı mövcuddur ki, bu çərçivədə kibertəhlükəsizlik, sülhməramlı missiyalarda iştirak imkanları, ingilis dili hazırlığı kimi məsələlər müzakirə edilir[54]. Məsələn, 2018-ci ilin dekabrında Bakıda keçirilən Azərbaycan-ABŞ müdafiə məsləhətləşmələrində Azərbaycanın BMT sülhməramlı missiyalarında iştirak qabiliyyətinin gücləndirilməsi xüsusi mövzu olub. Bu, onu göstərir ki, Azərbaycan NATO-dan əlavə BMT çərçivəsində də rolunu genişləndirməyə çalışır və beynəlxalq tərəfdaşlar da bu yöndə əməkdaşlığa maraq göstərir.

Hərbi əlaqələrin genişlənməsi təkcə dövlətlərarası deyil, eyni zamanda regional çoxtərəfli formatlarda da müşahidə edilir. Azərbaycan son illərdə regiondakı sülh və təhlükəsizlik təşəbbüslərində fəal rol oynayır. Məsələn, Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli hərbi əməkdaşlıq formatı çərçivəsində ortaq hərbi təlimlər və görüşlər keçirilir ki, bu da Cənubi Qafqazda sabitliyin güclənməsinə xidmət edir[55]. Həmçinin Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində beynəlxalq platformalarda sülh və təhlükəsizlik mövzularında aktiv mövqe tutur. Bu da dolayısıyla ölkənin sülhyaratma səylərində nüfuzunu artırır.

Sülhməramlı missiyalardan əldə olunmuş geniş əlaqə şəbəkəsi Azərbaycan Ordusunun istənilən beynəlxalq əməliyyata inteqrasiyasını da asanlaşdırır. Artıq azərbaycanlı sülhməramlılar dünyanın müxtəlif ölkələrinin komandanlığı altında xidmət təcrübəsinə malikdirlər. Məsələn, Kosovoda Türkiyə komandanlığı altında, Əfqanıstanda NATO komandanlığı altında, Cənubi Sudanda BMT komandanlığı altında xidmət etmək orduda unikal bir çoxşaxəli təcrübə formalaşdırmışdır. Bu gün Azərbaycan zabiti fərqli doktrinaya malik hərbi qüvvələrlə ortaq dil tapmağı, vahid komanda strukturunda çalışmağı bacarır. Genişlənmiş hərbi əlaqələr sayəsində isə Azərbaycan Ordusu daha çevik və müasir çağırışlara hazır bir gücə çevrilir

Beləliklə, Azərbaycan Ordusunun sülhməramlı qüvvələri Kosovo, İraq, Əfqanıstan və Cənubi Sudanda həyata keçirilmiş beş beynəlxalq missiyada iştirak edərək zəngin təcrübə toplamışdır. Hər bir missiyanın özünəməxsus hərbi xüsusiyyətləri və siyasi fonu olmuşdur. Aşağıda bu əməliyyatların gedişi, Azərbaycan kontingentinin rolu və iştirakın arxa planındakı diplomatik-siyasi məqamlar ayrı-ayrılıqda təhlil edilir.

### *1. Kosovo: ilk sülhməramlı missiya və prinsiplər*

Azərbaycanın beynəlxalq sülhməramlı missiyalarda debütü 1999-cu ildə Kosovoda baş tutdu. 1990-cı illərin sonunda Balkanlarda vəziyyətin gərginləşməsi və etnik münaqişənin alovlanması NATO-nun müdaxiləsi ilə nəticələndi. 1999-cu ilin iyununda BMT Təhlükəsizlik Şurasının 1244 saylı qətnaməsi ilə Kosovo ərazisində NATO rəhbərliyində Kosovo Force (KFOR) adlı çoxmillətli sülhməramlı qüvvə yerləşdirildi. Azərbaycan bu missiyaya qoşulmaq barədə qərarını strateji müttəfiqi Türkiyə ilə razılaşdırdı. 20 oktyabr 1999-cu il tarixində Ankara və Bakı arasında imzalanan saziş əsasında Azərbaycanın sülhməramlı taqımının Kosovo Türk Taborunun tərkibində fəaliyyət göstərməsi rəsmiləşdirildi. Azərbaycan parlamenti həmin sazişi qısa zamanda ratifikasiya etdi və beləliklə, ilk dəfə olaraq Azərbaycan hərbçiləri xarici ölkədə sülhməramlı missiyaya yollandı.

Azərbaycan kontingentinin Kosovodakı fəaliyyəti beynəlxalq koalisiya komandanlığı tərəfindən yüksək dəyərləndirilmişdir. NATO-nun sabiq Baş katibi Corc Robertson Azərbaycanın müdafiə naziri ilə görüşü zamanı xüsusilə Azərbaycan birliyinin rolunu qeyd edərək, sülhməramlıların intizamına və effektivliyinə görə təşəkkürünü bildirmişdi. Həmin dövrdə beynəlxalq mediada

54 Yenə orada

55 Tech Fusion, *"Azerbaijan's Role in International Peacekeeping Missions"*, 15 October 2024, Available at: https://tech-fusion.tistory.com/9

da Azərbaycan əsgərlərinin yerli alban və serb icmaları arasında balanslı davranışı, humanitar yardımlarda iştirakı haqqında müsbət qeydlər yer alırdı. Bu, ölkəyə əlavə diplomatik xallar qazandırdı.

2008-ci ilin fevralında Kosovo parlamenti birtərəfli qaydada müstəqilliyini elan etdikdən sonra Azərbaycan hökuməti mürəkkəb bir qərarla üzləşdi. Azərbaycan prinsip etibarilə separatizmin əleyhinə olduğundan (Ermənistanın Qarabağda bənzər addımlarına görə) Kosovo Respublikasını tanımadı, beləcə də oradakı sülhməramlılarının taleyi məsələsi gündəmə gəldi. Nəticədə, 2008-ci ilin aprelində Azərbaycan Kosovodakı taqımını tam tərkibdə geri çağırdı. Bu addım Azərbaycan ictimaiyyəti tərəfindən dəstəklə qarşılandı, çünki milli maraqlar və prinsipial mövqe tələb edirdi ki, ölkə beynəlxalq hüququn ərazi bütövlüyü prinsipinə sadiqliyini göstərsin. Bununla belə, Azərbaycan Kosovoda 8 il boyunca sülhün qorunmasına verdiyi töhfə ilə artıq beynəlxalq arenada hörmət qazanmışdı. Kosovodan çəkilsə də, ölkə sülhməramlı imici zədələnmədi - əksinə, bütün tərəflər anladı ki, Azərbaycan hərbi kontingenti prinsipial mövqeyinə görə geri dönür.

Kosovo missiyasının Azərbaycan üçün siyasi nəticəsi müsbət oldu. Ölkə ilk dəfə uzaq bir regionda sülhü qorumağa yardım etməklə beynəlxalq ictimaiyyətin məsul üzvü olduğunu göstərdi. Eyni zamanda bu missiya sayəsində NATO ilə praktiki əməkdaşlıq dərinləşdi, Türkiyə ilə hərbi koordinasiya möhkəmləndi. Azərbaycan əsgərinin göstərdiyi yüksək peşəkarlıq nümunəsi daha sonra digər missiyalarda iştirak üçün etimad yaratdı. Bu baxımdan, Kosovo əməliyyatı Azərbaycan sülhməramlı qüvvələri üçün bir növ "sınaq meydanı" oldu və Azərbaycan Ordusu bu sınaqdan layiqincə çıxdı.

### *2. Əfqanıstan: uzunmüddətli öhdəlik və strateji tərəfdaşlıq*

Azərbaycan Ordusunun ən uzunmüddətli sülhməramlı fəaliyyəti Əfqanıstanda həyata keçirilmiş iki missiya ilə bağlıdır. Onlar NATO-nun "Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri" əməliyyatı (İSAF) və "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasıdır. Azərbaycan İSAF əməliyyatında 2002-ci ildən başlayaraq iştirak etmiş, daha sonra "Qətiyyətli Dəstək" missiyasında öz fəaliyyətini davam etdirmiş və koalisiyanın ən sadiq tərəfdaşlarından biri kimi tanınmışdır[56]. Əfqanıstan öhdəliyi Azərbaycanın xarici siyasətində və ordu təcrübəsində xüsusi yer tutur.

2021-ci ilin avqustunda NATO qüvvələrinin Əfqanıstandan çıxması və Kabilin Talibanın nəzarətinə keçməsi ilə bu uzun missiya sona çatdı. Azərbaycan sülhməramlıları son ana qədər orada qalaraq təxliyyə əməliyyatlarında fəal iştirak etdilər. Xüsusilə, Bakı və Ankara arasında razılaşmaya əsasən, Azərbaycan hərbçiləri Türkiyə qüvvələri ilə birgə Kabil hava limanının mühafizəsini sonadək təmin etdilər və diplomatların, mülki vətəndaşların təxliyyəsinə kömək etdilər. Azərbaycan kontingenti NATO üzrə tərəfdaş ölkələr arasında Əfqanıstanı ən son tərk edənlərdən biri oldu və 2021-ci il avqustun 26-da son hərbçilər də Vətənə döndü. Beləliklə, Azərbaycan 19 il fasiləsiz sürən bu missiyada sözün əsl mənasında sonadək dayandı, öhdəliyinə sadiq qaldı.

Azərbaycanın Əfqanıstan missiyasındakı rolunu NATO rəsmiləri yüksək dəyərləndirmişdir. NATO rəsmiləri dəfələrlə qeyd ediblər ki, Azərbaycan təkcə hərbçiləri ilə yox, həm də Şimal Paylama Şəbəkəsi vasitəsilə logistik dəstək verərək Əfqanıstan əməliyyatlarının uğuruna töhfə verib. Məlumdur ki, Əfqanıstana gedən təchizat yüklərinin 40%-i Azərbaycanın hava və dəniz limanları vasitəsilə daşınırdı. Bu da ölkənin coğrafi və nəqliyyat baxımından strateji əhəmiyyətini NATO üçün artırdı. 2018-ci ildə NATO-nun sabiq Baş katibi Stoltenberq Prezident İlham Əliyevlə Brüsseldə görüşdə Azərbaycanın Əfqanıstandakı fəaliyyətini xüsusilə vurğulamış və minnətdarlıq ifadə etmişdir.

56 Yenə orada

Həmçinin Əfqanıstan hökuməti dəfələrlə Azərbaycana öz təşəkkürünü bildirmiş, iki ölkə arasında dostluq münasibətləri yaranmışdır. Qeyd edək ki, Azərbaycan müsəlman ölkəsi kimi Əfqan xalqı tərəfindən də müsbət qarşılanırdı; bu amil sülhməramlıların yerli əhali ilə ünsiyyətini asanlaşdırırdı.

Əfqanıstan missiyasının Azərbaycanın müdafiə və xarici siyasətinə çox ciddi töhfələri oldu. Ordu baxımından Azərbaycan zabitləri ən qüdrətli dövlətin - ABŞ-nin komandanlığı altında real təcrübə qazandılar, müasir döyüş və kəşfiyyat metodlarına yiyələndilər. Siyasi baxımdan isə Azərbaycan Qərbin təhlükəsizlik sistemi ilə münasibətlərini dərinləşdirdi, özünü etibarlı tərəfdaş kimi sübut etdi. Məhz bu illərdə NATO qurumlarında Azərbaycana münasibət müsbətə doğru xeyli dəyişdi. NATO-nun zirvə sənədlərində Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edilməyə başlandı, yüksək rəsmilər Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllində ölkənin haqlı mövqeyini anlayışla qarşıladılar. Bütün bunlarda, sözsüz ki, Azərbaycanın Əfqanıstandakı sülhməramlı qüvvələrinin fədakar iştirakının rolu var idi.

Beləliklə, Əfqanıstan missiyası Azərbaycan sülhməramlı qüvvələrinin ən parlaq səhifəsidir. Azərbaycan 20 ilə yaxın müddətdə böyük əzmkarlıq və fədakarlıqla qlobal təhlükəsizliyə xidmət etdi. Azərbaycan əsgərinin bu missiyadakı fəaliyyəti milli hərb tariximizə qürur səhifəsi kimi yazıldı. Eyni zamanda bu təcrübə ordunu peşəkarlıq baxımından yeni mərhələyə yüksəltdi, beynəlxalq əlaqələri genişləndirdi və Azərbaycan dövlətinin strateji maraqlarına xidmət etdi.

### *3. İraq: qlobal koalisiyada tərəfdaşlıq və strateji əhəmiyyət*

2003-cü ildə beynəlxalq gündəmin ən çox müzakirə edilən mövzusu İraq məsələsi idi. ABŞ liderliyindəki koalisiya qüvvələrinin Səddam Hüseyn rejimini devirmək üçün İraqa müdaxiləsi başlamış və BMT TŞ-nin bir sıra qətnamələri çərçivəsində post-münaqişə dövründə ölkədə sabitliyin bərpası üçün çoxmillətli güc formalaşdırılmışdı. Azərbaycan bu qlobal koalisiyaya qoşulmaq barədə qərar verərkən həm beynəlxalq öhdəliklərini, həm də milli maraqlarını nəzərə aldı. Bir tərəfdən, 2001-ci il 11 sentyabr terror hücumlarından sonra terrorizmlə mübarizədə Azərbaycan qəti mövqe nümayiş etdirirdi, digər tərəfdən isə ABŞ və Qərb ölkələri ilə strateji tərəfdaşlıq əlaqələrini gücləndirmək baxımından bu missiyada iştirak vacib sayılırdı. Beləliklə, 7 may 2003-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Silahlı Qüvvələri kontingentinin beynəlxalq koalisiya qüvvələri tərkibində İraqda sülhməramlı əməliyyatlarda iştirak etməsinə razılıq verdi[57].

Azərbaycan hərbçilərinin İraqdakı fədakar xidmətinə görə ABŞ hərbi rəhbərliyi onları xüsusi təltif və təşəkkürlə yola saldı. 2008-ci ilin dekabrında Azərbaycan bölüyünün missiyasını başa vurması münasibətilə Hədità su anbarı yaxınlığında təntənəli vida mərasimi keçirildi, burada Amerika Dəniz Piyadaları Komandanlığı və İraq rəsmiləri iştirak edirdilər. Mərasimdə çıxış edən amerikalı polkovnik Patrik Malay Azərbaycan əsgərlərinin işini yüksək qiymətləndirərək demişdir: "Ola bilsin ki, amerikalıların çoxu Azərbaycanı tanımır, ancaq bu ölkənin əsgərlərinin İraqda gördükləri işlər dünyada xüsusi hörmətə layiqdir. Azərbaycanlı əsgərlər həyati əhəmiyyətli Hədità su bəndinin mühafizəsində iştirak etdilər. Bu stansiya İraqın elektrik enerjisinə olan ehtiyacının 25%-ni təmin edir"[58]. Bu sözlər həm Azərbaycan əsgərinin peşəkarlığına, həm də ölkənin qlobal səviyyədə önəminə verilən bir dəyərdir. Həqiqətən də,

57 E-qanun.az, *"Azərbaycan Respublikası Silahlı Qüvvələri kontingentinin beynəlxalq koalisiya qüvvələri tərkibində İraqda sülhməramlı əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı"*, № 432-IIQR, 7 may 2003, Elektron resurs: https://e-qanun.az/framework/14811

58 Ədalət Verdiyev. *"Ən qaynar nöqtələrdə: Azərbaycan sülhməramlı qüvvələri"*, Ordu.az, 16 dekabr 2017, Elektron resurs:https://ordu.az/az/news/124180/en-qaynar-noqtelerde--azerbaycan-sulhmeramli-quvveleri-%E2%80%93-herbi-ekspert

İraqın enerji infrastrukturunun qorunmasında iştirak etməklə Azərbaycan bölgənin sabitliyinə mühüm töhfə vermiş oldu.

Ümumilikdə isə 2003-2008-ci illərdə rotasiya ilə 1000-dən çox Azərbaycan hərbçisi İraqda xidmət keçmişdir. Bu kifayət qədər ciddi say göstərir ki, Azərbaycan öz miqyasına görə nisbətən böyük bir payla koalisiya missiyasına qatılmışdır. ABŞ mediasında qeyd edilirdi ki, "ABŞ-nin Cənubi Karolina ştatı boyda kiçik bir ölkə olan Azərbaycan ötən beş il ərzində İraqın Əl-Ənbar vilayətində həyati əhəmiyyətli obyektin mühafizəsində yaxından və uğurla iştirak edib"[59]. Bu cür rəylər Azərbaycan Ordusunun regiondan kənarda da etibarlı qüvvə olduğunu təsdiq edirdi.

Siyasi baxımdan İraq missiyası Azərbaycanın ABŞ və Qərblə münasibətlərinə müsbət təsir etdi. Azərbaycanın koalisiyaya verdiyi dəstək həmin illərdə Birləşmiş Ştatlar və Azərbaycan arasında, enerji təhlükəsizliyi də daxil olmaqla, vacib tərəfdaşlıq münasibətlərinin formalaşmasına töhfə verdi. Məsələn, 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışında ABŞ Azərbaycanın rolunu yüksək dəyərləndirmişdisə, bunda ölkənin İraqdakı fəaliyyətinin də yaratdığı müsbət fon az rol oynamırdı. Həmçinin NATO ilə əlaqələrdə də etimad artdı – Azərbaycanın həm Kosovoda, həm də İraqda ardıcıl iştirakı onu Alyansın etibarlı tərəfdaşına çevirmişdi.

Nəticə etibarilə, Azərbaycan sülhməramlı qüvvələrinin İraqdakı iştirakı həm hərbi, həm də siyasi cəhətdən uğurlu hesab oluna bilər. Azərbaycan qlobal terrorla mübarizə koalisiyasının bir parçası olaraq nüfuz qazandı, Ordu dəyərli təcrübə əldə etdi və eyni zamanda dostlarına sadiq, beynəlxalq öhdəliklərə əməl edən bir dövlət kimi mövqeyini möhkəmləndirdi.

### 4. Cənubi Sudan: BMT bayrağı altında yeni missiya

Azərbaycan Ordusunun sülhməramlı fəaliyyəti təkcə NATO çərçivəsi ilə məhdudlaşmamış, BMT mandatlı missiyaları da əhatə etmişdir. Bunun ən bariz nümunəsi 2018-ci ildə qəbul edilmiş qərarla Azərbaycan hərbçilərinin Cənubi Sudandakı BMT sülhməramlı missiyasına qoşulmasıdır. Bu addım ölkənin sülhməramlı səylərinin coğrafiyasını genişləndirmiş və Azərbaycanın qlobal məsələlərə laqeyd olmadığını göstərmişdir.

Azərbaycanın Cənubi Sudandakı kontingenti kiçik olsa da, tərkibi peşəkarlardan ibarət idi. 2019-cu ilin yanvarında Azərbaycan Ordusunun iki zabiti Cənubi Sudanın paytaxtı Cuba şəhərinə gələrək UNMİSS qərargahında fəaliyyətə başladı. Onlar orada beynəlxalq sülhməramlı kontingentin tərkibində hərbi müşahidəçi qismində xidmət edir və bölgədəki vəziyyətin monitorinqi, atəşkəsə riayət olunmasına nəzarət, münaqişə tərəfləri arasında vasitəçilik kimi funksiyaları yerinə yetirirlər. Bu rol xüsusi hazırlıq və diplomatik bacarıq tələb edir və sevindirici haldır ki, Azərbaycan zabitləri öhdələrinə düşən vəzifələri layiqincə icra edirlər.

Cənubi Sudanda Azərbaycan sülhməramlılarının iştirakına dair ilk rəsmi məlumatlar və rəylər müsbətdir. BMT missiyasının komandanlığı Azərbaycanın qoşulmasını alqışlamış və bunun digər postsovet ölkələrinə nümunə ola biləcəyini bildirmişdir. Cənubi Sudan hökuməti də müsəlman bir ölkə olan Azərbaycanın Afrikada sülhə töhfə vermək təşəbbüsünü məmnunluqla qarşılamışdır. Bu, ölkənin İslam Əməkdaşlıq Təşkilatının xətti ilə də imicinə uyğundur, çünki müsəlman dünyası da Afrikadakı konfliktlərə həssas yanaşır. Azərbaycan hərbçisi orada öz nizam-intizamı, qərəzsiz mövqeyi ilə seçilir. Yerli icmalarla dil problemi olmasa da (ingiliscə işlədikləri üçün), azərbaycanlı müşahidəçilərin neytrallığı və humanitar məsələlərə həssas yanaşması UNMİSS rəhbərliyinin diqqətindən qaçmamışdır. Bir müddət əvvəl Cənubi Sudandakı

59 Yenə orada

xidmətlərinə görə bir Azərbaycan sülhməramlısı BMT medalı ilə təltif olundu, bu da heyətin fəaliyyətinə verilən yüksək qiymətin göstəricisidir[60].

Azərbaycanın Cənubi Sudan missiyasına qoşulmasının siyasi əhəmiyyəti ondan ibarətdir ki, ölkə ilk dəfə BMT mandatı altında Afrika qitəsində həyata keçirilən sülhməramlı əməliyyatda iştirak edir. Bu, Azərbaycanın beynəlxalq arenada coğrafi məhdudiyyət qoymadan, sülh naminə harada ehtiyac varsa, orada iştirak etməyə hazır olduğunu bəyan edir. Qoşulmama Hərəkatına sədrlik etmiş (2019-2023) Azərbaycana da bu addım mənəvi-siyasi nüfuz qazandırır, yəni ölkə təkcə bəyanat vermir, əməli iş də görür. Bundan əlavə, BMT Baş katibinin 2019-cu ildə Azərbaycana səfəri zamanı sülhməramlı missiyaya verdiyi töhfəyə görə xüsusi təşəkkür ifadə olunmuşdur. Görünən odur ki, Azərbaycan gələcəkdə də BMT çətiri altında digər missiyalara (məsələn, Afrika və ya Yaxın Şərqdə) qatılmağa müsbət baxır. Hər halda 2018-ci ildə ABŞ-Azərbaycan ikitərəfli müdafiə məsləhətləşmələrində "Azərbaycanın BMT sülhməramlı missiyalarında iştirak qabiliyyətinin gücləndirilməsi" məsələsinin müzakirə olunması da bunu ehtimal etməyə əsas verir[61].

Cənubi Sudan missiyası eyni zamanda Azərbaycan Ordusunun tamamilə yeni mühitdə sınağıdır. Afrika iqlimi, yerli mədəni xüsusiyyətlər, BMT bürokratik prosedurları – bütün bunlar bizim zabitlər üçün öyrəniləsi yeni sahələrdir. Bu təcrübə Azərbaycan Ordusunun müvafiq qurumları üçün yeni biliklər deməkdir. Məsələn, BMT qərargahında çoxmillətli zabit heyəti ilə işləmək azərbaycanlı hərbçilərin qərargah hazırlığını daha da təkmilləşdirir. UNMİSS-də xidmət edən zabitlər Vətənə qayıtdıqdan sonra əldə etdikləri təcrübəni bölüşərək, gələcək sülhməramlı bölmələrin hazırlanmasına dəyərli töhfə verəcəklər.

Hazırda (2026-ci il etibarilə) Azərbaycan zabitlərinin Cənubi Sudandakı missiyası uğurla davam edir. Bu, sayca kiçik olsa da, məna etibarilə önəmli bir iştirakdır. Dünyanın ən yeni dövlətlərindən birində sülhün möhkəmlənməsində Azərbaycanın da töhfəsi vardır. Azərbaycan gələcəkdə BMT-nin sülhməramlı əməliyyatlarına daha böyük kontingentlə qatılmağı da nəzərdən keçirə bilər. Məsələn, Afrika İttifaqı ilə əlaqələr genişlənərsə, başqa ölkələrdə də (Mali, Mərkəzi Afrika Respublikası və s.) mühəndis və hərbi həkim heyəti ilə iştirak imkanları yaranar. Cənubi Sudanla başlayan BMT yolu, sözsüz ki, davam edəcək və ölkənin qlobal imicinə yeni uğurlar qazandıracaq.

## Nəticə

Əvvəldə də qeyd edildiyi kimi, Azərbaycan Ordusunun beynəlxalq sülhməramlı kontingenti müxtəlif qitələrdə və formatlarda mühüm fəaliyyət göstərmiş və bu fəaliyyət çoxşaxəli faydalar gətirmişdir. İlk növbədə, ölkə sülhməramlı əməliyyatlara qatılmaqla beynəlxalq təhlükəsizliyə əhəmiyyətli töhfələr vermiş və dünyanın məsuliyyətli üzvü kimi çıxış etmişdir. Azərbaycan sülhməramlılarının iştirak etdiyi hər bir missiya - istər NATO çətiri altında Kosovoda və Əfqanıstanda, istərsə də BMT mandatı ilə Cənubi Sudanda konflikt bölgələrində sabitliyin və sülhün bərqərar olmasına xidmət etmişdir. Azərbaycan bu yolla həm də öz milli maraqlarını, o cümlədən beynəlxalq aləmdə sülhsevər, etibarlı tərəfdaş imicini gücləndirmişdir.

İkincisi, sülhməramlı əməliyyatlarda iştirak Azərbaycanın beynəlxalq sistemə inteqrasiyasını sürətləndirmiş, ayrı-ayrı ölkələrlə siyasi-hərbi əlaqələrini dərinləşdirmiş və nəticə etibarilə Azərbaycanın nüfuzunu artırmışdır. Ölkə NATO və BMT kimi qurumlarla əməkdaşlıq vasitəsilə

60 Report.az, *"Azərbaycan sülhməramlısı Cənubi Sudanda fəaliyyətinə görə təltif edilib"*, 1 may 2025, Elektron resurs: https://report.az/herbi-xeberler/azerbaycan-sulhmeramlisi-cenubi-sudanda-fealiyyetine-gore-teltif-edilib/

61 Embassy of the Republic of Azerbaijan to the United States of America, *"Defense and Security Cooperation"*, Available at: https://washington.mfa.gov.az/en/category/defense-and-security-cooperation

qlobal qərarvermə proseslərinə (hərbi baxımdan), dolayı da olsa, cəlb olunmuşdur. Əməliyyatlara verilən töhfələr müttəfiqlər və tərəfdaşlar tərəfindən yüksək qiymətləndirilmişdir. Bu da diplomatik müstəvidə Azərbaycana əlavə dividendlər qazandırmışdır. Xüsusilə, Azərbaycan əsgərinin peşəkarlığı barədə beynəlxalq səviyyədə söylənilən müsbət fikirlər (NATO-nun Baş katibləri, ABŞ rəsmiləri və s. tərəfindən) milli qürur mənbəyidir və dövlətin xarici siyasət uğurlarının tərkib hissəsidir.

Üçüncüsü, sülhməramlı missiyalar ordunun daxili inkişafına və peşəkarlığının artmasına güclü təkan verib. Real konflikt zonalarında xidmət aparmış zabit və əsgərlər qazandıqları təcrübəni ordunun digər hissələrinə ötürür, nəticədə Azərbaycan Ordusunun ümumi döyüş hazırlığı yüksəlir. Azərbaycan Ordusu bu gün regionda ən hazırlıqlı ordulardan biri kimi tanınırsa, bunda beynəlxalq təcrübənin payı böyükdür. Xarici tərəfdaşlarla birgə təlimlər və əməliyyatlar ordu üçün bir növ "praktiki akademiya" funksiyasını yerinə yetirib. Nəhayət, Azərbaycanın hərbi təhsil və təlim sisteminin NATO standartlarına uyğunlaşdırılması prosesində də sülhməramlı missiyaların rolu danılmazdır.

Dördüncüsü, beynəlxalq missiyalarda iştirak ölkənin regional və qlobal təhlükəsizlikdə məsuliyyəti paylaşmağa hazır olduğunu göstərir. Bu, Azərbaycanın imicinə müsbət təsir etməklə yanaşı, bəzi hallarda konkret siyasi dividendlər də gətirir. Məsələn, NATO platformasında fəallıq ərazi bütövlüyünün dəstəklənməsi, hərbi sahədə islahatlara texniki-maliyyə yardımı kimi faydalarla qayıdıb[62]. Həmçinin, Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın BMT missiyasına töhfə verməsi ölkənin qlobal cənub ölkələri arasında nüfuzunu artırıb. Beləliklə, bu hesabatda dəfələrlə vurğulanan əsas məqam odur ki, Azərbaycan sülhməramlılarının hərəkət motivasiyası dərin strateji düşüncəyə əsaslanır.

Perspektivdə dünyada və yerləşdiyimiz coğrafiyada mümkün geosiyasi dəyişikliklər fonunda (məsələn, 2020-ci il Vətən müharibəsindən sonra yaranmış reallıqlar) Azərbaycanın beynəlxalq sülhməramlı missiyalarda rolu yeni çalarlar ala bilər. Hazırda ölkə başa çatmış Qarabağ münaqişəsinin humanitar nəticələri və sülh quruculuğu ilə məşğuldur. Bu kontekstdə, Azərbaycan özü də regionda sülhü qoruyan əsas aktora çevrilməkdədir. Eyni zamanda ehtimal edilə bilər ki, Azərbaycan yeni geosiyasi şəraitdə NATO və BMT missiyalarında yenə də iştirak edəcək – ilk növbədə o səbəbdən ki, əldə edilmiş təcrübə və yaradılmış etimad zəminində ölkəni yeni çağırışlar gözləyə bilər. Məsələn, Azərbaycan sülhməramlılarının gələcəkdə hansısa BMT missiyasında sayca artması, yaxud NATO-nun xarici əməliyyatlarına (əgər yenidən ehtiyac yaranarsa) qatılması mümkündür.

Ümumiyyətlə, Azərbaycan Ordusunun beynəlxalq sülhməramlı əməliyyatlarda iştirakı dövlətin həm hərbi, həm də siyasi müstəvidə böyük uğuru hesab edilə bilər. Bu iştirak ölkənin təhlükəsizlik konsepsiyasının vacib tərkib hissəsidir və indiyədək özünü doğruldub. Azərbaycan sübut edib ki, sülh naminə məsuliyyət götürməyə hazırdır və bunu bacarıqla edir. Sülhməramlıların daşıdığı Azərbaycan bayrağı böyük bir coğrafiyada bu mesajı dünyaya çatdırır: Azərbaycan sülhün tərəfdarıdır və qlobal sabitlik üçün əlindən gələni etməyə hazırdır. Bu prinsiplə hərəkət edən Azərbaycan gələcəkdə də beynəlxalq təhlükəsizliyə öz layiqli töhfələrini verməyə davam edəcək.

62 Yenə orada

# Fəsil 3. Azərbaycan Ordusunun sülhməramlı əməliyyatlarının hərbi aspektləri

## Hesabatda istifadə olunan anlayışlar (BMT-nin piyada taboru təlimatı[63]):

**Sülhməramlı taqım:** Təxminən 30-40 nəfərdən ibarət olub, BMT piyada taborunun ən kiçik manevr elementi sayılır, həmçinin sülhməramlı mandatdan irəli gələn tapşırıqları icra edərək, patrul, mövcudluğun nümayiş etdirilməsi və məhdud ərazidə təhlükəsizliyin təmin olunması kimi məhdud taktiki fəaliyyətlər göstərir. Sözügedən bölmə yüngül atıcı silahlar və yüngül heyət silahları ilə təchiz olunur.

**Sülhməramlı bölük:** Təxminən 100-150 nəfərdən ibarət olub, bir neçə taqımdan təşkil olunur və taborun əsas taktiki elementidir. Həmçinin sülhməramlı mandatdan irəli gələn tapşırıqları icra edərək, təyin edilmiş sektorda təhlükəsizliyi təmin edir, o cümlədən bütün taktiki fəaliyyətləri yerinə yetirir. Bu fəaliyyətlər patrul xidmətləri, konvoy müşayiəti, mühasirə-axtarış (kordon) tapşırıqlarının yerinə yetirilməsindən, eləcə də nəzarət-buraxılış məntəqələri, müşahidə postları və əməliyyat bazalarının yaradılmasını həyata keçirməkdən ibarətdir. Sözügedən bölmə yüngül atıcı silahlar, yüngül heyət silahları və minaatanlar ilə təchiz olunur.

**Sülhməramlı tabor:** Təxminən 750-850 nəfərdən ibarət olub, bir neçə bölük və dəstək elementlərini birləşdirən əsas taktiki vahiddir. Daha geniş cavabdehlik ərazisində verilmiş mandatı çərçivəsində tapşırıqları həyata keçirmək qabiliyyətindədir. Həmçinin mülki əhalinin mühafizəsi, tərkisilah, demobilizasiya və reinteqrasiyanın dəstəklənməsi, eləcə də mühasirə-axtarış (kordon), yaralıların təxliyyəsi və digər bütün taktiki fəaliyyətləri həyata keçirir. Sözügedən bölmə yüngül silahlar, yüngül heyət silahları, minaatanlar və məhdud sayda yüngül zirehli nəqliyyat vasitələri ilə təchiz olunur.

**Sülhməramlı briqada:** Ən böyük taktiki vahid sayılıb, iki və ya daha çox tabordan, qərargah və ya əlavə bölmədən ibarətdir. Təxminən 2500-5000 nəfər şəxsi heyətdən ibarətdir. Cavabdehlik ərazisində taktiki səviyyədə fəaliyyət göstərərək, tabeliyində olan taborların və bölmələrin komanda və nəzarət fəaliyyətini həyata keçirir. Sülhməramlı briqadanın əsas vəzifələri komanda və nəzarət fəaliyyətini həyata keçirmək və missiya mandatının həyata keçirilməsi üçün daha yuxarı qüvvə qərargahının əməliyyat əmrlərinin icrasını missiyada iştirak edən digər aktorlar və ərazidəki tərəfdaşları ilə sıx əməkdaşlıq edərək həyata keçirməkdən ibarətdir. Beynəlxalq mandatlar əsasında atəşkəsin qorunması, mülki əhalinin müdafiəsi və münaqişə və ya münaqişədən sonrakı bölgələrdə sabitliyin dəstəklənməsi kimi sülhməramlı tapşırıqları icra etmək üçün təşkil olunmuş və təchiz edilmiş hərbi birlikdir.

## Azərbaycan Ordusunun sülhməramlı qüvvələrinin yaranması

Azərbaycan Ordusunun tərkibində sülhməramlı qüvvələrin yaradılması Azərbaycan Respublikasının NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" (SNT) proqramına qoşulması ilə başlamışdır. 1994-cü il may ayının 4-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev NATO-nun SNT Çərçivə Sənədini imzalamışdır. Azərbaycan Respublikasının Prezidenti 23 aprel 1996-cı il tarixində Azərbaycan Respublikasının SNT Təqdimat Sənədini NATO-nun sabiq Baş katibinə təqdim etmişdir.

63 United Nations, *"United Nations Infantry Battalion Manual (UNBAM), Second edition"*, January 2020, Available at: https://resourcehub01.blob.core.windows.net/$web/Policy%20and%20Guidance/corepeacekeepingguidance/Thematic%20Operational%20Activities/Military/2020.01%20UNIBAM%20Infantry%20Battalion%20Manual_JAN%202020.pdf.

SNT Çərçivə Sənədində NATO ilə əməkdaşlığın əsas məqsədlərindən biri kimi Azərbaycan Respublikasının Konstitusiyasının müddəaları nəzərə alınmaqla, BMT-nin rəhbərliyi və (və ya) ATƏT-in cavabdehliyi altında keçirilən əməliyyatlara töhfə vermək üçün müvafiq qabiliyyətin inkişaf etdirilməsi və hazırlığın saxlanılması göstərilmişdir. Sülhü dəstəkləmə, axtarış və xilasetmə, humanitar əməliyyatlar kimi missiyalarda iştirak etmək məqsədilə birgə planlaşdırmanın, hazırlığın və təlimlərin keçirilməsi üçün NATO ilə hərbi əlaqələrin inkişaf etdirilməsi də həmin sənəddə öz əksini tapmış məqsədlərdən biri idi.[64]

Bu məqsədlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikası yüngül silahlanmış bir bölüyün ayrılması üçün müvafiq hazırlıq işlərinə başladı. 1997-ci ildə sülhməramlı bölük yaradıldı. Həmin ildən etibarən Azərbaycan sülhməramlı qüvvələrinin şəxsi heyəti peşəkar hazırlıq səviyyəsinin artırılması məqsədilə bu sahədə keçirilən müxtəlif beynəlxalq təlim və kurslarda fəal iştirak etməyə başladı. NATO-nun təlim standartlarına uyğun aparılmış sülhməramlıların hazırlığı missiyalar zamanı yüksək nəticə vermişdir.

Azərbaycan üçün sülhməramlı qüvvələrin yaradılması heç də asan olmamışdır. Çətin tarixi mərhələni yaşayan Azərbaycan Qarabağda Ermənistanın hərbi təcavüzü ilə dərinləşən ciddi siyasi və iqtisadi problemlərlə üzləşmişdir. 1997-ci ildə Azərbaycan Respublikasının ərazisinin 20 faizi Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmuşdur. İşğal nəticəsində 1.000.000-a yaxın insan öz doğma torpaqlarını tərk edərək qaçqın və məcburi köçkünə çevrilmişdir. Yaranmış vəziyyətdə Azərbaycanın bütün resursları qeyd olunan problemlərin həllinə yönəlmişdir

Lakin buna baxmayaraq, Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyə töhfə vermək istəyini bəyan edir və buna doğru əməli addımlar atırdı. Mürəkkəb şəraitə baxmayaraq, Müdafiə Nazirliyinə sülhməramlı qüvvələrin yaradılması kimi çətin bir tapşırıq verilmişdi. Yeni qüvvələrin formalaşdırılması üçün onun ştat strukturunun hazırlanması, dislokasiya yerinin təyin edilməsi, şəxsi heyətlə komplektləşdirilməsi, şəxsi heyətin hazırlanması, onların rotasiyasının və maddi-texniki dəstəyinin təmin edilməsi kimi bir sıra mühüm məsələlər həll edilməli idi. Bu fəaliyyətlərin həyata keçirilməsi dərindən düşünülmüş addımların atılmasını tələb edirdi.

Cənubi Qafqaz və ətraf regionlarda cərəyan edən hərbi-siyasi proseslərə və üzləşdiyi problemlərə baxmayaraq, Azərbaycan beynəlxalq təhlükəsizliyə töhfə vermək istəyinin həyata keçirilməsi üçün sülhməramlı qüvvələrini yaratmağa müvəffəq oldu.

## Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakının hüquqi əsasları

Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakının hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və digər normativ-hüquqi aktları, Milli təhlükəsizlik konsepsiyası, Hərbi doktrinası, milli təhlükəsizlik sahəsində digər konseptual sənədlər, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında "NATO dövlətlərinin qüvvələri ilə qarşılıqlı uzlaşan hərbi əməliyyat qüvvələrinin yaradılması", eləcə də "böhranların aradan qaldırılması məqsədilə müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlı cavab əməliyyatlarında iştirak etmək Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən" biri kimi müəyyən edilmişdir.[65]

64 NATO, *"Partnership for Peace: Framework Document"*, Official Texts, 11 January 1994, Available at: https://www.nato.int/en/about-us/official-texts-and-resources/official-texts/1994/01/11/partnership-for-peace-framework-document

65 E-qanun.az, *"Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"*, № 2198, 23 may 2007, Elektron resurs: https://e-qanun.az/framework/13373

Azərbaycan Respublikasının Hərbi doktrinasına əsasən, müharibələrin və silahlı münaqişələrin qarşısının alınması, sülhün dəstəklənməsi və ya bərpası ilə bağlı dünya birliyi və onun təhlükəsizlik strukturları ilə əməkdaşlığın davam etdirilməsi, eləcə də terrorçuluğun bütün növləri ilə mübarizədə beynəlxalq birliyin səylərinin dəstəklənməsi dinc dövrdə müdafiə siyasəti çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər sırasındadır. Hərbi doktrinada Silahlı Qüvvələrin sülhməramlı, humanitar və digər əməliyyatlarda iştirakı onların vəzifələri kimi müəyyən edilmişdir[66].

"Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda da Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə əsasən, sülhün və təhlükəsizliyin dəstəklənməsi (bərpa edilməsi) üzrə əməliyyatlarda iştirak və həmin öhdəliklərdən irəli gələn digər vəzifələrin yerinə yetirilməsi dinc dövrdə Silahlı Qüvvələrin əsas vəzifələrindən biri kimi qeyd edilmişdir[67].

Hərbi doktrinaya əsasən, sülhməramlı, humanitar və digər əməliyyatlarda iştirak üçün xüsusi təyin olunmuş birləşmə və hissələr ayrılır və onlar əlahiddə proqram üzrə hazırlıq keçirlər. Bu məqsədlə də tərəfdaş silahlı qüvvələr ilə çoxtərəfli və ikitərəfli əməkdaşlıq çərçivəsində qarşılıqlı uyarlılıq və fəaliyyət qabiliyyətinin yaxşılaşdırılması, eləcə də sülhməramlı əməliyyatlarda iştirak edən Azərbaycan kontingentinin BMT-nin standart və prosedurlarına uyğun hazırlığının, həmçinin maddi və texniki təminatının həyata keçirilməsi kimi tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının Hərbi doktrinasında və "Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakı haqqında" Azərbaycan Respublikasının Qanununda[68] Azərbaycan Respublikasının sülhməramlı kontingentinin cəlb edilə biləcəyi sülhməramlı, humanitar və digər əməliyyatların növləri müəyyən edilmişdir.

"Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycan Respublikası tərəfindən sülhməramlı əməliyyatlarda iştirak etmək üçün göndərilən hərbi və mülki heyət könüllülük əsasında komplektləşdirilir. Onlar sülhməramlı kontingentin tərkibinə göndərilməzdən əvvəl müəyyən olunmuş qaydada xüsusi hazırlıq keçirlər. Qeyd olunan qanunda Azərbaycan Respublikasının hərbi heyətinin sülhməramlı əməliyyatlarda iştirak etmək üçün respublika ərazisindən kənara göndərilməsi barədə qərarın Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edildiyi və həmin qərarın hərbi heyətin hər bir konkret halda respublika ərazisindən kənarda istifadə edilməsinin hüquqi əsasını təşkil etdiyi qeyd edilir.

## Sülhməramlı qüvvələrin hazırlığı

Sülhməramlı qüvvələrin şəxsi heyətinin seçilməsinə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən xüsusi diqqət göstərilir. Sülhməramlı qüvvələrdə xidmət etmək üçün fiziki cəhətdən hazırlıqlı, təhsilli, intellektual səviyyəsi yüksək olan, hündürboylu, sağlam, xarici dil bilən əsgər və zabitlər seçilirlər.

NATO-nun "Qətiyyətli Dəstək" missiyası başa çatdıqdan sonra Əfqanıstanı ən son tərk edənlərdən olmuş Azərbaycan Ordusunun sülhməramlı kontingentinin zabiti mayor

66 E-qanun.az, *"Azərbaycan Respublikasının Hərbi doktrinası"*, № 1029-IIIQR, 8 iyun 2010, Elektron resurs: https://e-qanun.az/framework/19722

67 E-qanun.az, *"Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında Azərbaycan Respublikasının Qanunu"*, № 955-VQ, 29 dekabr 2017, Elektron resurs: https://e-qanun.az/framework/37672

68 E-qanun.az, *"Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakı haqqında Azərbaycan Respublikasının Qanunu"*, № 1000-IIIQ, 11 may 2010, Elektron resurs: https://e-qanun.az/framework/19857

Cəsarət Abdullayev "Azərbaycan Ordusu" qəzetinə verdiyi müsahibəsində sülhməramlı əməliyyatlarda iştirak üçün kadrların seçimi ilə bağlı məqamlara toxunaraq bildirmişdir: "Dövlətimizin NATO çərçivəsində keçirilən əməliyyatlarda əsas önəm verdiyi məsələlərdən biri qabaqcıl kadrların fəaliyyətə cəlb edilməsidir. Sülhməramlı əməliyyatlarda iştirak edəcək heyətin seçiminə xüsusi diqqət ayrılırdı. Yüksək fiziki göstəricilərə malik, sağlam, xarici dil bilən, intellektual səviyyəsi yüksək olan hərbi qulluqçular əhəmiyyətli missiyada iştirak etmək şansı qazanırdılar."[69]

Azərbaycan Ordusunun sülhməramlı qüvvələrinin hazırlığı iştirak edəcəkləri sülhməramlı əməliyyatların və missiyaların xüsusiyyətlərini özündə əks etdirən milli xüsusi hazırlıq proqramlarına əsasən aparılır. Bu prosesdə dost, tərəfdaş və müttəfiq ölkələrin, eləcə də beynəlxalq təşkilatların imkanlarından da istifadə edilir.

Azərbaycan Ordusunun sülhməramlı qüvvələrinin mənsubları hərtərəfli xüsusi hazırlıq keçirlər. Sülhməramlı əməliyyatlara göndəriləcək heyət daha bacarıqlı hərbi qulluqçular arasından könüllülük prinsipi əsasında seçilir. Sülhməramlı əməliyyat və missiyalarda iştirak etmək istəyən hərbi qulluqçular aidiyyəti üzrə raportla müraciət edir. Seçim prosesində şəxsi heyətin yüksək psixoloji və fiziki dözümlülük, mərdlik, cəsurluq, qətiyyətlilik, cəldlik, missiyada çətinlikləri dəfetmə bacarığı nəzərə alınır. Bu proses çərçivəsində hərbi qulluqçular müvafiq yoxlamalardan və tibbi müayinələrdən keçirilir.

Hazırlıq prosesində sülhməramlılara beynəlxalq hüquq normaları, sülhməramlı əməliyyat zamanı fəaliyyət və təhlükəsizlik qaydaları, göndərildikləri ölkənin tarixi, adət-ənənələri, mədəniyyəti barədə mövzular tədris olunur, eləcə də fiziki hazırlıq məşqləri və təlimlər keçirilir.

Bununla yanaşı, mütəmadi olaraq, Azərbaycan Respublikasının müdafiə nazirinin təsdiq etdiyi illik döyüş hazırlığı planına əsasən, sülhməramlı qüvvələrin şəxsi heyətinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə təlim məşqləri keçirilir və bölmələrin döyüş, mənəvi-psixoloji, fiziki, tibbi və xüsusi hazırlığı yoxlanılır. Sülhməramlı əməliyyat və missiyalara yalnız ən yüksək hazırlıqlı hərbi qulluqçular göndərilir. Onların hər biri ilə hərbi hissə komandiri ayrı-ayrılıqda söhbət aparır. 2017-ci ildən artıq bu bölmələrə müqavilə əsasında peşəkar hərbçilər cəlb olunur və təlimlərdə onların hazırlıq səviyyəsinin artırılması üçün bütün zəruri imkanlar yaradılıb.

Azərbaycan Ordusunun sülhməramlı kontingentinin hazırlığı missiyalara göndəriləcək hərbi qulluqçulara qarşılarında qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirə bilmələri, çətin şərait və vəziyyətlərdə həyatda qala bilmələri və vətənlərinə sağ-salamat geri dönmələri üçün zəruri olan qabiliyyətlərin və bacarıqların aşılanmasına yönəlmişdir. Sühməramlıların hazırlıq proqramlarından irəli gələn xüsusiyyətlər onları digər hərbi qulluqçulardan fərqləndirir. Əfqanıstanda xidmət etmiş Azərbaycan sülhməramlı kontingentinin zabiti baş leytenant Samir Yusubov bu fərqləri açıqlayarkən bildirmişdir: "Sülhməramlı taborun hərbi qulluqçusu öz məlumatlılığı və kəşfiyyatçı səriştəsi ilə də fərqlənməlidir. O, təhlükəsizliyə təhdid törədə biləcək amilləri qabaqcadan sezməli və baş verəcək hadisənin qarşısının cəld, operativ şəkildə alınması üçün addımlar atmalıdır. Keçirilən təlimatları dərindən mənimsəməli, əməliyyat şəraitini düzgün qiymətləndirməli, xidmət apardığı əraziyə yaxşı bələd olmalı, xidmət vaxtı yarana biləcək təhlükələrin qarşısını vaxtında almaq bacarığına malik olmaq məqsədilə öz üzərində daim çalışmalıdır".[70]

69 Fuad Cəfərov. Mahmud Möhbalıyev, *"Sülhməramlı missiyamızı layiqincə yerinə yetirdik"*, Mod.gov.az, 4 sentyabr 2021, Elektron resurs: https://mod.gov.az/az/pre/37496.html

70 Yenə orada

1997-ci ildə yaradılmış Sülhməramlı bölüyün şəxsi heyəti həmin ildə Norveçdə "Cooperative Banners", 1998-ci ildə Makedoniyada "Cooperative Best Effort", 1998-ci ildə Türkiyədə "Barış körpüsü", 1998-ci ildə Özbəkistan, Qırğızıstan, Qazaxıstan respublikalarında "Mərkəzabat", 1999-cu ildə Kanadada "Cooperative Best Effort", 2000-ci ildə Qazaxıstanda "Mərkəzabat" və digər təlimlərdə iştirak etmişdir. Təlimlərdə iştirak edənlər gələcəkdə baş verə biləcək humanitar və sülhməramlı əməliyyatların həyata keçirilməsi üçün böyük təcrübə və xüsusi biliklər əldə ediblər.

Azərbaycan Ordusunun hərbi sahədə əməkdaşlığı genişləndikcə müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların sülhməramlıların hazırlığı sahəsində təcrübələrinin öyrənilməsi və milli xüsusiyyətlərlə uyğunlaşdırılaraq tətbiq edilməsi üçün yeni imkanlar açılırdı. Azərbaycan Respublikasının beynəlxalq sülhə və təhlükəsizliyə töhfənin verilməsi ilə bağlı üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinin dəstəklənməsi üçün Azərbaycan Ordusu bu imkanlardan istifadə edirdi. Sonrakı illərdə də Azərbaycan Ordusu sülhməramlı qüvvələrinin hazırlığında Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə xarici dövlətlərin müdafiə qurumları arasında bağlanmış ikitərəfli hərbi əməkdaşlıq planlarının, eləcə də NATO-nun müxtəlif əməkdaşlıq mexanizmlərinin imkanlarından geniş istifadə etmişdir.

Sülhməramlı əməliyyatlara hazırlıq çərçivəsində Azərbaycan Ordusunun sülhməramlı qüvvələrinin şəxsi heyəti Türkiyədə, Bolqarıstanda, Makedoniyada, Moldovada, İtaliyada, Albaniyada, Rumıniyada, Yunanıstanda, Norveçdə, ABŞ-də, Ukraynada, İsveçrədə, Bosniya və Herseqovinada, İordaniyada, Mərakeşdə, Qətərdə və digər ölkələrdə "Cooperative Longbow/ Lancer", "REGEX", "Saber Junction", "Steadfast Jackal", "Combined Resolve", "Eternity", "Trident Jackal", "Combined Endeavor" və "Agile Spirit" kimi bir sıra beynəlxalq təlimlərdə və onların planlaşdırılması konfranslarında iştirak etmişdir.

Bununla yanaşı, sülhməramlı qüvvələrin şəxsi heyəti sülhməramlı əməliyyatlar, böhranların idarə olunması, birgə əməliyyatlar, maddi-texniki təminat, əməliyyatlar zamanı ətraf mühitin qorunması, hərbi müşahidəçi, qərargah zabitləri, çoxmillətli əməliyyat qərargahları, terrorçuluğa qarşı mübarizə, kütləvi qırğın silahlarından müdafiə, qüvvələrin planlanması, qüvvələrin qorunması, mülki-hərbi əməkdaşlıq kimi sahələri əhatə edən müxtəlif kurslar vasitəsilə də hazırlıq keçirlər.

Azərbaycan Ordusu NATO-nun və müxtəlif xarici dövlətlərin Azərbaycana səfər edən mobil təlim qruplarının keçirdiyi kurslardan da sülhməramlı qüvvələrin şəxsi heyətinin hazırlığında istifadə edir. Lakin hazırlıq prosesində diqqət tək sülhməramlı əməliyyatlarda iştirak edəcək şəxsi heyətə yönəlməyib, eyni zamanda onları hazırlayan təlimatçıların da bilik, bacarıq və peşəkarlıq səviyyəsinin artırılmasına istiqamətlənmişdir. Bu məqsədlə, onlar əməkdaşlıq mexanizmlərində nəzərdə tutulan xarici dövlətlərdə keçirilən müxtəlif təlimatçı hazırlığı kurslarına da göndərilir.

Sülhməramlı əməliyyatlarda iştirak etmək və digər ölkələrin qüvvələri ilə əməliyyat uyarlılığına nail olmaq üçün Azərbaycan Ordusu NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Qiymətləndirmə və Rəy Proqramına 2004-cü ildə qoşularaq bir bölüyünü ƏİK Ortaq Qüvvələr Birliyinə bəyan etmişdir. Hazırda Azərbaycan Ordusunun bütün qoşun növlərindən olan bölmələrinin bu proqrama cəlb edilməsinə müvəffəq olunmuşdur. 2015-ci ildə Ortaq Qüvvələr Birliyinə tabor səviyyəsində qüvvə, sonrakı illərdə isə kəşfiyyat bölüyü, "Mİ-17" helikopter cütlüyü və Dənizdə Qadağa Əməliyyatları üzrə Göyərtə Axtarış Qrupu bəyan edilmişdir.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sülhməramlı kontingentin hazırlanmasında NATO-nun ƏİK proqramının geniş imkanlarından səmərəli şəkildə istifadə edir, onun döyüş hazırlığı və uyarlılıq səviyyəsini artırır.

## Sülhməramlı əməliyyatlarda iştirak

### *1. "Kosovo Qüvvələri" Əməliyyatı (KFOR)*

KFOR əməliyyatı 1999-cu il mart ayının 24-də NATO-nun başladığı və 78 gün davam edən hərbi hava qüvvələrinin əməliyyatından sonra 1999-cu il iyun ayının 10-da BMT TŞ-nin 1244 saylı qətnaməsi əsasında başladı. NATO tarixində ən uzunmüddətli olan bu əməliyyat hazırda da davam edir. Əməliyyat müddətində 200-dən çox sülhməramlı həlak olmuşdur[71].

Əməliyyatın məqsədi ilkin olaraq silahlı toqquşmaların qarşısını almaq, təhlükəsizlik mühiti yaratmaq, ictimai asayişi və qayda-qanunu təmin etmək, Kosovo Azadlıq Ordusunu tərk-silah etmək, humanitar sahədə beynəlxalq səyləri dəstəkləmək və beynəlxalq mülki təşkilatlarla koordinasiya aparmaq olmuşdur. Sonradan əməliyyatda iştirak edən qüvvələrin qarşısına başqa məqsədlər də qoyulmuşdur.

KFOR əməliyyatına ilkin olaraq NATO və Alyansın üzvü olmayan 30 ölkədən 50.000 qüvvə qatılmışdır.[72] Təhlükəsizlik vəziyyəti yaxşılaşdıqca qüvvələrin sayı azalmağa doğru gedirdi. Artıq 2003-cü ilin sonunda KFOR əməliyyatında iştirak edən şəxsi heyətin sayı 17.500 nəfərə qədər azalmışdı.[73]

Kosovoda sülhmərmalı qüvvələrin əsas qərargahı Pristina şəhərində yerləşirdi. Onun tabeliyində 5 çoxmillətli briqada və qərargahlar fəaliyyət göstərirdi. Bu qüvvələr Mərkəz (Böyük Britaniya rəhbərlik edirdi, Pristinada yerləşmişdi), Cənub (Almaniya rəhbərlik edirdi, Prizrendə yerləşmişdi), Şimal (Fransa rəhbərlik edirdi, Kosovska Mitrovicada yerləşmişdi), Şərq (İtaliya rəhbərlik edirdi, Peçdə yerləşmişdi) və Qərb (ABŞ rəhbərlik edirdi, Ferizaj/Uroşevac yaxınlığında Bondstil düşərgəsində yerləşmişdi) Çoxmillətli Tapşırıq Qüvvəsi şəkilində formalaşdırılmışdı.

1999-cu il iyul ayının 2-də Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikası Silahlı Qüvvələri taqımının Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələri taborunun tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Yuqoslaviyanın Kosovo regionunda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında" 697-IQR nömrəli Qərar qəbul etmişdir.[74]

Azərbaycan Ordusunun bir taqımdan ibarət sülhməramlı kontingenti 1999-cu ilin sentyabr ayından 2008-ci ilin mart ayına qədər 34 nəfər şəxsi heyətlə (1 zabit, 1 gizir və 32 əsgər) NATO-nun rəhbərliyi altında Kosovoda sülhün yaradılması və dəstəklənməsi üzrə keçirilən əməliyyatlarda iştirak etmişdir[75]. Azərbaycan Respublikası bu əməliyyata qoşulan ilk dövlətlərdən olmuşdur. Kosovoya göndərilən heyət Azərbaycanda 2 aylıq xüsusi hazırlıq keçdikdən sonra Türkiyənin Ankara şəhərində Türkiyə taboru ilə birlikdə 2 həftəlik təlimə qatılmışdı. 1999-cu ilin iyul ayına qədər sülhməramlı kontingetin Azərbaycanda hazırlığı yekunlaşdırılmışdı.

71 Forcesnews, *"The NATO task force that's been keeping the peace in Kosovo for 25 years"*, 12 June 2004, Available at: https://www.forcesnews.com/services/army/kfor-nato-task-force-thats-been-keeping-peace-kosovo-25-years

72 Ministry of National Defence of Poland, "KFOR", Available at: https://www.gov.pl/web/national-defence/kfor

73 NATO, *"NATO's role in Kosovo"*, Available at: https://www.nato.int/cps/en/natolive/topics_48818.htm.

74 E-qanun.az, **"***Azərbaycan Respublikası Silahlı Qüvvələri taqımının Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələri taborunun tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Yuqoslaviyanın Kosovo regionunda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı",* № 697-IQR, 2 iyul 1999, Elektron resurs: https://e-qanun.az/framework/14899

75 Mod.gov.az, *"Beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak"*, Elektron resurs: https://mod.gov.az/az/mdb-cer-civesinde-emekdasliq-027/

28 iyul 1999-cu il tarixində Bakı şəhərində imzalanmış "Kosovo Türk Taboru Tapşırıq Qüvvəsinin tərkibində Kosovoya gedəcək Azərbaycan tağımının fəaliyyətinə dair Saziş"ə[76] əsasən, Azərbaycan sülhməramlı kontingenti Kosovo Qüvvələrinin Cənub Çoxmillətli Tapşırıq Qüvvəsinin, Türkiyə Taboru Taktiki Tapşırıq Qüvvəsinin 4-cü mexanikləşdirilmiş bölüyünün tərkibində Kosovonun Draqaş rayonunda xidmət aparmışdır. Taqım Türk taborunun tərkibində Prizren şəhərinin 35 km cənubunda Draqaş şəhərində, Makedoniya və Albaniya dövlətləri ilə sərhəddə yerləşdirilmişdir.

Sözügedən Sazişin imzalanması mərasimində iştirak edən Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı hərbi attaşesi general-mayor Sadıq Ercan Azərbaycan taqımının Kosovoda sülhməramlı əməliyyatlarda iştirakını Azərbaycan Silahlı Qüvvələrinin böyük addımı adlandırmış və onun beynəlxalq aləmdə nüfuzunun artdığını söyləmişdir.[77]

Azərbaycan Ordusunun sülhməramlı taqımının Kosovoda xidmət etdiyi müddət ərzində sülhməramlı əməliyyatda 362 hərbi qulluqçu, o cümlədən 10 zabit, 7 gizir, 345 əsgər iştirak etmişdir. Şəxsi heyət altı aydan bir rotasiya qaydasında dəyişdirilmişdir[78].

Kosovonun müstəqilliyinin təktərəfli elan olunmasından sonra 4 mart 2008-ci il tarixində Azərbaycan Respublikasının Milli Məclisi keçmiş Yuqoslaviyanın Kosovo regionunda siyasi vəziyyətin dəyişməsi ilə əlaqədar "Azərbaycan Respublikası Silahlı Qüvvələri taqımının keçmiş Yuqoslaviyanın Kosovo regionundan geri çağırılması haqqında" Qərar qəbul etmişdir.[79] 2008-ci ilin aprel ayında taqım tam heyətlə Kosovo bölgəsindən Azərbaycana geri dönmüşdür.

Azərbaycan sülhməramlı kontingentinin fəaliyyəti müddətində maddi-texniki təminatı, əməliyyat ərazisinə və geriyə daşınması Türkiyə Respublikası tərəfindən həyata keçirilmişdir.

Azərbaycan Ordusunun sülhməramlı taqımının cavabdehlik ərazisinə alban və qoran etnik qruplarının yaşadığı Draqaş rayonunun 18 yaşayış məntəqəsi, eləcə də 14 km Kosovo-Şimali Makedoniya, 7 km isə Kosovo-Albaniya arasındakı sərhəd zonası daxil idi.

Taqım plana uyğun olaraq 18 yaşayış məntəqəsində post-patrul xidməti, sərhəd zonalarında sərhəd patrulu, müşahidə məntəqələri yaratmaqla müşahidə tapşırıqları, hərəkət marşrutlarında stasionar və mobil yoxlama nöqtələri təşkil etməklə şəxslərin və nəqliyyat vasitələrinin yoxlanılması fəaliyyətlərini, humanitar yardım kolonlarının müşayiət olunmasını, beynəlxalq və qeyri-hökumət təşkilatlarının rəsmi müraciət əsasında tədbirlərin mühafizəsi tapşırıqlarını beynəlxalq hüququn norma və prinsiplərinə əsasən icra etmişdir. Bununla yanaşı, Azərbaycan Ordusunun sülhməramlı taqımı ABŞ, Almaniya, Avstriya, Türkiyə və Yunanıstan sülhməramlı kontingentləri ilə birgə "Modul-150" adlı axtarış və patrul xidməti yerinə yetirmişdir.

Azərbaycan sülhməramlı taqımının cavabdehlik ərazisi dəniz səviyyəsindən 1100 metr yüksəklikdə yerləşən dağlıq və soyuq iqlim şəraiti olan əraziləri əhatə edirdi. Bu isə öz növbəsində fəaliyyətlərin planlaşdırılması və icrası zamanı daha diqqətli və ehtiyatlı olmağı tələb edirdi.

Müxtəlif ölkələrdən gələn sülhməramlılar, adətən, yerləşdiyi ən qarışıq etnik bölgələrdə mədəni və dini fərqlərdən irəli gələn bir sıra həssas, bəzi hallarda isə problemlərə gətirib çıxara biləcək məqamlarla üzləşirdilər. Azərbaycan Ordusunun hərbi qulluqçuları keçdikləri hazırlıq kurslarından bilirdilər ki, mədəni və dini fərqlərin nəzərə alınmaması nəinki missiyanın

76 Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 28 iyul 1999, Available at: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-44722.html

77 Yenə orada

78 Mod.gov.az, *"Beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak"*, Elektron resurs: https://mod.gov.az/az/mdb-cercivesinde-emekdasliq-027/

79 E-qanun.az, *"Azərbaycan Respublikası Silahlı Qüvvələri taqımının keçmiş Yuqoslaviyanın Kosovo regionundan geri çağırılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı"*, № 553-IIIQR 4 mart 2008, Elektron resurs: https://e-qanun.az/framework/14899

effektivliyinə təsir edə, hətta yerli əhali ilə qarşıdurmaya gətirib çıxara bilər. Kosovoda əhalinin 95%-nin müsəlman olması dini yaxınlıq baxımından Azərbaycan əsgərləri ilə yerli əhali arasında müəyyən bağlar yaratmışdır. Azərbaycan Ordusunun hərbi qulluqçuları yerli adət və ənənələrə hörmətlə yanaşmış və yerli əhali ilə yaxşı münasibətlər qurmağa müvəffəq olmuşdur.

Bununla yanaşı, Türkiyə-Azərbaycan bölüyü yerli əhali üçün mütəmadi olaraq tibbi müayinələr təşkil edirdi. Bu isə yerli əhali tərəfindən peşəkar həkimlərin göstərdiyi tibbi xidmətlərdən pulsuz yararlanmaq üçün böyük fürsət kimi dəyərləndirilirdi.[80]

Fərqli qabiliyyətlərə, avadanlıqlara, standartlara, əməliyyat prosedurlarına malik, eləcə də fərqli təlimlər keçmiş 34 ölkənin qüvvələrindən formalaşan KFOR-da uyğunsuzluqlar müşahidə edilirdi. Müxtəlif ölkələrdən olan sülhməramlıların dislokasiya olunduqları birgə bazalarda idarəetmə və nəzarət prosedurlarında, mədəniyyətlərdə, dinlərdə, adət və ənənələrdə əhəmiyyətli fərqlər mövcud idi.

Tolerant, multikultural və çoxkonfessiyalı cəmiyyətdə böyümüş Azərbaycan sülhməramlı kontingentinin şəxsi heyəti mədəni və dini fərqliliklər mühitində xidmət etdiyi müddət ərzində digər ölkələrin sülhməramlı qüvvələri ilə dostluq və işgüzar əlaqələr qurmağı bacarmış, qarşılıqlı uyarlılığın təmin edilməsi üçün zəruri tədbirləri həyata keçirmiş, eləcə də yaxşı təcrübələr qazanmışdır.

Kosovodakı sülhməramlı əməliyyatda iştirak etmiş Azərbaycan Ordusunun zabiti Əmirbəy Baxışov "Azərbaycan" qəzetinə verdiyi müsahibəsində bildirmişdir: "1997-ci ildən NATO standartlarına uyğun təlim-tədris keçdiyimizdən, Kosovoda xidmət bizim üçün o qədər də çətin olmadı. Türk bölüyünün tərkibində maddi-texniki, habelə hərbi təchizat yüksək səviyyədə idi. Kosovoda olduğumuz müddətdə daha çox praktiki təcrübə topladıq, sülhməramlı fəaliyyətin nədən ibarət olduğunu tam başa düşdük. Bizim yerləşdiyimiz Draqaş şəhəri və ətraf bölgə müsəlmanlardan ibarət idi. Yerli əhali ilə münasibətlərimiz də yüksək səviyyədə qurulmuşdu. Onlar bizim sülhməramlı fəaliyyəti yüksək qiymətləndirirdilər."[81]

10 may 2006-cı il tarixində Kosovonun Draqaş şəhərində sülhməramlıların yerləşdiyi ərazidə Ulu Öndər Heydər Əliyevin büstünün təntənəli açılış mərasimində[82], həmçinin 28 may Dövlət Müstəqilliyi Günü[83] ilə əlaqədar və Azərbaycan sülhməramlılarının təşkil etdikləri bir sıra digər tədbirlərdə NATO-ya üzv dövlətlərin qüvvələrini təmsil edən yüksək rütbəli hərbçilərin, yerli dövlət qurumlarının nümayəndələrinin və əhalinin iştirak etməsini də Azərbaycana verilən dəyərin və yerli sakinlərlə yaxşı münasibətlərin qurulmasının göstəricisi kimi qiymətləndirmək olar.

*Azərbaycan Ordusunun sülhməramlı taqımının KFOR əməliyyatına verdiyi töhfələr aşağıdakılardır:*

- Həyata keçirdiyi post-patrul xidməti ilə rayon ərazisində sülhməramlı qüvvələrin varlığını nümayiş etdirmiş, bununla Draqaş rayonu ərazisində yenidən baş verəcək hərbi əməliyyatların qarşısını almış, təhlükəsiz mühitin yaradılmasını, ictimai təhlükəsizliyi və asayişi təmin etmişdir;
- Rayon ərazisində baş verən iğtişaşların yatırılmasında iştirak etmiş, etnik azlıqların bir-birinə qarşı zorakılıq hərəkətlərinin qarşısını almış və hərəkət azadlığını təmin etmişdir;
- Şimali Makedoniya və Albaniya ilə olan sərhədin Draqaş rayonundan keçən hissəsində

80 KFOR Chronicle, *"Azerbaijan Contingent in KFOR"*, Edition 5, May 31, 2006

81 *Azərbaycan Qəzeti*, "Azərbaycan sülhməramlılarının döyüş hazırlığı NATO standartlarına tam uyğundur", 30 may 2009

82 Yenə orada

83 KFOR Chronicle, *"87th Anniversary of Establishment of Azerbaijan Democratic Republic,* Edition 6, June 30, 2005

sərhədin etibarlı mühafizəsini təmin etmiş, qaçaqmalçılıq, qeyri-qanuni miqrasiya, transmilli cinayətkarlığın və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri həyata keçirmişdir. Bu tədbirlər nəticəsində dəfələrlə silah, döyüş sursatları, narkotik maddələr və digər qeyri-qanuni vasitələr aşkar edilərək aidiyyəti üzrə təhvil verilmişdir;
- Kosovo Azadlıq Ordusunun tərk-silah edilməsində iştirak etmiş, cavabdehlik ərazisində onlara aid hərbi hissələrdə mütəmadi olaraq şəxsi heyət və silahlar yoxlanılmışdır. Minalanmış ərazilərə dinc sakinlərin girişinin qarşısını almış və aşkar edilən minaların zərərsizləşdirilməsində mühafizəni təşkil etmişdir;
- Məcburi köçkünlərin təhlükəsiz şəkildə evlərinə qayıtmalarına kömək etmiş, beynəlxalq təşkilatlar vasitəsilə cavabdehlik ərazisində yerləşən 18 yaşayış məntəqəsinə humanitar yardımlar göstərmişdir. Beynəlxalq təşkilatlara və qeyri-hökumət təşkilatlarına fəaliyyətlərində kömək etmişdir.

Azərbaycan Respublikasının Kosovoda sülhün, təhlükəsizliyin və sabitliyin bərqərar olmasına verdiyi töhfələr dünya dövlətləri, beynəlxalq təşkilatlar və KFOR komandanlığı tərəfindən daim yüksək qiymətləndirilmişdir.

26-28 aprel 2000-ci il tarixlərində NATO qüvvələrinin planlaşdırılma qrupunun rəhbəri admiral Quido Venturoni Bakı şəhərinə səfəri çərçivəsində keçirdiyi görüşlərdə Azərbaycan Ordusunun hərbi qulluqçularının Kosovoda sülhməramlı əməliyyatda iştirakını yüksək qiymətləndirmişdir.[84]

2002-ci ilin oktyabr ayında Azərbaycan Respublikasına səfər edən NATO-nun Avropadakı Birləşmiş Silahlı Qüvvələrinin Ali Baş Komandanı – ABŞ-nin Avropadakı Silahlı Qüvvələrinin komandanı general Cozef Ralston Azərbaycanın tərəfdaşlığını qiymətləndirərkən bildirmişdir: "Sosializm düşərgəsi dağıldıqdan sonra NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı yaradıldı və Azərbaycan onunla əməkdaşlığa qoşulan ilk dövlətlərdən biri olmaqla, sülhməramlı missiya yerinə yetirməyə başladı. Azərbaycan Silahlı Qüvvələrinin sülhməramlı taqımının Kosovoda Türkiyə taborunun tərkibində yüksək səviyyədə xidmət etməsi və ötən il Bakıda "Kooperativ Determineyşn - 2001" təlimlərinin keçirilməsi göstərir ki, Azərbaycan əla tərəfdaşdır."[85]

2007-ci ilin mart ayında Azərbaycanda səfərdə olan sabiq NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi cənab Robert Simmons Azərbaycan Silahlı Qüvvələri bölmələrinin Əfqanıstanda və Kosovoda NATO ilə çiyin-çiyinə beynəlxalq terrorçuluğa qarşı mübarizə apardığına görə minnətdarlıq etmişdir.[86]

Azərbaycan Ordusunun sülhməramlı taqımı 15 aprel 2008-ci il tarixində ölkəmizə geri qayıtmışdır. Azərbaycan Ordusunun şəxsi heyəti Kosovoda sülhməramlı əməliyyatda xidmətləri zamanı yüksək peşəkarlıq nümayiş etdiriblər. Bu peşəkarlıq hər zaman yüksək qiymətləndirilmiş, onlar NATO-nun əməliyyatda iştirakçı medalları və digər mükafatları ilə təltif edilmişdir. Kosovo Qüvvələrinin Cənub Çoxmillətli Tapşırıq Qüvvəsinin nümayəndəsi, polkovnik Georq Makker Azərbaycan Respublikasının sülhməramlı kontingenti ilə rəsmi vida mərasimi zamanı öz çıxışında azərbaycanlı hərbi qulluqçuların peşəkarlığını, nizam-intizamını və fədakarlığını yüksək qiymətləndirmiş, onların bölgədə sabitliyin təmin olunmasına və beynəlxalq əməkdaşlığın inkişafına verdiyi töhfəni xüsusilə vurğulamışdır.[87]

---

84 Qasımlı, Musa. *"Azərbaycan Respublikasının diplomatiya tarixi/Azərbaycan Respublikasının xarici siyasəti (1991–2003)": 2 hissədə, II hissə, Bakı*: Mütərcim, 2015.

85 Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 17 oktyabr 2002, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-44289.html

86 Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 15 mart 2007, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-43491.html

87 *Alman Silahlı Qüvvələrinin Balkanlardakı qəzeti*. N465, 2008 (Feldzeitung der Bundeswehr für den Balkan)

Kosovoda xidmət aparmış Azərbaycan Ordusunun sülhməramlı kontingentinin peşəkarlığı hətta NATO-nun ali rəhbərliyi tərəfindən də dəfələrlə müsbət dəyərləndirilmişdir. 2017-ci ilin noyabr ayında NATO-nun sabiq Baş katibi Yens Stoltenberq Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevlə keçirdiyi görüşdə Azərbaycanın NATO-nun Kosovo və Əfqanıstandakı sülhməramlı missiyalardakı iştirakını yüksək qiymətləndirmişdir.[88]

### *2. "Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri" Əməliyyatı – İSAF*

İSAF Əməliyyatı 2002-ci ilin avqust ayından BMT TŞ-nin 20 dekabr 2001-ci il tarixli 1386 saylı qətnaməsi[89] və Əfqanıstan hökumətinin müraciəti əsasında başlamışdır. Qətnaməyə əsasən, 5.000-ə yaxın qüvvə Kabil şəhərində və onun ətrafında yerləşdirilməli idi. BMT TŞ-nin 1510 saylı 2003-cü il 13 oktyabr tarixli qətnaməsinə əsasən, İSAF əməliyyatının ərazisi bütün Əfqanıstanı əhatə etməyə başlayaraq,[90] 2003-2005-ci illərdə Əfqanıstanın şimal və qərbinə, 2005-2006-ci illərdə isə cənub və şərqinə doğru genişlənmişdir.[91]

İSAF əməliyyatının məqsədi Əfqanıstan hökumətinə ölkə üzərində tam hakimiyyətini bərpa etmək üçün zəruri şərait yaratmaq, beynəlxalq terrorizmlə mübarizə daxil olmaqla Əfqan Milli Müdafiə və Təhlükəsizlik Qüvvələri üçün müvafiq imkan və qabiliyyətləri formalaşdırmaq olmuşdur.

Əfqanıstan Milli Müdafiə və Təhlükəsilik Qüvvələri ölkədə təhlükəsizliyin təmin edilməsinə cavabdehliyi tam olaraq üzərinə götürdükdən sonra İSAF əməliyyatı 2014-cü ilin dekabr ayında başa çatmışdır.

İSAF əməliyyatında 2002-2014-ci illərdə ümumilikdə 50 ölkədən 130.000 nəfər şəxsi heyət iştirak etmişdir[92]. Qüvvələr Əfqanıstanda Mərkəz (Kabil ş.), Cənub (Qəndəhər ş.), Şimal (Məzari-Şərif ş.), Şərq (Baqram ş.) və Qərb (Herat ş.) regional komandanlıqlarına bölünmüşdür.

15 noyabr 2002-ci il tarixində Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Ordusunun sülhməramlı kontingentinin Türkiyə Respublikası Silahlı Qüvvələrinin və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında" Qərar qəbul etmişdir.[93]

Azərbaycan Ordusunun bir taqımdan ibarət sülhməramlı kontingenti 2002-ci ilin noyabr ayından etibarən 22 nəfər şəxsi heyətlə (1 zabit, 1 gizir və 20 əsgər) Əfqanıstan İslam Respublikasında İSAF tərkibində sülhün yaradılması və dəstəklənməsi üzrə keçirilən əməliyyatlarda fəaliyyətə başlamışdır. Şəxsi heyət altı aydan bir rotasiya qaydasında dəyişdirilmişdir.

---

88 Mod.gov.az, "Prezident İlham Əliyev Brüsseldə NATO-nun Baş katibi Yens Stoltenberq ilə görüşüb", Press Release, 23 noyabr 2017, Elektron resurs: https://mod.gov.az/az/news/prezident-ilham-eliyev-brusselde-nato-nun-bas-katibi-yens-stoltenberq-ile-gorusub-video-20758.html.

89 United Nations, *"Resolution 1386 (2001) adopted by the UN Security Council at its 4443rd meeting"*, December 20, 2001, Available at: https://digitallibrary.un.org/record/454998?v=pdf.

90 United Nations, *"Resolution 1510 (2023) adopted by the Security Council at its 4840th meeting"*, October 13, 2003, Available at: https://digitallibrary.un.org/record/503843?v=pdf#files.

91 UK House of Commons, *"The International Security Assistance Force in Afghanistan"*, 9 February 2009, Available at: https://researchbriefings.files.parliament.uk/documents/SN04854/SN04854.pdf.

92 NATO, *"NATO and Afghanistan"*, Available at: https://www.nato.int/cps/en/natohq/topics_8189.htm

93 E-qanun.az, *"Azərbaycan Ordusunun sülhməramlı kontingentinin Türkiyə Respublikası Silahlı Qüvvələrinin və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı"*, № 378-IIQR, 15 noyabr 2002, Elektron resurs: https://e-qanun.az/framework/11351

Buxarest Sammitində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev sülhməramlı kontingentin sayının iki dəfə artırılması niyyətini bəyan etmişdir. Bununla əlaqədar qəbul edilmiş Azərbaycan Respublikasının Qanununa[94] əsasən, 15 yanvar 2008-ci il tarixində Azərbaycanın Əfqanıstandakı sülhməramlı kontingentinin sayı artırılaraq 45 nəfərə çatdırılmışdır. 2 oktyabr 2008-ci il tarixində Azərbaycan Respublikasının Milli Məclisi Əfqanıstandakı sülhməramlı kontingentin sayının artırılması haqqında qərar[95] qəbul etmiş və 19 fevral 2009-cu il tarixindən etibarən Azərbaycan Ordusunun sülhməramlı kontingentinin sayı iki dəfə artırılaraq 90 nəfərə çatdırılmışdır. 5 oktyabr 2010-cu il tarixində Azərbaycan İSAF əməliyyatına verdiyi hərbi töhfəsinin artırılması məqsədilə missiyaya əlavə olaraq, 2 hərbi həkim və 2 mühəndis-istehkam ixtisaslı olmaqla, əlavə 4 zabit göndərərək sülhməramlı kontingentin sayını 94 nəfərə çatdırmışdır.[96]

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sülhməramlı kontingenti İSAF əməliyyatında Türkiyə taborunun tərkibində fəaliyyət göstərmişdir. Kontingentin maddi-texniki təminatı və əməliyyat ərazisinə daşınması Türkiyə tərəfindən həyata keçirilmişdir.

Azərbaycan Ordusunun sülhməramlı bölüyü Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin Mərkəzi Bölgə Komandanlığının, Türkiyə Tabor Taktiki Tapşırıq Qüvvəsinin bir bölüyü kimi Kabil şəhərində xidmət aparmışdır. Sülhməramlı bölüyün birinci və ikinci taqımları Uthil qəsəbəsində post-patrul xidməti və "Doğan" bazasının şimal-şərq hissəsinin mühafizəsini həyata keçirmişdir. Üçüncü taqım Əfqanıstan İslam Respublikasının dövlət televiziya qülləsi, dördüncü taqım isə Puliçarki rayonunda İSAF qüvvələrinin silah-sursat anbarını mühafizə etmişdir.

Bundan əlavə, hərbi həkimlər Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin şəxsi heyətinə, həmçinin yerli əhaliyə tibbi xidmət göstəriblər. Hərbi həkimlər gündəlik olaraq 30-40 nəfər yerli sakini müayinə və müalicə ediblər. Mühəndis-istehkamçılar Türkiyə Silahlı Qüvvələrinin sülhməramlı kontingentinin mina zərərsizləşdirmə heyətinin tərkibində minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi fəaliyyətlərini yerinə yetiriblər.

Sülhməramlı bölüyün şəxsi heyəti isti iqlim şəraitinin olmasına baxmayaraq, öz tapşırıqlarını beynəlxalq hüququn norma və prinsipləri əsasında hər zaman layiqincə yerinə yetirmişdir.

*<u>Azərbaycan Ordusunun sülhməramlı bölüyünün İSAF əməliyyatında verdiyi əsas töhfələr aşağıdakılardır:</u>*

- Cavabdehlik sahəsində post-patrul xidməti həyata keçirmiş NATO qüvvələrinin ərazidə varlığını dinc əhaliyə nümayiş etdirmişdir və məzhəblər arasında baş verən qarşıdurmaların qarşısını almışdır;
- Silah-sursat anbarı və dövlət televiziya qülləsi kimi strateji əhəmiyyətli infrastrukturların terrorçu qruplardan qorunmasına nail olmuşdur;

94 E-qanun.az, *"Azərbaycan Ordusunun sülhməramlı kontingentinin Türkiyə Respublikası Silahlı Qüvvələrinin və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 2002-ci il 15 noyabr tarixli 378-IIQR nömrəli Qərarına əlavə edilməsi barədə Azərbaycan Respublikasının Qanunu"*, № 451-IIIQD, 19 oktyabr 2007, Elektron resurs: https://e-qanun.az/framework/11351

95 E-qanun.az, *"Azərbaycan Respublikası Silahlı Qüvvələri taqımının Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin taborunun tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarına dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı"*, № 673-IIIQR, 2 oktyabr 2008, Elektron resurs: https://e-qanun.az/framework/16428

96 Mod.gov.az, *"Beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak"*, Elektron resurs: https://mod.gov.az/az/mdb-cercivesinde-emekdasliq-027/

- Kabil-Cəlalabad avtomagistral yolunun cavabdehlik ərazisindən keçən hissəsini daim müşahidə atlında saxlamış və konvoyların təhlükəsiz keçidini təmin etmişdir;
- Cavabdehlik ərazisindəki məscidlərin və digər dini məbədlərin təhlükəsizliyini təmin etmiş və dini mərasimlərin keçirilməsinə təhlükəsiz mühit yaratmışdır;
- Strateji obyektlərin qorunması mövzusunda Əfqanıstan Ordusunun şəxsi heyəti üçün müxtəlif treninqlər təşkil etmişdir;
- Azərbaycan Ordusunun sülhməramlı kontingentinin iki hərbi həkimi Əfqanıstan İslam Respublikasında poliklinikada həm yerli əhaliyə, həm də sülhməramlı kontingentin əsgərlərinə tibbi yardım göstərmişdir;
- Məcburi köçkünlərin təhlükəsiz şəkildə evlərinə qayıtmalarına kömək etmiş, beynəlxalq təşkilatlar vasitəsilə cavabdehlik ərazisində dinc sakinlərə humanitar yardımlar göstərmişdir. Beynəlxalq təşkilatlara və qeyri-hökumət təşkilatlarına fəaliyyətlərində kömək etmişdir.

Sülhməramlı bölük öz tapşırıqlarını beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində yerinə yetirmişdir. Uthil qəsəbəsində fəaliyyət göstərən beynəlxalq və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı fəaliyyətdə işləmişdir. Yerli əhalinin inam və hörmətini qazanmış və daim yaxşı münasibətlər qurmuşdur. Göstərdikləri peşəkarlığa, verilən tapşırıqları vaxtında yerinə yetirdiklərinə görə Azərbaycan sülhməramlıları dəfələrlə fəxri diplomlara layiq görülmüş, şəxsi heyətin üzvləri komandanlıq tərəfindən mükafatlandırılmış, Müdafiə Nazirliyinin rəhbərliyi isə çoxsaylı təşəkkür məktubları almışdır.

31 may 2009-cu il tarixində "Azərbaycan" qəzetində "Sülhməramlı missiya" başlıqlı məqalədə Əfqanıstanda nümunəvi hərbi xidmətə görə NATO komandanlığının xüsusi medalı ilə təltif edilmiş "N" saylı hərbi hissəsinin zabiti Zülfüqar Zülfüqarov bildirmişdir: "Azərbaycan sülhməramlı taqımı eyni zamanda əfqan hərbçilərinin döyüş hazırlığının yüksəldilməsi ilə məşğuldur. Terrorçuluğa qarşı mübarizənin təşkilində onlara hərtərəfli kömək göstərilir. Yerli əhali ilə münasibətlər də kifayət qədər normal səviyyədə qurulub. Əfqanlar müsəlman olduqları üçün bizə böyük inam və etimad göstərirlər. Təsadüfi deyildir ki, əhaliyə ərzaq məhsulları və digər humanitar mallar da məhz bizim taqımın köməyi ilə paylanılır".[97]

Azərbaycan sülhməramlıları Əfqanıstanda olduqları müddətdə daim müxtəlif təhlükələrlə üzləşirdilər. Mühafizə etdikləri əraziyə basqınlar, yerdə basdırılmış partlayıcı qurğular, kamikadzelər kimi təhlükələr onları gündəlik olaraq əhatə edirdi.

2007-ci ildə Azərbaycan Ordusunun sülhməramlı bölüyünün üçüncü taqımının mühafizə etdiyi Əfqanıstan İslam Respublikasının dövlət televiziya qülləsinə terrorçular tərəfindən basqın edilmişdir. Azərbaycan Ordusunun sülhməramlı taqımı basqını dəf edərək terrorçuları zərərsizləşdirmişdir.[98]

2013-cü ildə "Doğan" bazasının yaxınlığında yerləşən Böyük Britaniyanın sülhməramlı kontingentinin nəzarət buraxılış məntəqəsində terrorçu-kamikadze partladıcı qurğunu işə salmış və daha sonra digər terrorçular tərəfindən bazaya hücum etməyə cəhd edilmişdir. Azərbaycan Ordusunun sülhməramlı bölüyünün 1-ci taqımı terrorçulara cinahdan manevr etməklə hücum etmiş Böyük Britaniyanın sülhməramlıları ilə qarşılıqlı əlaqədə terrorçuları zərərsizləşdirmişdir.[99]

97 *Azərbaycan qəzeti*, "Sülhməramlı missiya", 31 may 2009

98 Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi, *"Raport"*, 09 oktyabr 2025-ci il, 55 (2025-ci il) nömrəli iş, səh. 103-119

99 Yenə orada

Poliçarki rayonunda yerləşən Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin silah-sursat anbarında mühafizə xidməti aparan şəxsi heyəti rotasiya qaydasında dəyişmək üçün Azərbaycan Ordusunun sülhməramlı bölüyünün bir qrup şəxsi heyəti "Doğan" bazasından avtomobil kolonunda hərəkət edərkən terrorçu-kamikadze idarə etdiyi motosikleti partlatmış, lakin partlayış nəticəsində avtomobillərə və şəxsi heyətə zərər dəyməmişdir.[100]

NATO-nun Əfqanıstanda Təhlükəsizliyə Yardım üzrə Beynəlxalq Qüvvələrinin komandanı general Den Maknill (ABŞ Quru Qoşunları) Azərbaycan Respublikasının müdafiə nazirinə yazdığı 26 may 2008-ci il tarixli məktubunda Azərbaycan sülhməramlılarının göstərdikləri nümunəvi davranışı məmnuniyyətlə qeyd etmiş və bildirmişdir: "....Sizin Əfqanıstandakı qoşunlarınız yerləşdiyi yerdən asılı olmayaraq hər gün təhlükəsizliyə öz töhfəsini verir və onlar hər tapşırığın yerinə yetirilməsində böyük çeviklik və qəhrəmanlıq göstərmişdilər. Onlar Azərbaycanın heyrətamiz nümayəndələridirlər. Onlar əvvəllər də bu cür olmuş və gələcəkdə belə olmağa davam edəcəklər. Əfqanıstanda Təhlükəsizliyə Yardım üzrə Beynəlxalq Qüvvələrin bir hissəsi kimi onlara komandanlıq etmək mənim üçün şərəfdir".[101]

Azərbaycan sülhməramlı qüvvələri Əfqanıstanda əməliyyatda iştirak edən və əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən bir neçə ölkələrdən biri idi və bu amil yerli əhali ilə gündəlik təmasları asanlaşdırırdı[102].

Azərbaycan sülhməramlı kontingentinin fəaliyyəti müxtəlif səviyyəli vəzifəli şəxslər tərəfindən daim yüksək qiymətləndirilmişdir. ABŞ Silahlı Qüvvələrinin Avropa Komandanlığının qərargah rəisinin müavini general Çarlz Uoldun 2003-cü ilin noyabr ayında Azərbaycana həyata keçirdiyi səfəri çərçivəsində Azərbaycanın beynəlxalq terrorizmlə mübarizəyə verdiyi töhfələrə toxunarkən bildirmişdir: "Biz ABŞ üçün strateji əhəmiyyətə malik ölkələr sırasına daxil olan Azərbaycanla münasibətlərə xüsusi əhəmiyyət veririk və ölkənizlə hərbi əməkdaşlığı genişləndirməkdə maraqlıyıq. Dünyada terrorun və qeyri-ənənəvi hərbi təhlükələrin artdığı bir zamanda dostlarımızın təhlükəsizliyi bizim üçün çox önəmlidir. Bu mənada, Azərbaycanın beynəlxalq terrorçuluğa qarşı mübarizədə, eləcə də Balkanlarda, Əfqanıstanda və İraqda aparılan sülhməramlı əməliyyatlarda fəal iştirakını yüksək qiymətləndiririk".[103]

ABŞ-nin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Reno Harniş isə demişdir: "Bu hadisə Amerika xalqının beynəlxalq terrorizmlə mübarizə əzmini daha da artırmışdır. Bu işdə dostlarımızın, o cümlədən Azərbaycan dövlətinin əməyini yüksək qiymətləndiririk. Azərbaycan Silahlı Qüvvələri taqımının Əfqanıstanda olması beynəlxalq terrorizmlə mübarizədə Azərbaycanın Amerikanı dəstəkləməsinə gerçək sübutdur. ABŞ Bakını özünün yaxın dostu hesab edir..."[104]

2006-cı ilin iyul ayında Amerika Birləşmiş Ştatları Oklahoma ştatı Milli Qvardiyasının komandanı general-mayor Harri Vyatt (Harry Wyatt) Azərbaycana səfər etmişdir. Həmin ilin iyul ayının 27-də o, Azərbaycan Respublikasının müdafiə naziri ilə keçirdiyi görüşdə Azərbaycanın qlobal terrorizmlə mübarizədə fəal iştirakına görə Azərbaycan xalqına və dövlətinə təşəkkür edərək demişdir: "Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin İraqda, Əfqanıstanda və Kosovoda ABŞ Silahlı Qüvvələri ilə bir yerdə xidmət etməsini biz Azərbaycan

---

100 Yenə orada

101 Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 18 iyul 2008, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-43117.html

102 *Coalition Bulletin*, Volume 43, July 2007

103 Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 21 noyabr 2003, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-44212.html

104 Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 11 sentyabr 2003, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-44199.html

xalqının böyük uğuru kimi qiymətləndiririk. Sizin gözəl Silahlı Qüvvələriniz və çox intizamlı əsgərləriniz vardır. Azərbaycan Silahlı Qüvvələri ilə fəxr edə bilərsiniz".[105]

2007-ci ilin mart ayında NATO-nun Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi cənab Robert Simmons Azərbaycan Respublikasına səfər etmişdir. Həmin ilin mart ayının 15-də o, Azərbaycan Respublikasının müdafiə naziri ilə görüşü zamanı Azərbaycan Silahlı Qüvvələri bölmələrinin Əfqanıstanda və Kosovoda NATO ilə çiyin-çiyinə beynəlxalq terrorizmlə qarşı mübarizə apardığına görə minnətdarlığını ifadə etmişdir.[106]

2008-ci ilin iyun ayında Amerika Birləşmiş Ştatlarının Mərkəzi Komandanlığında keçirilən görüşdə Koalisiya Qüvvələrinin komandanının müavini general Mkkarti Azərbaycan sülhməramlılarının fəaliyyəti barədə danışarkən onların xidmətinin hətta ABŞ dəniz piyadalarının xidmətindən daha yaxşı olduğunu qeyd etmişdir.[107]

2009-cu ilin mayın 21-də Azərbaycanda səfərdə olan ABŞ-nin Avropadakı Silahlı Qüvvələrinin komandanı general Con Kreddok (John Craddock) Azərbaycan Respublikasının müdafiə naziri ilə görüşüb. Görüş zamanı o, Azərbaycanın beynəlxalq təhlükəsizlik sisteminə verdiyi töhfələrdən, Kosovoda, İraqda və Əfqanıstanda Azərbaycan sülhməramlı hərbi kontingentinin yüksək xidməti fəaliyyətindən razılığını bildirmişdir.[108]

2014-cü ilin aprel ayının 19-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ABŞ Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinin sədri cənab Ed Roysun rəhbərlik etdiyi konqresmenlərdən ibarət nümayəndə heyətini qəbul etmişdir. Görüşdə konqresmenlər Əfqanıstanla bağlı uğurlu əməkdaşlığı yüksək qiymətləndirmişdir.[109]

2014-cü ilin mart ayının 19-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Əfqanıstan İslam Respublikasının keçmiş xarici işlər naziri cənab Zarar Əhməd Osmaninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə cənab Zarar Əhməd Osmani Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri üzrə əməliyyatlarda Azərbaycan Respublikası Sülhməramlı Qüvvələrinin töhfəsini xüsusilə vurğulamışdır.[110]

2014-cü ilin aprel ayında ABŞ-nin Azərbaycandakı keçmiş səfiri Riçard Morninqstar Bakıda keçirilən I Beynəlxalq Xəzər Enerji Forumu ərəfəsində jurnalistlərə Birləşmiş Ştatların Əfqanıstanın müharibədən sonrakı inkişafı üzrə öhdəliyi xüsusilə yüksək qiymətləndirdiyini ifadə etmişdir. Səfir bildirmişdir: "Biz hər bir addımı və Azərbaycanın Əfqanıstan məsələsində göstərdiyi hər cür yardımı yüksək qiymətləndiririk. Mən belə köməyə misal olaraq bu ölkədə xidmət edən azərbaycanlı hərbçiləri göstərə bilərəm. Eyni zamanda Azərbaycanın ərzaq və digər yüklərin nəqli baxımından oynadığı böyük tranzit rolunu qeyd etmək istəyirəm".[111]

---

105 Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 27 iyul 2006, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-43648.html

106 Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 15 mart 2007, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-43491.html

107 Azertag.az, *"Command of Coalition in Iraq Forces praise Azerbaijani peacekeepers"*, June 15 2008, Available at: https://azertag.az/en/xeber/command_of_coalition_in_iraq_forces_praise_azerbaijani_peacekeepers-575568

108 Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 21 may 2009, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-42542.html

109 Mod.gov.az, *"Azərbaycan Respublikasının müdafiə naziri ABŞ konqresmenlərindən ibarət nümayəndə heyətini qəbul edib"*, 19 aprel 2014, Elektron resurs: https://mod.gov.az/az/news/azerbaycan-respublikasinin-mudafie-naziri-abs-konqresmenlerinden-ibaret-numayende-heyetini-qebul-edib-11974.html

110 Mod.gov.az, *"Azərbaycan Respublikasının müdafiə naziri Əfqanıstan İslam Respublikasının Xarici İşlər nazirini qəbul edib"*, 19 mart 2014, Elektron resurs: https://mod.gov.az/az/news/azerbaycan-respublikasinin-mudafie-naziri-efqanistan-islam-respublikasinin-xarici-isler-nazirini-qebul-edib-15567.html

111 Riçard Morninqstar, «ABŞ Əfqanıstanın müharibədən sonrakı inkişafı üzrə Azərbaycanın üzərinə götürdüyü öhdəliyi yüksək qiymətləndirir», *News.milli.az*, 23 aprel 2014, Elektron resurs: https://news.milli.az/politics/262797.html

### *3. NATO-nun "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyası*

2010-cu ildə keçirilmiş Lissabon Sammitində NATO ilə Əfqanıstan arasında Davamlı Tərəfdaşlığa dair Bəyannamə qəbul edilmiş və ilkin fəaliyyətlər siyahısı 2011-ci ilin aprel ayında təsdiq edilmişdir. Bu xüsusda, əsas fəaliyyət istiqamətləri müdafiə və təhlükəsizlik sektorunda potensialın gücləndirilməsi, korrupsiya ilə mübarizə üçün şəffaflığın artırılması, peşəkar hərbi təhsil proqramları, mülki aviasiya sektorunun inkişafı, ali təhsil müəssisələrinin internetlə təmin olunması, mülki fövqəladə planlaşdırma və fövqəladə hallara hazırlıq üzrə təlim, eləcə də ictimai diplomatiya səylərinin dəstəklənməsindən ibarət olmuşdur.

2012-ci ildə keçirilən Çikaqo Sammitində Davamlı Tərəfdaşlığın genişləndirilməsinə dəstək ifadə olunmuşdur, eləcə də 2014-cü ildən sonra Əfqanıstanda NATO-nun rəhbərliyi altında qeyri-döyüş təlim, məsləhət və dəstək missiyasının təsis edilməsinə razılıq ifadə edən Əfqanıstan üzrə birgə Bəyannamə qəbul olundu.

Azərbaycan 6 noyabr 2012-ci il tarixində NATO-nun Əfqanıstandakı post-2014 missiyası üzrə potensial əməliyyat tərəfdaşı kimi tanınaraq, "Qətiyyətli Dəstək" adlandırılan yeni missiyanın planlaşdırılması prosesinə – Əməliyyat konsepsiyası və əməliyyat planı sənədinin hazırlanmasına cəlb edilmişdir.

2014-cü ildə Uels Sammitində qərara alınmışdır ki, 2015-ci ildən etibarən NATO-nun Əfqanıstana dəstəyi üç istiqaməti – "Qətiyyətli Dəstək" Missiyası, Əfqanıstan Milli Müdafiə və Təhlükəsizlik Qüvvələrinin maliyyə təminatı və Davamlı Tərəfdaşlığı əhatə etməlidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Çikaqo və Uels sammitlərində və NATO-nun Mənzil Qərargahına səfəri zamanı Azərbaycanın 2014-cü ildən sonra Əfqanıstana dəstəyinin davam edəcəyini bəyan etmişdir. Bu dəstəyin əsas elementlərini "Qətiyyətli Dəstək" missiyasına hərbi qüvvə töhfəsi, mülki təlim, tranzit və Əfqan Milli Təhlükəsizlik Qüvvələrinin maliyyə təminatı təşkil etmişdir.

Post-2014 "Qətiyyətli Dəstək" missiyası yeni əməliyyat planı əsasında fərqli mandata malik olmaqla, İSAF-dan on dəfə az sayda qüvvə (təxminən 13.000 nəfər) ilə həyata keçirilən qeyri-döyüş missiyası olmuşdur. Belə ki, iki əməliyyat arasında rəvan keçid təmin edilmişdir: NATO İSAF əməliyyatı ərzində yekunlaşmayan bir sıra əməliyyat vəzifələrini "Qətiyyətli Dəstək" missiyasına transfer etmiş və bu missiyanın komandanlıq strukturu İSAF komandanlıq strukturunun bazasında formalaşdırılmışdır. Eyni zamanda Azərbaycanın "Qətiyyətli Dəstək" missiyasına verdiyi töhfə qüvvələrin say tərkibi, dislokasiyası, icra etdiyi funksiyalar (qüvvə mühafizəsi) və tabe olduğu komandanlıq baxımından İSAF-da iştirakı ilə eyniyyət təşkil etmişdir. Həmçinin "Qətiyyətli Dəstək" üzrə qüvvələrin rotasiyası İSAF-ın davamı kimi (qüvvələr tam çıxarılmadan və yenidən yerləşdirilmə olmadan, əvvəlki növbəlilik prinsipi əsasında) həyata keçirilmişdir.

2011-ci ildə başladılan İSAF əməliyyatından keçid prosesi 2014-cü ilin dekabr ayında tamamlanmışdır. 2015-ci ilin yanvar ayının 1-dən etibarən "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasına başlanılmışdır. Sözügedən missiyanın məqsədi Əfqanıstanın Milli Müdafiə və Təhlükəsizlik Qüvvələrinə (ANDSF) və dövlət qurumlarına terrorizmlə mübarizədə və təhlükəsizliyin təmin edilməsində təlim, məsləhət və yardım göstərməkdən ibarət olmuşdur.

"Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında 2015-ci ilin may ayında 42 ölkədən 13 199 qüvvə iştirak etmişdir.[112] Lakin missiya müddətində töhfə verən ölkələrin və qüvvələrin sayı dəyişmişdir. 2019-cu ilin oktyabr ayında missiyaya 39 ölkə 17 178 şəxsi heyətlə töhfə

112 NATO, *"Resolute Support Mission (RSM): Key Facts and Figures"*, May 2015, Available at: https://www.nato.int/content/dam/nato/webready/documents/factsheets/rsm-placemat-pdfs/2015/20151007_2015-10-rsm-placemat.pdf

vermişdir.[113] 2021-ci ilin fevral ayında isə 36 ölkənin 9592 nəfər qüvvəsi missiya çərçivəsində fəaliyyətini davam etdirmişdir.[114]

Qüvvələr Əfqanıstanda NATO qüvvələrinin dislokasiya bazalarının mühafizəsi, həmçinin Əfqanıstan Milli Müdafiə və Təhlükəsizlik Qüvvələrinə əlavə təlim, məsləhət və yardım göstərmək üçün Mərkəz, Cənub, Şimal, Şərq, Qərb Bölgə Komandanlıqları və Şimal Beynəlxalq Hava Limanı Komandanlığı şəkilində formalaşdırılmışdır.

2015-ci ilin yanvar ayının 12-də NATO-nun Baş katibi və həmin ilin aprel ayının 9-da Azərbaycan Respublikasının müdafiə naziri tərəfindən NATO-nun Əfqanıstandakı "Qətiyyətli Dəstək" missiyasında Azərbaycan Respublikasının iştirakının təmin edilməsi haqqında məktublar mübadiləsi formasında Saziş imzalanmışdır.[115] 2015-ci ilin yanvar ayının 1-dən etibarən Azərbaycan sülhməramlıları Əfqanıstanda NATO-nun rəhbərliyi ilə həyata keçirilən "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında 6 aylıq rotasiya planına uyğun olaraq 94 nəfərlik kontingent ilə xidməti fəaliyyətə başlamışdır.[116]

İSAF-da iştirak etmiş Azərbaycan Ordusunun sülhməramlı kontingenti əməliyyat başa çatdıqdan sonra "Doğan" bazasından Kabil şəhərində yerləşən Həmid Kərzai adına Beynəlxalq Hava Limanının (HİKA) NATO qüvvələrinin dislokasiya olunmuş hissəsinə köçürülmüşdür. İlkin olaraq, 94 nəfərlə qısa hazırlıq təlimindən sonra hava limanının şimal və şərq hissələrini, eləcə də nəzarət-buraxılış məntəqələrini mühafizə etmək üçün İordaniya sülhməramlı taborundan təhvil almışdır. Sülhməramlı bölüyün şəxsi heyəti tərəfindən zəruri standart əməliyyat prosedurları öyrənilmiş və xidmət təşkil edilmişdir.

2015-ci il aprel ayının 18-də Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstanda "Qətiyyətli Dəstək" missiyası çərçivəsində Türk Silahlı Qüvvələri bölmələrinin tərkibində fəaliyyət göstərəcək Azərbaycan bölüyü ilə bağlı Protokol imzalanmışdır.[117] Protokol Azərbaycan sülhməramlı kontingentinin Türkiyə Silahlı Qüvvələrinin kontingentinin tərkibində fəaliyyətini tənzimləmişdir.

Azərbaycan "Qətiyyətli Dəstək" missiyasının Əfqanıstanın təhlükəsizliyi və davamlı inkişafı, o cümlədən regional və qlobal təhlükəsizlik üçün əhəmiyyətini bilərək 9 yanvar 2018-ci il tarixindən etibarən bu ölkədəki sülhməramlı kontingentinin sayını 30 faiz[118] (4 qərargah zabiti vəzifəsi olmaqla, 26 nəfər) artıraraq şəxsi heyətinin sayını 120-yə çatdırmışdır.[119] Həmin tarixdən etibarən, sülhməramlı kontingentin tərkibi 15 zabit, 6 gizir və 99 əsgərdən ibarət olmuşdur.

113 NATO, *"Resolute Support Mission (RSM): Key Facts and Figures"*, October 2019, Available at: https://www.nato.int/content/dam/nato/webready/documents/factsheets/rsm-placemat-pdfs/2019/20191022_2019-10-RSM-Placemat.pdf

114 Yenə orada

115 E-qanun.az, *"NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasında Azərbaycan Respublikasının iştirakının təmin edilməsi haqqında Azərbaycan Respublikasının müdafiə naziri ilə NATO-nun Baş katibi arasında məktublar mübadiləsi formasında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu"*, 30 sentyabr 2015-ci il, № 1309-IVQ, Elektron resurs: https://e-qanun.az/framework/31242

116 Mod.gov.az, **"***Beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak***"**, Elektron resurs: https://mod.gov.az/az/beynelxalq-sulhmeramli-emeliyyatlarda-istirak-027/

117 Eqanun.az, *"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstanda 'Qətiyyətli Dəstək' missiyası çərçivəsində Türk Silahlı Qüvvələrinin bölmələrinin tərkibində fəaliyyət göstərəcək Azərbaycan bölüyü ilə bağlı 2015ci il aprelin 18də Bakı şəhərində imzalanmış Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı"*, № 530, 22 may 2015, Elektron resurs: https://e-qanun.az/framework/30047

118 Mod.gov.az, *"Azərbaycan Respublikasının müdafiə naziri generalpolkovnik Zakir Həsənov: 'Azərbaycan ilə NATO arasında 25 illik dayanıqlı tərəfdaşlıq mövcuddur'"*, 3 may 2019, Elektron resurs: https://mod.gov.az/az/news/azerbaycan-respublikasinin-mudafie-naziri-general-polkovnik-zakir-hesenov-azerbaycan-ile-nato-arasinda-25-illik-day-26704.html

119 Mod.gov.az, *"Beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak"***,** Elektron resurs: https://mod.gov.az/az/mdb-cercivesinde-emekdasliq-027/

Azərbaycan Ordusunun sülhməramlı kontingenti Həmid Kərzai adına Kabil Beynəlxalq Hava Limanının mühafizəsi tapşırığını yerinə yetirib. Kabil Hava Limanı iki hissəyə bölünmüşdür: onun bir hissəsində hərbi qüvvələr, digərində isə mülki şəxslər fəaliyyət göstərirdi. Müvafiq olaraq, hava limanından həm mülki, həm də hərbi təyyarələr uçuşlar edirdi. Kabil Beynəlxalq Hava Limanı şəxsi heyətin və yüklərin daşınması baxımından mühüm strateji əhəmiyyətə malik idi. Azərbaycan sülhməramlılarının vəzifələri Kabil Beynəlxalq Hava Limanının NATO qüvvələrinin dislokasiya olunmuş hissəsinin mühafizəsindən, hava limanına daxil olan nəqliyyat vasitələrinin, şəxslərin və yüklərin yoxlanışından, təhlükəsizliyin təmin edilməsindən, eləcə də terrorçuların bazaya sızması halında axtarış əməliyyatlarının həyata keçirilməsindən ibarət olmuşdur. Hava limanında NATO və NATO-ya üzv olmayan dövlətlərin 5.000-dən[120] çox şəxsi heyəti fəaliyyət göstərirdi.

Zabitlər iki qərargahda fəaliyyət göstərmişdir: Şimal Beynəlxalq Hava Limanı Komandanlığında və Mərkəzi Bölgə Komandanlığında. Hər iki qərargahın Birləşmiş Döyüş İdarəetmə Mərkəzində xidmət edən zabitlər növbəli şəkildə gündəlik döyüş fəaliyyətlərini izləmiş və bölüklərin taktiki fəaliyyətlərinin digər bölmələr ilə qarşılıqlı əlaqəsini təşkil etmişlər. Hava limanının mühafizəsini təşkil edən Qüvvələrin Qorunması Taboru Azərbaycan, Türkiyə, Albaniya, Portuqaliya və Polşa sülhməramlılarından formalaşmışdır. Tabor komandiri Türkiyə Silahlı Qüvvələrindən, tabor komandirinin müavini isə Azərbaycan Ordusundan təyin olunmuşdur. Hərbi həkim heyəti hərbi hospitalda "Qətiyyətli Dəstək" əməliyyatlarına töhfə verən şəxsi heyətə, səfirlik əməkdaşlarına, digər beynəlxalq təşkilatların nümayəndələrinə və yerli əhaliyə tibbi xidmət göstərmişdir.

"Qətiyyətli Dəstək" missiyasında iştirak Azərbaycan sülhməramlılarından ayıq-sayıq və diqqətli olmalarını tələb edirdi. Kabil Hava Limanı strateji əhəmiyyət kəsb etdiyinə görə mütəmadi olaraq ora terrorçular tərəfindən hücumlar təşkil edilirdi. Bununla yanaşı, şəhərdə törədilən partlayışlarda hadisələrin müxtəlif ssenarilər üzrə cərəyan etməsi daim hazırlıqlı olmağı tələb edirdi.

Belə ki, Kabildə baş verən və insan tələfatı ilə nəticələnən hücumlar zamanı Azərbaycan sülhməramlıları, vəzifələrinə uyğun olaraq, yaralıların təxliyyəsinin təhlükəsizliyinin təmin edilməsində iştirak edirdi. Yaralılar hadisə yerindən Kabil hava limanına təxliyyə olunaraq nəzarət və buraxılış məntəqələrində təxliyəni xəstəxanaya qədər həyata keçirəcək tibbi təxliyyə qrupuna təhvil verilirdi. Tibbi təxliyyədə bəzən azərbaycanlı hərbi həkimlər də iştirak edirdi. Təxliyyə zamanı hava limanının qapılarına mümkün ola biləcək hücumların və təxribatların qarşısının alınması üçün Azərbaycan sülhməramlıları xidmət apardıqları nəzarət-buraxılış məntəqələrini gücləndirilmiş rejimə keçirirdilər. Gücləndirmədə Türkiyə sülhməramlı kontingentinin hərbi qulluqçularından ibarət Çevik Cavab Qüvvələrinin (Quick Response Force) dəstəyindən istifadə olunurdu.

2015-ci ilin dekabr ayında Kabil şəhərində yerləşən İspaniya səfirliyi terrorçuların hücumuna məruz qalmışdır.[121] Yaralıların bir hissəsi yaxınlıqda yerləşən Kabil Beynəlxalq Hava Limanındakı hospitala təxliyyə edilmişdir. Azərbaycan sülhməramlı kontingentinin həkimləri ağır vəziyyətdə olan yaralılara zəruri tibb yardım göstərərək onların həyatda qalmalarına müvəffəq olmuşdurlar.

Azərbaycan sülhməramlı kontingentinin həkimlərinin göstərdiyi peşəkarlıq barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi saytında yayılan məlumatda qeyd olunur: "Tibb xidməti kapitanı Abdullayev Şükür Rüstəm oğlu və tibb xidməti kapitanı Əkbərov Gündüz Famil oğlu 2015-ci il dekabrın 11-də İspaniya Krallığının Əfqanıstandakı səfirliyinə qarşı törədilmiş terror aktı zamanı xəsarət almış insanlara ixtisaslı tibbi yardımın göstərilməsində

120 Azertag.az, *"Azərbaycan beynəlxalq sülhməramlı əməliyyatlara mühüm töhfə verir"*, 17 noyabr 2017, Available at: https://azertag.az/xeber/azerbaycan_beynelxalq_sulhmeramli_emeliyyatlara_muhum_tohfe_verir-1112650.

121 BBC, *"Spanish embassy attack in Kabul: Special forces at scene"*, 11 December 2015, Available at: https://www.bbc.com/news/av/world-asia-35075184

peşəkarlıq nümayiş etdiriblər. İnsan tələfatı ilə nəticələnən terror aktı nəticəsində yaralıların bir qismi zabitlərimizin xidmət etdiyi tibb məntəqəsinə təxliyyə edilib. Hərbi həkimlərimiz ağır yaralılara operativ tibbi yardım göstərməklə yanaşı, uğurlu cərrahi əməliyyat edərək əfqan vətəndaşının həyatını xilas etməyə nail olublar. Hərbi qulluqçularımızın çətin və ağır vəziyyətdə göstərdikləri peşəkarlıq NATO-nun Əfqanıstandakı Türk Silahlı Qüvvələri komandanlığı tərəfindən də yüksək qiymətləndirilib. Hər iki zabitimizə Türk Tapşırıq Qüvvələri komandanı, diviziya generalı Cahit Bakırın imzası ilə də təşəkkür məktubu təqdim olunub."[122]

20 yanvar 2018-ci il tarixində Kabil şəhərinin mərkəzində yerləşən "Intercontinental" otelinə hücum olmuşdur. Hücum zamanı ən azı 40 nəfər öldürülmüşdür.[123]

Kabil Şimal Hava Limanının əməliyyat mərkəzində əlaqələndirici zabit vəzifəsində xidmət etmiş baş leytenant Mahir Məmmədov hadisə barədə yazdığı hesabatında qeyd edir: "Şəhərin mərkəzində yerləşən "Intercontinental" otelinə silahlı hücum haqqında məlumat daxil oldu. Əməliyyata, Əfqan xüsusi təyinantlı qüvvələri aparıcı qüvvə olmaqla, NATO xüsusi təyinatlı bölmələri də cəlb olunmuşdular. Əməliyyat 12 saat çəkdi. Bazanın hazırlıq vəziyyəti 1-ci dərəcəyə çatdırıldı. Qapılar gücləndirildi. Bazaya giriş-çıxış məhdudlaşdırıldı. Bazanın əsas tapşırığı yarana biləcək hər hansı bir hadisənin qarşısını almaq və yaralı hərbi qulluqçuların təhlükəsiz şəkildə bazaya girişini təmin etməkdən ibarət idi. Yaralı əfqan hərbi qulluqçularının bazaya təxliyyəsi təlimatlara uyğun qapılarda mübadilə formasında aparılmışdır, yəni, yaralılar qapılarda bazanın "Role-2" təxliyyə qrupuna təhvil verilirdi. Əməliyyat boyunca qapılarda xidmət aparan şəxsi heyət onlarla əfqan hərbi qulluqçusunun təxliyyə olunmasında, eyni zamanda bazanın mühafizəsində öz vəzifələrini nümunəvi şəkildə təşkil etmişdilər."[124]

Bunlar yalnız Azərbaycan sülhməramlılarının Əfqanıstanda xidmət zamanı gündəlik olaraq üzləşdiyi epizodlardan bir neçəsidir.

Yerli əhali ilə münasibətlərə gəldikdə isə qeyd edilməlidir ki, Azərbaycan sülhməramlıları Əfqanıstanda xidmət edərkən yerli əhali ilə ünsiyyətdə çətinliklərlə rastlaşmamışdılar. Azərbaycan sülhməramlı qüvvələrinin zabiti mayor Sübhan Şairov bu barədə danışarkən qeyd edir ki, ünsiyyətdə də hər hansı problem yaşanmır, çünki əfqan xalqı ilə Azərbaycan xalqı arasındakı tarixi bağlar çox sıxdır və insanlar eyni dinə etiqad edirlər[125].

2018-ci ildə ABŞ Prezidenti Donald Tramp Administrasiyası tərəfindən Əfqanıstandakı təhlükəsizlik vəziyyətinin tənzimlənməsi ilə bağlı Talibanla aktivləşən danışıqlar iki ildən sonra nəticə vermişdir. 2020-ci ilin fevral ayında Qətərin Doha şəhərində ABŞ və Taliban arasında razılaşma əldə edilmişdir. Razılaşmaya əsasən, Taliban Əfqanıstan torpağından ABŞ və onun müttəfiqlərinə qarşı istifadə edilməsinə icazə verməyəcək, ABŞ öz qüvvələrinin sayını 135 gün ərzində 8,600-dək azaldacaq, ABŞ və NATO qüvvələri Əfqanıstandan 14 ay ərzində çıxarılacaq və 10 mart 2020-ci il tarixindən etibarən Əfqanıstan daxilində hərtərəfli və dayanıqlı sülhün əldə olunması üçün danışıqlar başlanacaqdır.[126]

---

122 Mod.gov.az, *"Əfqanıstandakı sülhməramlılarımızın iki zabiti müdafiə nazirinin əmrinə əsasən mükafatlandırılıb"*, 7 yanvar 2016, Elektron resurs: https://mod.gov.az/az/news/efqanistandaki-sulhmeramlilarimizin-iki-zabiti-mudafie-nazirinin-emrine-esasen-mukafatlandirilib-12622.html.

123 The Telegraph, *"Kabul hotel attack death toll almost doubles"*, January 25 2018, Available at: https://www.telegraph.co.uk/news/2018/01/25/kabul-hotel-attack-death-toll-almost-doubles/

124 Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi, "Raport", 09 oktyabr 2025-ci il, 55 (2025-ci il) nömrəli iş, səh. 103-119

125 Azertag.az, *"Azərbaycan beynəlxalq sülhməramlı əməliyyatlara mühüm töhfə verir,"* 17 noyabr 2017, Available at: https://azertag.az/xeber/azerbaycan_beynelxalq_sulhmeramli_emeliyyatlara_muhum_tohfe_verir-1112650

126 Govinfo.gov, *"Comprehensive Peace Agreement: Agreement for Bringing Peace to Afghanistan Between the Islamic Emirate of Afghanistan Which Is Not Recognized by the United States as a State and Is Known as the Taliban and the United States of America"*, 29 February 2020, Available at: https://www.govinfo.gov/app/details/GOVPUB-S-PURL-gpo132866

14 aprel 2021-ci il tarixində NATO-nun müdafiə və xarici işlər nazirləri "Qətiyyətli Dəstək" missiyasında iştirak edən qüvvələrin həmin ilin may ayının 1-dən bir neçə ay ərzində Əfqanıstandan çıxarılması barədə qərar qəbul etdilər.[127] 14 iyun 2021-ci il tarixində keçirilmiş Brüssel Sammitində müttəfiqlər dövlət və hökumət başçıları səviyyəsində bir daha öz qərarlarını təsdiq etdilər. [128]

2021-ci il avqust ayının 15-də Əfqanıstan Respublikasında hakimiyyət dəyişikliyi baş verdi. Bu hadisədən sonra Əfqanıstandan kütləvi təxliyyə başlandı. Azərbaycan sülhməramlıları, BMT və digər beynəlxalq təşkilatların əməkdaşları da daxil olmaqla, yüzlərlə insanın Kabil Beynəlxalq Hava Limanından təhlükəsiz şəkildə çıxarılmasını təmin etdilər. Onların içərisində 100-ə yaxın Fransa vətəndaşı da var idi.[129] Azərbaycan sülhməramlıları Türkiyə sülhməramlıları ilə birlikdə əhalini tam təhlükəsiz şəkildə ölkədən təxliyyə etdilər. Təxliyyə zamanı təxliyyə olunan şəxslər yemək və su ilə də təmin olunmuşdu.[130]

2021-ci ilin avqust ayı ərzində koalisiya qüvvələri tərəfindən 120 mindən çox insan Kabil Beynəlxalq Hava Limanından həyata keçirilmiş yüzlərlə təyyarə uçuşları vasitəsilə təxliyyə edilmişdi.[131] Bu, NATO tarixində ən böyük təxliyyə əməliyyatı hesab olunur.[132]

"Qətiyyətli Dəstək" qeyri-döyüş missiyası müddətində ABŞ və koalisiya qüvvələri 3.500-dən çox itki vermişdir.[133] Missiyanın sona çatması ilə əlaqədar, Azərbaycan Ordusunun sülhməramlı qüvvələri 27 avqust 2021-ci il tarixində ölkəyə geri qayıdıblar.

*Azərbaycan Ordusunun sülhməramlı kontingentinin "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasına verdiyi əsas töhfələr aşağıdakılardır:*

- "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasına töhfə verən ölkələrin Kabil Beynəlxalq Hava Limanında yerləşən mülki və hərbi heyətinin mühafizəsini təmin etmişdir;
- Kabil Beynəlxalq Hava Limanının şimal terminalından daxil olan nəqliyyat vasitələrinin, şəxslərin və yüklərin yoxlanılmasını həyata keçirmişdir;
- Əfqanıstan Milli Müdafiə və Təhlükəsizlik Qüvvələri üçün hava limanına gətirilən hərbi yardımların ABŞ Hərbi Hava Qüvvələrinin nümayəndələri ilə əlaqələndirilmiş şəkildə təhlükəsiz daşınmasını təmin etmişdir.

19 aprel 2014-cü il tarixində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ABŞ Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinin sədri cənab Ed Roysun rəhbərlik etdiyi konqresmenlərdən ibarət nümayəndə heyətini qəbul etmişdir. Görüş zamanı konqresmenlər Əfqanıstanla bağlı uğurlu əməkdaşlığı yüksək qiymətləndirmişdir.[134]

127 NATO, *"NATO and Afghanistan"*, Official Website, Available at: https://www.nato.int/cps/en/natohq/topics_8189.htm.

128 Yenə orada

129 News.milli.az, *"Azərbaycanın beynəlxalq sülhə və təhlükəsizliyə növbəti töhfəsi"*, 27 avqust 2021, Available at: https://news.milli.az/politics/975418.html

130 News.milli.az, *"Əfqanıstanda Türkiyə hərbçiləri ilə birlikdə son günə qədər təhlükəsizliyi təmin etdik – Sülməramlı"*, 27 avqust 2021, Available at: https://news.milli.az/politics/975411.html

131 NATO, "NATO and Afghanistan," 31 August 2022, Available at: https://www.nato.int/cps/en/natohq/topics_8189.htm

132 Yenə orada

133 Associated Press, *"US and Taliban sign deal aimed at ending war in Afghanistan"*, 29 February 2020, Available at: https://apnews.com/general-news-491544713df4879f399d0ff5523d369e

134 Mod.gov.az, *"Azərbaycan Respublikasının müdafiə naziri ABŞ konqresmenlərindən ibarət nümayəndə heyətini qəbul edib"*, 19 aprel 2014, Elektron resurs: https://mod.gov.az/az/news/azerbaycan-respublikasinin-mudafie-naziri-abs-konqresmenlerinden-ibaret-numayende-heyetini-qebul-edib-11974.html

2016-cı ilin mart ayının 9-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO-nun Müttəfiq Transformasiya Komandanının müavini general Mirko Zulianinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Görüşdə general M. Zuliani Əfqanıstandakı əməliyyatlar çərçivəsində Azərbaycan sülhməramlılarının beynəlxalq təhlükəsizliyə verdiyi töhfəyə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirmişdir.[135]

2016-cı ilin may ayının 21-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanda səfərdə olan Avropa Parlamentinin müdafiə və təhlükəsizlik alt komitəsinin sədri, Polşanın sabiq xarici işlər naziri Anna Fotiqa ilə görüşmüşdür. Görüşdə xanım Anna Fotiqa sülhməramlı əməliyyatlara verdiyi töhfəyə, həmçinin Əfqanıstandakı missiyanın peşəkar səviyyədə icra olunmasına görə Azərbaycana dərin minnətdarlığını ifadə etmişdir.[136]

2016-cı ilin dekabr ayında Azərbaycan Respublikasına səfər edən ABŞ-nin nəqliyyat komandanı general Darren Makdyu Bakıda keçirdiyi brifinqdə Azərbaycan sülhməramlılarının Əfqanıstandakı xidmətini yüksək qiymətləndirərək bildirmişdir: "Əfqanıstana səfərim çərçivəsində bu ölkədəki sülhməramlı əməliyyatların rəhbəri ilə görüşüm zamanı o, mənə Azərbaycanın bu əməliyyatlarda müstəsna rol oynadığını dedi. O, məndən xahiş etdi ki, Əfqanıstanda sülhyaratma əməliyyatlarına verdiyi töhfələrə görə Azərbaycanın rəhbərliyinə minnətdarlıq edim. Düşünürəm ki, məhz Azərbaycanın bu rolu sayəsində həm regionda, həm də dünyanın müxtəlif dövlətlərində təhlükəsizlik və sabitlik qorunacaq".[137]

BMT-nin sülhməramlı əməliyyatları mövzusunda müdafiə nazirlərinin London şəhərində keçirilən tədbiri çərçivəsində müdafiə naziri general-polkovnik Zakir Həsənov 2016-cı il sentyabr ayının 8-də Lordlar Palatasında Müdafiə üzrə Dövlət naziri, Lordlar Palatasının sədr müavini cənab Örl Hou ilə görüşmüşdür. Görüş zamanı Azərbaycanın indiyədək sülhməramlı əməliyyatlarda, eləcə də Əfqanıstanda həyata keçirilən missiyada iştirakı yüksək qiymətləndirilmişdir.[138] Həmin tədbir çərçivəsində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Böyük Britaniyanın müdafiə naziri Maykl Fallon arasında keçirilmiş görüşdə də Azərbaycanın sülhməramlı əməliyyatlarda iştirakı xüsusilə qeyd olunmuşdur.[139]

2017-ci ildə Həmid Kərzai adına Kabil Beynəlxalq Hava Limanının qarnizon komandanı briqada generalı Murat Səlçuk Çol tərəfindən tərəfindən Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlıq məktubu ünvanlanmışdır. Məktubda o, Azərbaycan sülhməramlılarının nümayiş etdirdiyi nümunəvi xidmətin səviyyəsindən məmnunluq duyduğunu, göstərdikləri səylər nəticəsində Azərbaycan hərbçilərinin təhlükəsizliyin təmin olunmasına, eləcə də qüvvələrin mühafizəsi qrupunun uğur qazanmasına böyük töhfə verdiyini qeyd etmişdir.[140]

135 Mod.gov.az, *"Müdafiə naziri NATOnun Müttəfiq Transformasiya Komandanının müavini ilə görüşüb"*, 9 mart 2016, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-naziri-nato-nun-muttefiq-transformasiya-komandaninin-muavini-ile-gorusub-12692.html

136 Mod.gov.az, *"Müdafiə naziri Avropa Parlamentinin müdafiə və təhlükəsizlik alt komitəsinin sədri ilə görüşüb"*, 21 may 2016, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-naziri-avropa-parlamentinin-mudafie-ve-tehlukesizlik-alt-komitesinin-sedri-ile-gorusub-13058.html

137 *Azərbaycan Ordusu qəzeti*, №3 (2120), 14 yanvar 2017

138 Mod.gov.az, *"Azərbaycanın sülhməramlı əməliyyatlarda fəaliyyəti yüksək qiymətləndirilib"*, 8 sentyabr 2016, Elektron resurs: https://mod.gov.az/az/news/azerbaycanin-sulhmeramli-emeliyyatlarda-fealiyyeti-yuksek-qiymetlendirilib-13527.html

139 *Azərbaycan Ordusu qəzeti*, №70 (2085), 10 sentyabr 2016

140 Mod.gov.az, *"Azərbaycanın sülhməramlı əməliyyatlarda fəaliyyəti yüksək qiymətləndirilib"*, 8 sentyabr 2016, Elektron resurs: https://mod.gov.az/az/news/azerbaycanin-sulhmeramli-emeliyyatlarda-fealiyyeti-yuksek-qiymetlendirilib-13527.html

2017-ci ilin iyun ayında Azərbaycan Respublikasına səfər edən NATO-nun Quru Qoşunları Komandanlığının qərargah rəisi diviziya generalı Erhan Uzun Azərbaycan sülhməramlıları ilə görüşmüşdür. Görüşdə beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olunmasında Azərbaycanın səylərini xüsusilə qeyd edən diviziya generalı E. Uzun Azərbaycanın NATO ilə əməkdaşlığını, beynəlxalq sülhməramlı əməliyyatlara verdiyi töhfəni və sülhməramlı əməliyyatlarda azərbaycanlı hərbçilərin peşəkarlığını yüksək qiymətləndirmişdir.[141]

2017-ci ildə NATO-nun Baş katibi lord Corc Robertson Azərbaycan Respublikasının müdafiə naziri ilə görüşü zamanı Azərbaycan sülhməramlı kontingentinin roluna görə təşəkkür etmiş, "Kosovodakı 40 mindən çox sülhməramlı hərbçi içərisində Azərbaycan kontingentinin xüsusi bir mövqeyinin olduğunu" vurğulamışdır.[142]

ABŞ Dövlət katibinin köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olson regiona səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla görüşü zamanı Azərbaycanın NATO-nun sülhməramlı missiyası çərçivəsində Əfqanıstanda təhlükəsizliyin təmin edilməsinə verdiyi dəstəyi yüksək qiymətləndirmiş və bu xüsusda təşəkkürünü ifadə etmişdir.[143]

2017-ci ilin sentyabr ayının 7-də NATO Hərbi Komitəsinin sədri general Petr Pavel Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu xüsusi qeyd edərək Azərbaycanın terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yükdaşımalara önəmli töhfə verdiyini, Azərbaycan sülhməramlılarının Əfqanıstanda keçirilən əməliyyatlarda göstərdikləri peşəkarlığı yüksək qiymətləndirmişdi.

2017-ci ilin sentyabr ayının 26-da Azərbaycanda səfərdə olan NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay Azərbaycanın bu təşkilatla etibarlı tərəfdaşlıq etdiyini və Əfqanıstandakı sülhməramlı missiyaya verdiyi böyük töhfəsini vurğulayaraq təmsil etdiyi təşkilat adından Azərbaycana minnətdarlığını bildirmişdir.[144]

2019-cu ilin iyul ayında NATO-nun Xüsusi Əməliyyatlar Qərargahının komandanı vitse-admiral Kolin Ceyms Kilreyn rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycan Respublikasına səfər etmişdir. Həmin ilin iyul ayının 3-də vitse-admiral Kolin Kilreyn Müdafiə Nazirliyinin nümayəndələri ilə keçirdiyi görüşdə Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu xüsusilə qeyd edərək, Azərbaycanın Əfqanıstanda həyata keçirilmiş sülhməramlı əməliyyatlara verdiyi töhfəni yüksək dəyərləndirmişdir.[145]

2025-ci ilin may ayının 29-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Deynsi qəbul etmişdir. Görüşdə Əfqanıstanda Amerika Birləşmiş Ştatları və Azərbaycan

141 Mod.gov.az, *"NATO nümayəndəsi Azərbaycan sülhməramlıları ilə görüşüb"*, 1 iyun 2017, Elektron resurs: https://mod.gov.az/az/news/nato-numayendesi-azerbaycan-sulhmeramlilari-ile-gorusub-18765.html

142 Ədalət Verdiyev, "Ən qaynar nöqtələrdə: Azərbaycan sülhməramlı qüvvələri", *Ordu.az*, 16 dekabr 2017, Elektron resurs: https://ordu.az/az/news/124180/en-qaynar-noqtelerde--azerbaycan-sulhmeramli-quvveleri-%E2%80%93-herbi-ekspert

143 Azertag.az, *"Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin inkişaf perspektivləri müzakirə olunub"*, 6 noyabr 2021, Available at: https://azertag.az/xeber/azerbaycan_abs_ikiterefli_munasibetlerinin_inkisaf_perspektivleri_muzakire_olunub-1919544

144 News.milli.az, *"NATO Azərbaycan kimi etibarlı tərəfdaşla əməkdaşlıqda israrlıdır"*, 24 noyabr 2017, Elektron resurs: https://news.milli.az/politics/601936.html

145 News.milli.az, *"NATO-nun Xüsusi Əməliyyatlar Qərargahının komandanı Bakıya gəlib"*, 3 iyul 2019, Elektron resurs: https://news.milli.az/politics/768026.html

əsgərlərinin çiyin-çiyinə xidmət etdiyini, Kabil Beynəlxalq Hava Limanının təhlükəsizliyinə cavabdeh olan Azərbaycan sülhməramlı qüvvələrinin Əfqanıstanı tərk edən ən sonuncu hərbi kontingent olduğunu xatırladan Stiv Deyns oradan mülki və hərbi şəxslərin təxliyyəsində azərbaycanlı hərbçilərin mühüm rol oynadıqlarını vurğulamış və buna görə də ayrıca minnətdarlığını bildirmişdir.[146]

Qeyd edilməlidir ki, bu günə qədər Azərbaycan Ordusunun 3 zabiti NATO-nun ən mötəbər medalı hesab olunan "NATO-nun Ləyaqətli Xidmət Medalı" ilə NATO-nun Baş katibi tərəfindən təltif olunmuşdur. Onlardan ikisi bu medala Əfqanıstanda keçirilən sülhməramlı əməliyyatlarda göstərdikləri müstəsna xidmələrə görə layiq görülmüşdür.[147]

Bu zabitlərdən biri 21 yanvar 2020-ci ildən 12 avqust 2020-ci ilədək Əfqanıstanda "Qətiyyətli Dəstək" missiyasında iştirak etmiş və Həmid Kərzai Beynəlxalq Hava Limanında "NKIA" Qüvvə Mühafizəsi Qrupu taborunun komandir müavini və komandiri vəzifələrini icra etmiş, sonradan isə 44 günlük Vətən müharibəsində şəhid olmuş mayor Rəhim Hüseynovdur.

Əfqanıstandakı "Qətiyyətli Dəstək" missiyasının və Amerika Birləşmiş Ştatları Qüvvələrinin (ABŞ Quru Qoşunları) komandiri general Austin Skott Miller onun təltif olunması ilə bağlı təqdimatında ləyaqətli xidmətini qiymətləndirərkən qeyd etmişdir ki, mayor Hüseynov hava limanına hücum təhdidləri və koronavirus epidemiyasının yaratdığı çətinliklər kimi amillərin formalaşdırdığı son dərəcə ağır bir şəraitdə xidmət etmişdir. O, göstərdiyi böyük səylər nəticəsində hava limanının giriş qapılarının təhlükəsizliyinin təmin edilməsinə töhfə vermişdir. Onun rəhbərliyi ilə vaxt itkisinə yol vermədən təcili tibbi müdaxilə üçün on nəfərdən çox ağır yaralı koalisiya heyətinin hava limanının "Role-2" hospitalına ötürülməsi, epidemiya dövründə tələb olunan 250-dən çox yerli nümayəndənin tibbi və təhlükəsizlik yoxlanılması kimi fəaliyyətlər NKIA tərəfindən uğurla həyata keçirilmişdir. Bu fəaliyyətlər NKIA-nın əməliyyatlar üçün tələb olunan fəaliyyətinin yüksək səviyyədə saxlanılması və əməliyyat teatrının əsas "Enmə/Yükboşaltma Aedromu"nun daimi fəaliyyətinin təmini üçün zəruri idi.[148]

Azərbaycan Ordusunun "NATO-nun Ləyaqətli Xidmət Medalı" ilə təltif olunmuş digər zabiti isə 2013-cü ildə İSAF missiyasında iştirak etmiş, hazırda hərbi rütbəsi polkovnik olan Teyfur Rüstəmovdur. Əfqanıstan Beynəlxalq Təhükəsizlik Qüvvələrinin qərargah rəisi vəzifəsində xidmət etmiş general-leytenant Giorgio Battisti (İtaliya Quru Qoşunları) onun medala təqdimatında yazmışdır ki, Kabil şəhərində yerləşən "Doğan" düşərgəsinin Qüvvə Mühafizəsi komandiri vəzifəsində xidmət etmiş mayor Teyfur Rüstəmov "Poliçarki" sursat anbarının təhlükəsizliyini təmin etmiş və çoxmillətli fəaliyyətin uğuru üçün yüksək səviyyədə töhfə vermişdir. O, Əfqanıstanda terrorçuların təcavüzünə qarşı keçirilən hərbi əməliyyatlara dəstək zamanı müstəsna ləyaqətli xidməti ilə fərqlənmişdir. O, çox çətin vəziyyətlərlə üzləşmiş, davamlı olaraq yüksək nəticələr əldə etmiş, səy və qətiyyəti sayəsində ona verilən bütün tapşırıqları sürətli və effektiv icra etmişdir.[149]

146 President.az, *"İlham Əliyev ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvünü qəbul edib"*, 29 may 2025, Elektron resurs: https://president.az/az/articles/view/69012

147 Mission of the Republic of Azerbaijan to NATO, *"Partnership Staff Post"*, Available at: https://nato-pfp.mfa.gov.az/en/category/partnership-staff-post

148 Mod.gov.az, *"Tabor komandirinin layiq görüldüyü 'NATO-nun Ləyaqətli Xidmət Medalı' şəhidin ailəsinə təqdim edilib"*, 20 fevral 2021, Elektron resurs: https://mod.gov.az/az/news/tabor-komandirinin-layiq-goruldyu-nato-nun-leyaqetli-xidmet-medali-sehidin-ailesine-teqdim-edilib-video-34950.html

149 Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi, *"NATO-nun Brüsseldəki Qərargah-mənzilinin Hərbi Komitəsi yanında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndəsi – Azərbaycan Respublikasının NATO-dakı missiyasının hərbi məsələlər üzrə müşavirinin 16 nömrəli 04 aprel 2021-ci il tarixli raportu"*, 35/1 (2021-ci il) nömrəli iş, səh. 181–182

### *4. Beynəlxalq koalisiya qüvvələrinin tərkibində İraqda sülhməramlı əməliyyat*

Beynəlxalq koalisiya qüvvələrinin İraqda sülhməramlı əməliyyatı 20 mart 2002-ci il tarixində BMT TŞ-nin 1441 saylı qətnaməsi əsasında başlamışdır.

Beynəlxalq koalisiya qüvvələrinin İraqdakı sülhməramlı əməliyyatında 2003-2009-cu illərdə ümumilikdə 37 ölkədən 150.000 nəfər şəxsi heyət iştirak etmişdir[150]. Koalisiya Qüvvələri İraqda terrorçu təşkilatları zərərsizləşdirmək və ölkədə sülhü bərqərar etmək üçün Mərkəz, Cənub, Şimal, Şərq, Qərb, Cənub-Şərq, Şimal-Qərb və Şimal-Şərq Çoxmillətli Tapşırıq Qüvvəsi şəklində formalaşdırılmışdır.

7 may 2003-cü il tarixində Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələri kontingentinin beynəlxalq koalisiya qüvvələrinin tərkibində İraqda sülhməramlı əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Qərar qəbul etmişdir.[151]

2003-cü ilin may ayında NATO-nun Baş katibi sabiq Corc Robertson Cənubi Qafqaz regionuna səfər etmişdir. Həmin ilin may ayının 15-də onun Azərbaycana səfəri çərçivəsində keçirdiyi görüşlərdə bir sıra məsələlərlə yanaşı, Azərbaycanın İraqda keçirilən sülhməramlı əməliyyatda iştirakının mümkünlüyü də müzakirə edilmişdir.[152]

2003-cü il iyun ayının 3-də İraqda koalisiya qüvvələrinin keçirdiyi əməliyyatda iştirak etmək məqsədilə Azərbaycan və İraq arasında "Azərbaycan Silahlı Qüvvələrinin İraqda statusuna dair" saziş imzalanmışdır.[153] Bununla yanaşı, Azərbaycan sülhməramlı kontingenti İraqa Küveyt ərazisindən gedəcəyinə görə həmin tarixdə Azərbaycan Respublikasının Hökuməti və Küveyt Dövlətinin Hökuməti arasında da "Azərbaycan Qüvvələrinin Küveytdə statusuna dair" Saziş imzalanmışdır.[154]

Azərbaycan Ordusunun bir bölükdən ibarət sülhməramlı kontingenti 15 avqust 2003-cü il tarixindən 7 dekabr 2008-ci il tarixinədək 151 nəfərlik şəxsi heyətlə (15 zabit, 16 gizir, 120 əsgər) İraqda Beynəlxalq Koalisiya Qüvvələrinin tərkibində xidmət etmişdir. Şəxsi heyət altı aydan bir rotasiya qaydasında dəyişdirilmişdir. İraqda 11 dəfə rotasiya edilməklə, 1000-dən çox Azərbaycan sülhməramlısı xidmət keçmişdir.[155]

BMT TŞ-nin 2007-ci il 18 dekabr tarixli, 1790 nömrəli Qətnaməsinə uyğun olaraq, İraqda yerləşən Çoxmillətli Qüvvələrin mandatının səlahiyyət müddətinin başa çatması ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Silahlı Qüvvələri kontingentinin İraqdan geri çağırılması haqqında 14 noyabr 2008-ci il tarixli 714-IIIQR nömrəli Qərar qəbul etmişdir. Koalisiya Qüvvələrinin İraqdan çıxması ilə əlaqədar 2008-ci il dekabr ayının 7-də sülhməramlı bölük tam heyətlə İraqdan Azərbaycana geri qayıtmışdır.[156]

---

150 Stephen A. Carney, "*Allied Participation in Operation Iraqi Freedom*", CMH Pub 59–3–1, First Printing, Washington D.C., Center of Military History, United States Army, 2011, Available at: https://history.army.mil/portals/143/Images/Publications/catalog/59-3-1.pdf

151 E-qanun.az, "Azərbaycan Respublikası Silahlı Qüvvələri kontingentinin beynəlxalq koalisiya qüvvələri tərkibində İraqda sülhməramlı əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarı, , № 432-IIQR, 7 may 2003, Elektron resurs: https://e-qanun.az/framework/14811

152 Qasımlı, Musa. *Azərbaycan Respublikasının diplomatiya tarixi/Azərbaycan Respublikasının xarici siyasəti (1991–2003): 2 hissədə, II hissə*, Bakı: Mütərcim, 2015.

153 Yenə orada

154 Azərbaycan Respublikasının Küveyt Dövlətindəki səfirliyi, "*İkitərəfli münasibətlər*", Elektron resurs: https://kuwait.mfa.gov.az/az/category/ikiterefli-munasibetler-haqqinda

155 Gunnery Sgt. Jason Bortz**,** "*Small country, big mission; Azerbaijanis complete tour in Iraq*", United States Marines Corps, 3 December 2008, Available at: https://www.1stmardiv.marines.mil/News/Article/Article/541823/small-country-big-mission-azerbaijanis-complete-tour-in-iraq/

156 E-qanun.az, *"Azərbaycan Respublikası Silahlı Qüvvələri kontingentinin İraqdan geri çağırılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı", № 714-IIIQR,14 noyabr 2008*, Elektron resurs: https://e-qanun.az/framework/15650

Azərbaycan Ordusunun sülhməramlı bölüyü İraq Çoxmillətli Qüvvələrinin Qərb Çoxmillətli Qüvvəsinin tərkibində əvvəlcə Ramadi, daha sonra isə Əl-Ənbar vilayəti yaxınlığında xidmət aparmışdır. Sülhməramlı bölüyün əsas tapşırıqları strateji obyektlərin mühafizəsi, post-patrul xidməti, koalisiya qüvvələrinin dislokasiya bazasının mühafizəsi, bazaya daxil olan nəqliyyat vasitələrinin, yerli şəxslərin və daşınan əmlakların yoxlanılması olmuşdur.

Sülhməramlı bölük ilkin olaraq Ramadi şəhərində koalisiya qüvvələrinin dislokasiya bazasının mühafizəsini təşkil etmişdir. Sonradan İraqdakı ABŞ qüvvələri komandanının qərarı ilə Əl-Ənbar vilayətinin yaxınlığında yerləşən ABŞ Dəniz Piyadalarının sərəncamına verilmişdir. Azərbaycan Ordusunun sülhməramlı bölüyü cavabdehlik ərazisində yerləşən  Əl-Ənbar vilayəti ərazisində post-patrul xidmətini, eləcə də Bağdad şəhərinin Həditə su elektrik stansiyasının mühafizəsini həyata keçirmişdir.

İraqda xidmət keçmiş Azərbaycan Ordusunun zabiti Teyfur Rüstəmov "Azərbaycan" qəzetinə verdiyi müsahibəsində bildirmişdir: "Müəyyənləşdirilən cavabdehlik ərazilərinə görə Azərbaycan sülhməramlıları obyektin cənub hissəsinin mühafizəsini həyata keçirir. ABŞ Dəniz Piyadaları taborunun kazarması da sülhməramlılarımızın cavabdehlik ərazisinə daxil olmuşdur. Burada 12 əsas və köməkçi postlar yaradılmış, postlarda şərait yüksək standartlara uyğun təşkil olunmuş, şəxsi heyət zirehli gödəkcə, gecəgörmə cihazları, ballistik eynəklər, tibbi və digər zəruri ləvazimatlarla təchiz edilmişdir."[157]

Təhlükəsizlik tədbirlərinin görülməsi İraqın infrastrukturunun üsyançıların daim hədəfində olması zərurətindən irəli gəlirdi. Həditə SES İraqın elektrik enerjisinə olan ehtiyacının 25%-ni təmin etdiyi üçün strateji baxımdan çox əhəmiyyətli idi. 57 metr hündürlüyündə və 8700 metr uzunluğunda[158] olan Həditə su elektrik stansiyası Fərat çayının üzərində yerləşən ən böyük stansiyadır  və o, Bağdad şəhərini elektrik enerjisi ilə təmin edən əsas mənbələrdən, eləcə də Əl-Ənbar vilayətinin iqtisadi inkişafına töhfə verən elementlərdən biridir. Su elektrik stansiyasının partladılması enerji və su təchizatında böyük problemlər yarada bilərdi.

Hərbi cəhətdən isə su anbarının partladılması koalisiya qüvvələrinin hərəkətində problem yaradaraq onların hərbi əməliyyatlarda üsyançılar üzərində əldə etdikləri üstünlüyə mənfi təsir edəcəkdi. Həditə SES-nin yanından avtomobil və dəmir yolları keçirdi və koalisiya qüvvələri bu yollardan hərbi fəaliyyətlərin həyata keçirilməsi zamanı geniş istifadə edirdilər. Bu səbəbdən də, koalisiya qüvvələrinin komandanları Həditə su anbarının üsyançılar tərəfindən hücuma məruz qalaraq partladılmasından narahat idilər. Su anbarının partladılması nəticəsində yaranacaq su daşqını koalisiya qüvvələrinin hərəkətini mümkünsüz edəcəkdi.[159]

Tarix boyu hərbi əməliyyatların aparılmasında qüvvələrin çatışmazlığı kimi problemlər komandanların həll etməli olduqları vacib məsələlər sırasında olmuşdur. Həditə SES kimi həyati əhəmiyyət kəsb edən infrastrukturun üsyançılardan qorunması üçün əməliyyat səhnəsindən əlavə qüvvələrin ayrılaraq burada yerləşdirilməsi tələb olunurdu. Bununla yanaşı, İraqda əməliyyatda iştirak edən ölkələr eyni zamanda qüvvələrini Əfqanıstanda keçirilən "Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri" əməliyyatına da göndərdiklərinə görə İraqda keçirilən əməliyyata əlavə qüvvələr ayıra bilmirdilər. "RAND" korporasiyasının ekspertləri ABŞ Hərbi Hava Qüvvələri üçün hazırladıqları "İraq azadlıq əməliyyatı" adlı monoqrafiyada Kosovoda keçirilən əməliyyata ayrılmış qüvvələrin sayını əsas götürərək belə qənaətə gəlirlər ki, İraqda əsas

157 *Azərbaycan qəzeti*, "Sülhməramlı missiya", 31 may 2009

158 Yasameen Hameed, Redvan Ghasemlounia, Thamer Ahmed Mohammed, Abdulwahab Al-Ansi, "Emergency action plan for Haditha dam failure scenario, Al-Anbar, Iraq", *Future Technology*, Vol. 4 (2), May 2025, pp. 1-10, Available at: https://fupubco.com/futech/article/view/254/159

159 Walter L. Perry, Richard E. Darilek, Laurinda L. Rohn, Jerry M. Sollinger, "Operation Iraqi Freedom: Decisive War, Elusive Peace", *Rand Corporation*, p. 208, Available at: https://www.rand.org/content/dam/rand/pubs/research_reports/RR1200/RR1214/RAND_RR1214.pdf

hərbi əməliyyatlar başa çatdıqdan sonra müharibədən dərhal sonrakı dövrdə təhlükəsizliklə bağlı məsələlərin tənzimlənməsi üçün 526.000 qüvvə tələb olunur.[160] Həmin monoqrafiyada qeyd olunur ki, ABŞ Ordusunun qərargah rəisi general Erik Şinseki (Eric Shinseki), özünün Balkanlardakı təcrübəsinə və ordu üçün dərc edilmiş araşdırmalara əsasən, əsas döyüş əməliyyatlarından sonra təhlükəsizliyin təmin edilməsi üçün təxminən 400.000 qüvvənin tələb olunduğu qənaətindədir.[161]

Şəxsi heyətin sayının azlığı şəraitində qüvvələrin bir ərazidən götürülərək digər bir əraziyə dislokasiya edilməsi əməliyyatların gedişatına təsir edə bilərdi. İraqın əsas infrastruktur komponentlərindən birinin təhlükəsizliyinin təmin edilməsi ilə Azərbaycan əsgərləri ABŞ qüvvələri üçün Hit-Həditə dəhlizində, eləcə də Əl-Ənbar vilayətinin digər hissəsində təhlükəsizlik və sabitllik əməliyyatlarının keçirilməsi zərurətini aradan qaldırmışdılar.[162] Bununla yanaşı, Azərbaycan sülhməramlıları İraq üçün əhəmiyyətli olan SES-i qoruyaraq onun məhv edilməməsinə və İraq xalqı üçün qorunub saxlanılmasına öz töhfələrini vermişdilər.

Sülhməramlı plana əsasən, Azərbaycan sülhməramlı bölüyü Əl-Ənbar vilayəti ərazisində post-patrul xidməti, hərəkət marşrutlarında stasionar və mobil yoxlama nöqtələri təşkil etməklə nəqliyyat vasitələrinin və piyadaların yoxlanılması fəaliyyətləri, Həditə SES-in mühafizəsi, su elektrik stansiyasında işləyən yerli işçilərin və avtomobillərin gündəlik yoxlanılması, SES daxilində yerli işçilərin və nəqliyyat vasitələrinin müşayiət olunması tapşırıqlarını icra etmişdir. Bununla yanaşı, Azərbaycan Ordusunun sülhməramlı bölüyünün zabitləri İraq Ordusunun və polis qüvvələrinin şəxsi heyətinə mühafizənin təşkili mövzusunda məşğələlər keçmişdir. Bir nəfər azərbaycanlı zabit Bağdad şəhərində koalisiya qüvvələrinin qərargahında əlaqələndirici zabit kimi xidmət etmişdir. Onun vəzifəsi sülhməramlı bölüyün inzibati məsələlərini yuxarı qərargahla əlaqələndirmək olmuşdur.

İraqda əvvəlki hakimiyyətin süqutundan sonra böyük şəhərlər və dövlət qurumları üsyançı qüvvələrin əlinə keçmiş və dinc əhaliyə qarşı zorakılıqlar artmışdı. Koalisiya qüvvələrinin qarşısında duran ən çətin vəzifələrdən biri İraq daxilində asayişi və təhlükəsizliyi bərpa etmək idi. 2004-2006-cı illərdə koalisiya qüvvələrinə qarşı hücumların sayı artır, coğrafiyası genişlənir və onlar daha şiddətli xarakter alırdı. Hələ 2004-cü ilin iyun ayına qədər üsyançılar ABŞ və koalisiya qüvvələrinə, eləcə də İraq infrastrukturuna qarşı 13.000-dən çox hücum həyata keçirmişdilər.[163] 2006-cı ilin sonlarında ABŞ Prezidenti Corc Buş 2007-ci ilin yanvar ayından etibarən İraqa 20.000 nəfər şəxsi heyətdən ibarət 5 ordu briqadasının göndərilməsi barədə qərar qəbul etmişdir.[164]

İraqdakı əməliyyatda iştirak etmiş Azərbaycan Ordusunun zabiti oradakı əməliyyat şəraitini təsvir edərkən bildirmişdir: "İraqda sülhməramlı əməliyyat güc yolu ilə tətbiq edildiyi üçün buradakı vəziyyət mürəkkəbliyi ilə fərqlənirdi. İraqda keçmiş hakimiyyətin tərəfdarları koalisiya qüvvələrinə sülhməramlı əməliyyatları keçirməyə ciddi problemlər yaradırdılar. Yerli əhalinin içərisində gizlənən terrorçuları, kamikadzeləri tapıb zərərsizlədirmək də çətinlik doğururdu. Bu baxımdan İraqda hər hansı sülhməramlı əməliyyatın keçirilməsi çətin idi. Biz hər hansı

160 Yenə orada, p. 53

161 Yenə orada

162 Stephen A. Carney, "*Allied Participation in Operation Iraqi Freedom*", CMH Pub 59–3–1, First Printing, Washington D.C., Center of Military History, United States Army, 2011, Available at: https://history.army.mil/portals/143/Images/Publications/catalog/59-3-1.pdf

163 Walter L. Perry, Richard E. Darilek, Laurinda L. Rohn, Jerry M. Sollinger, "Operation Iraqi Freedom: Decisive War, Elusive Peace", *Rand Corporation*, 2015, p. 208, Available at: https://www.rand.org/content/dam/rand/pubs/research_reports/RR1200/RR1214/RAND_RR1214.pdf

164 Stephen A. Carney, "*Allied Participation in Operation Iraqi Freedom*", CMH Pub 59–3–1, First Printing, Washington D.C., Center of Military History, United States Army, 2011, p. 24 Available at: https://history.army.mil/portals/143/Images/Publications/catalog/59-3-1.pdf

əməliyyatı keçirərkən İraq vətəndaşlarının zərər çəkməməsinə çalışır, habelə insan hüquqları ilə bağlı beynəlxalq normaları ciddiliklə nəzərə alırdıq."[165]

2004-cü ildə Azərbaycan Ordusunun sülhməramlı bölüyünün cavabdehlik ərazisində yerləşən Əl-Ənbar vilayətinin polis məntəqəsi terrorçular tərəfindən ələ keçirilmişdi. Sülhməramlı bölüyün tərkibindəki bir taqım polis məntəqəsinin terrorçulardan təmizlənməsi istiqamətində döyüş fəaliyyəti yerinə yetirmiş və polis məntəqəsi terrorçulardan azad edilmişdi. Keçirilən döyüş fəaliyyəti nəticəsində çoxlu sayda silah və sursat müsadirə edilərək aidiyyəti üzrə təhvil verilmişdi.[166]

Azərbaycan Ordusunun sülhməramlı bölüyünün Hədtə SES-i mühafizə etməsi və ABŞ-nin dəniz piyadaları ilə eyni bazada dislokasiya olunması onların həyatlarına təhlükələri artırır, xidmət zamanı daha ayıq-sayıq və diqqətli olmağı tələb edirdi. Baza bir müddət demək olar ki, hər gün minaatan atışlarına məruz qalmışdır. Üsyançılar Hədtə SES-ə bir neçə dəfə basqın həyata keçirməyə cəhd etmişdilər. Lakin hər dəfə Azərbaycan sülhməramlı qüvvələrinin hərbi qulluqçuları tərəfindən bu cəhdlərin qarşısı məharətlə alınmışdır. Minaatan mərmilərin atılma vaxtı və düşmə yerini təhlil etdikdə məlum olurdu ki, koordinatlar terrorçulara SES-də işləyən mülki işçilər tərəfindən ötürülürdü.

Hədtə su anbarında xidmət keçmiş ABŞ dəniz piyadalarının mayoru Mark Uin (Mark Winn) İraqda əməliyyatla bağlı xatirələrini bölüşdüyü müsahibəsində məlumatların sızdırılması ilə bağlı bildirmişdir: "Bir müddət əvvəl üsyan etməkdə şübhəli bilinən şəxlərin müəyyən edilməsi məqsədilə keçirilən reyd zamanı amerikanlı və azərbaycanlı qarovulçuların və hətta komandir otağının yeri işarələnmiş su anbarının xəritəsi tapılmışdı."[167] Hazırlanan xüsusi tədbirlər planına əsasən, üsyançılara məlumat ötürən mülki şəxslər yaxalanır və aidiyyəti üzrə təhvil verilirdi.

İraqda sülhməramlı qüvələrimizin tərkibində xidmət keçmiş Azərbaycan Ordusunun zabiti Teyfur Rüstəmov bu barədə bildirmişdir: "Mühafizə etdiyimiz su elektrik stansiyasının terrorçular tərəfindən məhv edilməsinə bir neçə dəfə cəhd edilmiş, bunun üçün stansiyada işləyən mülki şəxslərdən istifadə edilmişdi. Lakin bölüyümüzün hərbçiləri bu cəhdlərin qarşısını vaxtında almışdılar. Stansiyada işləyən mülki şəxslərdən bir qrupu terrorçularla əlbir olaraq su elektrik stansiyasındakı yanacaq anbarının minaatanlar vasitəsilə atəşə tutulmasında onlara yardım etmişdi. Bu qrupun üzvləri Azərbaycan sülhməramlılarının peşakarlığı nəticəsində aşkarlanmış və zərərsizləşdirilmişdir."[168]

Partlayıcı maddə və qurğular Azərbaycan sülhməramlılarının üzləşdiyi təhlükələr sırasına daxil idi. Azərbaycan Ordusunun sülhməramlı bölüyü iriçaplı silahlar və zirehli avtomobil texnikası olaraq ABŞ dəniz piyadalarının silah arsenalında olan silah və texnikadan istifadə edirdi.

Post-patrul xidməti zamanı istifadə edilən HAMMER markalı yüngül zirehli, yüksək keçid qabiliyyətinə malik döyüş maşınları artan təhdidlər qarşısında tələblərə artıq cavab vermirdi. Dəfələrlə yol kənarında quraşdırılmış partladıcı qurğuların işə düşməsi nəticəsində sülhməramlı bölüyün şəxsi heyəti təhlükə ilə qarşı-qarşıya qalmışdır. Bunu nəzərə alaraq, qısa zaman çərçivəsində HAMMER markalı avtomobillərin zirehləri gücləndirilmiş və texniki imkanları təkmilləşdirilmişdi.

165 *Azərbaycan qəzeti*, "Sülhməramlı missiya", 31 may 2009

166 Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi, *"Raport"*, 09 oktyabr 2025-ci il, 55 (2025-ci il) nömrəli iş, səh. 103-119

167 Doug Struck, "The coolest posting in a hot war zone", *NBC News,* 8 August 2004, https://www.nbcnews.com/id/wbna5637694

168 *Azərbaycan qəzeti*, "Sülhməramlı missiya", 31 may 2009

Azərbaycan Ordusunun sülhməramlı kontingentinin xidmət apardığı nəzarət-buraxılış məntəqələri terrorçuların hədəfləri arasında olmuşdur. Azərbaycan sülhməramlıları tərəfindən yoxlama həyata keçirilən nəzarət-buraxılış məntəqəsində şübhəli bağlama aşkar edilmişdir. Əldədüzəldilmiş partlayıcı maddələrin zərərsizləşdirilməsi qrupu tərəfindən baxış keçirildiyi zaman bağlamada quraşdırılmış partladıcı qurğunun olduğu müəyyən olunmuşdur. Partladıcı qurğuda yaranan texniki nasazlıq səbəbindən bağlama terrorçular tərəfindən uzaqdan idarəetmə üsulu ilə partladıla bilməmişdir.[169]

İraqdakı xidmət dövründə üzləşdikləri təhlükəli epizodların birindən danışan Teyfur Rüstəmov bildirmişdir: "Digər fakt isə stansiyanın ərazisindəki tunellərdə, eləcə də stansiyaya gələn əsas yolda partlayıcı maddənin yerləşdirilməsi cəhdlərinin qarşısının alınması ilə bağlıdır. 2005-ci ilin aprel ayında bizim hərbçilər 3 nəfər şəxsin stansiyaya gələn əsas yolda mina döşədiyini müşahidə etmişdilər. Dərhal görülmüş tədbirlər nəticəsində həmin qrup zərərsizləşdirilmiş və yolun təhlükəsizliyi təmin edilmişdir."[170]

*Azərbaycan Ordusunun sülhməramlı bölüyünün İraq Azadlıq Əməliyyatında (OIF) verdiyi əsas töhfələr aşağıdakılardır:*

- Əl-Ənbar vilayəti ərazisində post-patrul xidməti həyata keçirmiş, koalisiya qüvvələrinin ərazidə varlığını dinc əhaliyə nümayiş etdirmiş və hərəkət azadlığını təmin etmişdir;
- Əl-Ənbar vilayətinin yaxınlığındakı ərazilərdə yerləşən strateji əhəmiyyətli infrastrukturların terrorçu qruplardan qorunmasına nail olmuşdur;
- Dinc əhalinin məzhəb zorakılığı və üsyançılarla bağlı problemlərlə üzləşməsinin qarşısını almışdır;
- İraqın qərbində dislokasiya olunan koalisiya qüvvələrinin əsas və ehtiyat təminat marşrutlarını daim müşahidə altında saxlamış və konvoyların təhlükəsiz keçidini təmin etmişdir;
- Cavabdehlik ərazisində məscidlərin və digər dini məbədlərin təhlükəsizliyini təmin etmiş, dini mərasimlərin keçirilməsinə təhlükəsiz mühit yaratmışdır;
- Strateji obyektlərin qorunması mövzusunda İraq Ordusuna və İraq polisinə təlimlər keçmişdir;
- İraq ərazisinin 25%-ni elektrik enerjisi ilə təmin edən Hədit ə SES-in və onun yardımçı tikililərinin təhlükəsizliyini təmin etmişdir;
- Elektrik xətlərinin və infrastrukturun bərpası işlərində mülki təşkilatların təhlükəsizliyini təmin etmişdir;
- Öz tapşırıqlarını uğurla yerinə yetirməklə, İraq hökumətinə siyasi keçidi başa çatdırmaqda dəstək göstərmişdir.

Sülhməramlı kontingentin şəxsi heyəti xidmət etdiyi müddət ərzində yaxşı döyüş təcrübəsi qazanmış və hərb məharətini zənginləşdirmişdir. Fərqli iqlim şəraitində olmasına baxmayaraq, öz xidməti vəzifəsini layiqincə yerinə yetirmişdir. Əl-Ənbar vilayətində məskunlaşan yerli əhalinin inam və hörmətini qazanmış və onlarla daim yaxşı münasibətlər qurmuşdur. Göstərdikləri peşəkarlığa, verilən tapşırıqları vaxtında yerinə yetirdiklərinə görə sülhməramlılarımız dəfələrlə fəxri fərmanlara layiq görülmüş, şəxsi heyət komandanlıq tərəfindən mükafatlandırılmış, Müdafiə Nazirliyinin rəhbərliyi isə çoxsaylı təşəkkür məktubları almışdır. Azərbaycan sülhməramlı

169 Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi, *"Raport"*, 09 oktyabr 2025-ci il, 55 (2025-ci il) nömrəli iş, səh. 103-119

170 *Azərbaycan qəzeti*, "Sülhməramlı missiya", 31 may 2009

bölüyünün 1 zabiti "ABŞ Quru Qoşunlarının Xidmətdə Fərqlənmə medalı" və 9 zabiti isə "ABŞ Hərbi Dəniz Qüvvələri və Dəniz Piyadalarının Nailiyyət medalı" ilə təltif olunmuşdur.

2008-ci il noyabr ayının 11-də Azərbaycanın Ordusunun sülhməramlı bölüyü öz xidmətini başa vuraraq Azərbaycana qayıtmışdır.

2004-cü ilin sentyabr ayında Azərbaycana Amerika Birləşmiş Ştatları Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavininin köməkçisi cənab Steven Payfer səfər etmişdir. O, 20 sentyabr 2004-cü il tarixində Azərbaycan Respublikasının müdafiə naziri ilə keçirdiyi görüşdə Azərbaycanın İraqdakı antiterror koalisiyasında fəal iştirakına görə minnətdarlığını bildirmişdir.[171]

Mərkəzi komandanlıqda keçirilən toplantıda koalisiya qüvvələri komandanının müavini general Makkarti demişdir: "Azərbaycan sülhməramlı bölüyünün əsgərləri bölgədə çox yüksək səviyyədə xidmət edirlər, onların xidməti oradakı Amerika dəniz piyadalarının xidmətindən üstündür".[172] İraqda təhlükəsizlik qüvvələrində təmsil olunan hərbi qulluqçular arasında keçirilmiş döyüş hazırlığı yarışmasında Azərbaycan ABŞ və Kanadadan sonra 3-cü yeri tutmuşdur.[173]

2006-cı ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ABŞ-a səfər etmişdir. 28 aprel 2006-cı il tarixində ABŞ Prezidenti Corc Buş ilə keçirdiyi görüşdən sonra hər iki dövlət başçısı mətbuata bəyanatla çıxış ediblər. ABŞ Prezidenti Corc Buş öz bəyanatında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə İraqa sülhməramlı kontingent göndərdiyinə görə öz təşəkkürünü bildirmişdir.[174]

9 dekabr 2008-ci il tarixində ABŞ Prezidenti Corc Buş İraqda missiyanın sona çatması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə yazdığı təşəkkür məktubunda 2003-cü ildən etibarən İraqda çoxmillətli qüvvələrə öz hərbçiləri ilə verdiyi dəstəyə görə Azərbaycan hökumətinə və xalqına Birləşmiş Ştatların dərin minnətdarlığını bildirmiş və Əl-Ənbar vilayətində Hədită su bəndinin həmin qüvvələr tərəfindən mühafizəsini xüsusilə yüksək qiymətləndirmişdir. O, məktubunda yazırdı: "Azərbaycan hərbçilərinin İraqda uzunmüddətli xidmətini başa vurduğu bir vaxtda, mən 2003-cü ildən etibarən bu ölkədə çoxmillətli qüvvələrə öz hərbçiləri ilə verdiyi dəstəyə görə Azərbaycan hökumətinə və xalqına Birləşmiş Ştatların dərin minnətdarlığını bildirirəm. Əl-Ənbar vilayətində Hədită su bəndinin həmin qüvvələr tərəfindən mühafizəsini xüsusilə yüksək qiymətləndirirəm. Böyük çətinliklərə baxmayaraq, İraqda demokratik hökumətin qurulması və möhkəmləndirilməsinə Azərbaycan xalqının dəstək vermək arzusu onun güclü iradəsinin nümunəsidir. Azərbaycanlılar İraqda azadlığın qorunmasına yardım məqsədilə aparılan uğurlu əməliyyatlarda iştirakı ilə fəxr edə bilərlər...".[175]_

"Koalisiya Bülleteni"nin 43 nömrəli buraxılışında Azərbaycan sülhməramlılarına həsr olunmuş məqalədə qeyd olunur ki, Azərbaycan sülhməramlı bölüyünün Hədită su bəndində təşkilati və gündəlik fəaliyyəti çox yüksək səviyyədə idi. Təhlükəsizliyin təmin edilməsi ilə bağlı vəzifələrin ayıq-sayıqlıqla icra edilməsi Hədită su bəndində Azərbaycan qoşunlarının cavabdehliyində olan əraziyə terrorçular tərəfindən partlayıcı qurğuların keçirilməsinə imkan vermirdi.[176]

171 Mod.gov.az, *"Məlumat"*, 21 sentyabr 2004, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliy-inin-melumati-44073.html

172 Azertag.az, *"Command of Coalition in Iraq Forces praise Azerbaijani peacekeepers"*, 15 June 2008, Available at: https://azertag.az/en/xeber/command_of_coalition_in_iraq_forces_praise_azerbaijani_peacekeepers-575568

173 *Azərbaycan Ordusu qəzeti*, №41 (1957), 30 may 2015

174 *Respublika qəzeti*, № 094 (2639), 30 aprel 2006

175 *Xalq qəzeti*, № 277 (26042), 12 dekabr 2008

176 *Coalition Bulletin*, Volume 43, July 2007

Azərbaycan hərbçilərinin fəaliyyətinin Koalisiya qüvvələri tərəfindən aparılan hərbi əməliyyatlara verdiyi töhfəsinin xüsusiyyətlərini açıqlayan həmin bülletendə qeyd olunur ki, Azərbaycan sülhməramlı bölüyü Həditə su bəndində yüksək səviyyədə təhlükəsizliyi təmin etməklə Koalisiya və ABŞ qüvvələrinə əlverişli şərait yaradırdı. Bu, onlara İraqda əsas elektroenerji mənbələrindən biri barədə narahatlıq hissi olmadan tam şəkildə düşmənlə mübarizə aparmağa imkan verirdi.[177]

2008-ci ilin yanvar ayında İraqda xidmətini başa vurmuş və Vətənə geri dönmüş sülhməramlılar ilə Bakı şəhərində keçirilmiş görüşdə ABŞ-nin Azərbaycandakı səfiri Enn Dersi onların xidmətini yüksək qiymətləndirədək bildirmişdir: "Dəniz piyadalarının komandanları tərəfindən deyildiyi kimi, sizin İraqdakı xidmətiniz birbaşa dəniz piyadalarının həyatlarının xilas edilməsinə töhfə verib. Sizin Həditə su bəndini müdafiə etməyiniz son dərəcə əhəmiyyətli idi, çünki İraq infrastrukturunun bu hissəsi İraqın gələcəyinin əhəmiyyətli hissəsidir."[178]

2008-ci ilin sonunda ABŞ-nin nüfuzlu "Los-Anceles Tayms" qəzeti İraqda sülhməramlı missiyasını başa vurub Vətənə dönən Azərbaycan qüvvələri haqqında yazmışdır: "Azərbaycanlılar evə dönürlər. Digər dövlətlər ABŞ-ın başçılığı altında İraqdakı koalisiyaya qoşulmaq qərarını çək-çevir edəndə Azərbaycan Respublikası tərəddüd etmədi. Beş ildən artıqdır ki, Azərbaycan əsgərləri Əl-Ənbər vilayətində Əl-Hədità su anbarının təhlükəsizliyini təmin edərək müəyyən olunmuş perimetri qoruyur, hər gün işə gələn 630 nəfər iraqlını yoxlayır, şimalda Qədisiyə gölünə, cənubda isə Fərat çayına nəzarət edirdilər. Xəzər dənizinin sahilində yerləşən dövlətin on bir dəfə dəyişməklə 1.000 nəfər hərbçisi mühüm su elektrik enerjisi mənbəyi olan və buna görə də silahlılar üçün arzuolunan hədəfə çevrilmiş su anbarını qoruyublar."[179]

### *5. Birləşmiş Millətlər Təşkilatının Cənubi Sudan Respublikasında həyata keçirdiyi (UNMİSS) sülhməramlı missiyası*

Birləşmiş Millətlər Təşkilatının Cənubi Sudan Respublikasında həyata keçirdiyi (UNMİSS) sülhməramlı missiyası 2011-ci ildə Cənubi Sudan müstəqillik qazandıqdan dərhal sonra BMT TŞ-nin 1996 saylı qətnaməsi əsasında yaradılmışdır. Missiyanın əsas məqsədi yeni yaranmış bu dövlətin sabitləşdirilməsi, silahlı qarşıdurmaların qarşısının alınması, mülki əhalinin müdafiəsi və uzunmüddətli sülhün qurulmasına dəstək verməkdir.

Cənubi Sudan uzun illər davam edən vətəndaş müharibəsi nəticəsində ciddi infrastruktur problemləri, humanitar böhran və siyasi qeyri-sabitliklə üzləşmişdi. Bu şəraitdə UNMİSS-in rolu təkcə sülhməramlı fəaliyyətdən ibarət olmayıb, eyni zamanda dövlət quruculuğu və ictimai institutların bərpası istiqamətində də mühüm addımlar atmaq idi.

UNMİSS-in mandatı dövrün geosiyasi vəziyyətinə və Cənubi Sudandakı real şəraitə uyğun olaraq mütəmadi şəkildə yenilənir. 2025-ci ilin may ayında qəbul edilmiş son mandat sənədinə əsasən, mülki əhalinin qorunması, insan hüquqlarının müdafiəsi və qanun pozuntularının monitorinqi, humanitar yardımların çatdırılmasına dəstəyin göstərilməsi, hökumət və silahlı müxalif qüvvələr arasında siyasi dialoqun təşviqi, institusional quruculuq və təhlükəsizlik sektorunda islahatlara dəstək UNMİSS-in əsas funksiyalarındandır.

---

177 Yenə orada

178 Today.az, *"Azerbaijani peacekeepers returning from Iraq awarded in Baku"*, 24 January 2008, Available at: http://www.today.az/news/politics/42597.html

179 Azərtag.az, *"Azərbaycan - qəhrəman övladlar vətəni"*, 10 dekabr 2008, Elektron resurs: https://azertag.az/xeber/los_anceles_tayms_azerbaycan___qehreman_ovladlar_veteni-426494

Bu mandat çərçivəsində UNMİSS qüvvələri Cənubi Sudanın bir çox bölgəsində sülhməramlı patrullar həyata keçirmiş, müşahidə postları yaratmış, BMT tərəfindən mülki əhalinin qorunduğu ərazilərdə (Protection of Civilians Sites) humanitar yardımları müşayiət etmişdir.

Azərbaycan Ordusunun 2 hərbi qulluqçusu Azərbaycan Respublikası Milli Məclisinin 2018-ci il 30 noyabr tarixli 368 VQR nömrəli Qərarı ilə 2019-cu ilin yanvar ayından etibarən illik rotasiya əsasında BMT-nin Cənubi Sudan Respublikasında həyata keçirdiyi sülhməramlı missiyasında "hərbi müşahidəçi" qismində iştirak edir. Azərbaycan hərbi müşahidəçiləri UNMİSS-in Juba (paytaxt), Torrit, Malakal, Kuacok, Bor və Bentiu bölmələrində xidmət ediblər.

Cənubi Sudana hərbi müşahidəçi qismində göndərilən Azərbaycan Ordusunun hərbi qulluqçuları NATO-nun ƏİK proqramı, eləcə də müxtəlif dövlətlərdə keçirilən "BMT hərbi müşahidəçi" və digər kurslar vasitəsilə hazırlanır.

UNMİSS missiyası çərçivəsində beynəlxalq hərbi müşahidəçilərin əsas vəzifəsi Cənubi Sudanda sülh prosesini dəstəkləmək, atəşkəs rejiminə nəzarət etmək, ərazidə patrullar təşkil etmək, münaqişənin təsirinə məruz qalmış bölgələrdə təhlükəsizlik vəziyyətini izləmək və qiymətləndirmək, hərbi fəaliyyətlər və silahlı toqquşmalarla bağlı məlumatlar toplamaq, gərginliyin azaldılması məqsədilə yerli silahlı qruplaşmalar və ictimai liderlərlə ünsiyyət qurmaq, mülki əhalinin təhlükəsizlik ehtiyaclarını araşdırmaq, şikayətlərini dinləmək, insan hüquqlarının pozulması halları barədə məlumatlar toplamaq və onları aidiyyəti strukturlara yönləndirmək, yerli polis, mülki və BMT-nin digər qurumları ilə əlaqələndirmə aparmaq, həmçinin BMT üçün hesabatlar hazırlamaqdır.

Azərbaycan hərbi müşahidəçiləri bu vəzifələri silahsız yerinə yetirir, neytral və qərəzsiz yanaşma göstərir, yerli əhali, hüquq-mühafizə, təhlükəsizlik və digər dövlət qurumları, eləcə də cavabdehlik ərazilərində fəaliyyət göstərən beynəlxalq aktorlarla effektiv əməkdaşlıq əlaqələri yaradırlar.

*Azərbaycan Ordusunun hərbi müşahidəçilərinin* UNMİSS *missiyasına verdiyi töhfələr:*

Azərbaycan Ordusunun hərbi müşahidəçiləri UNMİSS missiyası çərçivəsindəki fəaliyyətləri ilə Cənubi Sudanda sabitliyin və uzunmüddətli sülhün bərqərar olunmasına töhfə verirlər. Onların obyektiv və qərəzsiz məlumatları əsasında, BMT və digər beynəlxalq tərəfdaşlar düzgün qərarlar qəbul edə bilir, bu isə bölgədə vəziyyətin sabitləşməsinə və humanitar yardımın effektiv çatdırılmasına şərait yaradır. Bununla onlar münaqişə tərəfləri arasında gərginliyin azaldılması, etimadın yaradılması və davamlı dialoqun təşviq olunmasında mühüm rol oynayırlar.

Azərbaycan zabitləri bu missiyada yüksək peşəkarlıq göstərir, həm digər ölkələrin hərbçiləri ilə sıx əməkdaşlıq edir, həm də yerli əhali arasında etimad qazanırlar. Onlar xidmət keçdikləri ölkədə regional təhlükəsizlik məsələləri və yerli mədəniyyətlərin xüsusiyyətləri barədə məlumatlarının artırılması məqsədilə mütəmadi olaraq BMT-nin xüsusi təlimlərində iştirak edirlər.

Azərbaycanın UNMİSS-ə verdiyi töhfələr BMT tərəfindən də yüksək qiymətləndirilmişdir. Azərbaycanın bu sahədə uğurlu fəaliyyəti digər ölkələrə nümunə göstərilir və gələcəkdə daha geniş formatda iştirak üçün zəmin yaradır.

2019-cu ilin mart ayında ABŞ-da işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə görüşən BMT Baş katibinin müavini – BMT Katibliyinin Sülhməramlı Əməliyyatlar Departamentinin rəhbəri cənab Jan Pyer Lakrua Azərbaycanın indiyədək sülhməramlı əməliyyatlarda, xüsusilə Əfqanıstanda həyata keçirilən missiyada fəaliyyətlərini və beynəlxalq təhlükəsizliyə dəstəyin davamı olaraq Cənubi Sudan Respublikasında Azərbaycan hərbçilərinin iştirakını yüksək qiymətləndirmişdir.[180]

180 Mod.gov.az, *"Azərbaycan Respublikasının müdafiə naziri BMT Baş katibinin müavini ilə görüşüb"*, 27 mart 2019, Elektron resurs: https://mod.gov.az/az/news/azerbaycanin-mudafie-naziri-bmt-bas-katibinin-muavini-ile-gorusub-26244.html

Missiyada iştirak Azərbaycan Respublikasının beynəlxalq aləmdə və BMT çərçivəsində etibarlı tərəfdaş kimi nüfuzunun artmasına xidmət edir.

UNMİSS çərçivəsində fəaliyyət göstərən Azərbaycan hərbi müşahidəçiləri digər ölkələrdən olan həmkarları kimi ciddi çətinliklərlə qarşılaşırlar. Bu çətinliklər həm fiziki, həm psixoloji, həm də əməliyyat xarakteri daşıyır.

UNMİSS müşahidəçiləri qeyri-sabit bölgələrdə fəaliyyət göstərdiklərinə görə təhlükəsizliklə bağlı risklər və silahlı qarşıdurmalar kimi çətinliklərlə üzləşirlər. Cənubi Sudanda tez-tez yerli silahlı qruplaşmalar arasında toqquşmalar baş verir. Müşahidəçilər silahsız olduqları üçün bu münaqişələr onların həyatı üçün ciddi təhlükə yaradır.

Ərazilərə girişlə bağlı məhdudiyyətlər hərbi müşahidəçilərin qarşılaşdıqları növbəti çətinliklərdən biridir. Bəzi hallarda yerli hakimiyyət orqanları və ya silahlı qruplaşmalar müşahidəçilərin müəyyən bölgələrə daxil olmasına icazə vermirlər. Bu, müşahidəçilərin atəşkəs rejiminə nəzarət edilməsi və məlumatların toplanılması imkanlarını məhdudlaşdırır.

Zəif infrastruktur və əlverişsiz təbii şərait də hərbi müşahidəçilərin fəaliyyətinə mənfi təsir edir. Kəndlərə və uzaq ərazilərə gedən yolların pis vəziyyətdə olması patrulların vaxtında həyata keçirilməsini çətinləşdirir. Eyni zamanda, leysan yağışları və sel bölgələrə girişə mane olur.

Mədəni və dil fərqlilikləri kimi amillər də hərbi müşahidəçilər tərəfindən yerli icmalarla əlaqələrin qurulması və məlumatların toplanılması prosesinə təsir edir. Bəzi hallarda tərcüməçilərin köməkliyinə ehtiyac yaranır, bu da öz növbəsində hərbi müşahidəçilərin fəaliyyətini ləngidir.

Əhali tərəfindən etimadsızlığın göstərilməsi də hərbi müşahidəçilərin fəaliyyətinə təsir edən mənfi amillər sırasındadır. Yerli əhalinin bəzi nümayəndələri hərbi müşahidəçilərə inam göstərmir və onlara ehtiyatla yanaşır. Müşahidəçilərə qarşı inamsızlıq onların informasiyaya çıxışının məhdudlaşdırılmasına gətirib çıxarır.

Logistika və təminat məsələləri də hərbi müşahidəçilərin həll etməli olduğu çətinliklərdən biridir. Xüsusilə xidmət etdikləri qərargahlardan uzaq bölgələrdə müşahidə missiyalarını həyata keçirən hərbi müşahidəçilər ciddi problemlərlə üzləşir. Yanacaq, ərzaq, rabitə vasitələri və tibbi yardım imkanlarının məhdudluğu onların fəaliyyətinin effektivliyini azaldır.

Psixoloji gərginlik və stress hərbi müşahidəçilərin fəaliyyət göstərdiyi mühitin digər xüsusiyyətlərindəndir. Daim təhlükə altında olmaq və münaqişə bölgəsində çalışmaq müşahidəçilər üçün böyük psixoloji təzyiq yaradır. Bu, uzunmüddətli xidmət zamanı onların motivasiyasına və fəaliyyətinin keyfiyyətinə təsir göstərə biləcək amillərdəndir.

Bütün bu çətinliklərə baxmayaraq, azərbaycanlı müşahidəçilər UNMİSS missiyasında öz tapşırıqlarını ləyaqətlə yerinə yetirir, Azərbaycanın beynəlxalq nüfuzunun artmasına real töhfə verirlər.

Cənubi Sudan Respublikasında UNMİSS missiyasında hərbi müşahidəçi qismində xidmət keçmiş Azərbaycan Ordusunun zabiti mayor İlkin Xəlilov 2-20 noyabr 2022-ci il tarixlərində iştirak etdiyi bərə partrulu barədə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə yazdığı raportda qeyd edir ki, patrul zamanı rastlaşdıqları qanunsuz silahlı birləşmələr onları hədələyərək qida və yanacaq tələb etmişdilər. Lakin aparılan danışıqlar nəticəsində bu tələblər təmin edilməmişdir. Zabit onu da qeyd etmişdir ki, həmin ilin avqust ayında UNMİSS-in başqa qrupu tərəfindən aparılmış bərə patrulu zamanı qanunsuz silahlı dəstələr 1700 litr yanacağı və 5 ton qidanı zor tətbiq etməklə ələ keçirməyə müvəffəq olmuşdular.[181]

181 Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi, *"BMT-nin Cənubi Sudan Respublikasındakı missiyasında hərbi müşahidəçinin raportu"*, 23.11.2022-ci il tarixli, 9/17 nömrəli iş, səh. 201-202

UNMİSS missiyasında hərbi müşahidəçi qismində xidmət edən Azərbaycan Ordusunun digər hərbi qulluqçusu mayor Mehman Qaragözov xidməti vəzifələrini yerinə yetirərkən yüksək peşəkarlıq nümayiş etdirmişdir. O, uzunmüddətli patrul üzvlərinin münaqişə zonasından şəxsi təhlükəsizliyini nəzərə almadan, böyük cəsarət və şücaət nümayiş etdirərək uğurla çıxarılmasını təmin etdiyinə, bununla da nümunəvi sədaqət göstərdiyinə görə UNMİSS-in Təhlükəsizlik Qüvvələrinin komandanı general-leytenant Mohan Subramanian tərəfindən 2025-ci ilin may ayında medal və fəxri fərmanla təltif edilmişdir.[182]

Bununla yanaşı, Azərbaycan Ordusu ilk dəfə olaraq 2023-cü ildə sülhməramlı əməliyyata qadın hərbi qulluqçu göndərmişdir. Mayor Lətifə Rüstəmova Cənubi Sudanda göstərdiyi nümunəvi hərbi xidmətə görə həm BMT medalı, həm də tərifnamə ilə təltif edilmişdir.[183]

## Nəticə

Azərbaycan Respublikasının sülhməramlı qüvvələrinin yaradılması və formalaşması Azərbaycan üçün çox ağır bir dövrə təsadüf etmişdir. 20 faiz torpaqları işğal altında olan Azərbaycanın cəbhədə hərbi qüvvəyə ehtiyacı olmasına baxmayaraq, beynəlxalq təhlükəsizliyə töhfə vermək istəyini daim nümayiş etdirmişdir. Azərbaycan eyni zamanda Kosovoda, İraqda, Əfqanıstanda və Cənubi Sudanda sülh və təhlükəsizliyə töhfə vermişdir. Azərbaycan torpaqları işğal altında olan müddətdə beynəlxalq sülhə və təhlükəsizliyə töhfə verən dünyada nadir dövlətlərdən biridir. Belə ki, Azərbaycan hərbi qulluqçuları eyni zamada 5 cəbhədə – Kosovo, İraq, Əfqanıstan və Cənubi Sudan kimi xarici ölkələrdə sülhün bərqərar olması, eləcə də Azərbaycanda işğal olunmuş torpaqların azad olunması uğrunda mübarizə aparmışdır. Öz torpaqlarının işğal altında olmasına baxmayaraq, digər dövlətlərdə sülh və təhlükəsizliyin təmin edilməsi üçün Azərbaycan əlindən gəlini əsirgəməmişdir.

Eyni zamanda Azərbaycan Respublikasının beynəlxalq birliyin sülhün dəstəklənməsi səyləri, həmçinin koalisiya üzrə tərəfdaşların beynəlxalq terrorizmlə mübarizə üzrə əməliyyatlarında fəal iştirakı onu təhlükəsizlik mühitinə ciddi təsir edən aktora çevirmiş və ölkənin terrorçu təşkilatların hədəfində olma ehtimalını əhəmiyyətli dərəcədə artırmışdır.[184]

Qeyd edilən təhlükələrə baxmayaraq, Azərbaycanın NATO-nun Kosovo, Əfqanıstan və İraqdakı sülhməramlı əməliyyatlarında fəal iştirakı Azərbaycan – NATO əlaqələrinin inkişafına böyük töhfə vermişdir.[185]

Kosovo əməliyyatı Azərbaycan sülhməramlıları üçün ilk təcrübə olmuşdur. Sülhməramlı əməliyyatlarda iştirak Azərbaycan sülhməramlıları üçün digər ölkələrin qüvvələri ilə qarşılıqlı uzlaşma səviyyəsinin artırılmasına və təcrübə mübadiləsinin həyata keçirilməsinə töhfə vermişdir. Azərbaycan sülhməramlılarını bəzi ölkələrin hərbi qulluqçularından fərqləndirən cəhətlərdən biri onların artıq döyüş şəraiti ilə tanış olması idi. Əfqanıstanda "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında iştirak etmiş baş leytenant Seymur Yusifli qeyd etmişdir: "Sülhməramlı missiyalarda iştirak edən bəzi ölkələr real döyüş şəraiti görməmiş orduya malik olsalar da, biz hərbi münaqişənin içində olan bir dövlət kimi bu missiyalarda iştirak edirdik."[186]

182 Mod.gov.az, *"Cənubi Sudanda fəaliyyət göstərən zabitimiz təltif edilib"*, 1 may 2025, Elektron resurs: https://mod.gov.az/az/news/cenubi-sudanda-fealiyyet-gosteren-zabitimiz-teltif-edilib-54595.html

183 *Azərbaycan Ordusu qəzeti*, №70 (2782),16 sentyabr 2023-cü il

184 E-qanun.az, *"Azərbaycan Respublikasının Hərbi doktrinası"*, № 1029-IIIQR, 8 iyun 2010, Elektron resurs: https://e-qanun.az/framework/19722

185 Mətin Məmmədli, "Yeni geosiyasi reallıqlarda NATO-Azərbaycan əlaqələri", *Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi*, mart 2024, Elektron resurs: https://aircenter.az/uploads/_tZrQRkOwf68.pdf

186 Fuad Cəfərov. Mahmud Möhbalıyev, *"Sülhməramlı missiyamızı layiqincə yerinə yetirdik"*, Mod.gov.az, 4 sentyabr 2021, Elektron resurs: https://mod.gov.az/az/pre/37496.html

NATO-nun "Qətiyyətli Dəstək" missiyası başa çatdıqdan sonra Əfqanıstanı ən son tərk edənlər arasında Azərbaycan Ordusunun sülhməramlıları olmuşdur. Azərbaycan sülhməramlıları Əfqanıstanı tərk edən mülki və hərbi heyətin təxliyyəsinin təhlükəsizliyinin yüksək səviyyədə təmin etmişdir. Bununla yanaşı, Kabil Beynəlxalq Hava Limanının təhlükəsizliyinə cavabdeh olan digər ölkələrin qüvvələri Əfqanıstanı tərk etdikcə onların vəzifələrinin, öz vəzifələri ilə yanaşı yerinə yetirilməsi Azərbaycan sülhməramlılarının çiyninə düşmüşdür.

Azərbaycan Ordusu təxminən 10 il KFOR, 6 il İraqda Koalisiya qüvvələrinin tərkibində, 13 il İSAF, 7 il isə "Qətiyyətli Dəstək" əməliyyatlarında iştirak etmişdir. Bu əməliyyatlardan ən uzun müddətlisi İSAF əməliyyatı olmuşdur. Azərbaycan Ordusu 2003-2008-ci illərdə eyni zamanda dünyanın iki müxtəlif qitələrində yerləşən Kosovo, İraq və Əfqanıstanda 3 sülhməramlı əməliyyata qatılmışdır. Şəxsi heyətin sayının statistik təhlili göstərir ki, Azərbaycan Ordusu 279 hərbi qulluqçusundan ibarət iki bölüyə bərabər bir qüvvəni 2003-2008-ci illərdə eyni vaxtda qeyd olunan üç əməliyyata göndərmiş və onun rotasiyasını təmin edə bilmişdir. Bu isə müharibə şəraitində olan bir dövlət üçün heç də asan məsələ deyil.

Azərbaycanın beynəlxalq sülhə verdiyi töhfələr ölkənin müasir dövrdə beynəlxalq münasibətlər sistemində məsuliyyətli və etibarlı tərəfdaş kimi tanınmasına imkan yaradır. UNMİSS çərçivəsində azərbaycanlı hərbi müşahidəçilərin fəaliyyəti bu töhfələrin real və təsirli nümunəsidir.

Beləliklə, Azərbaycan Ordusu iştirak etdiyi ümumilikdə beş sülhməramlı əməliyyatın üçündə Türkiyə ilə, birində ABŞ ilə, digərində isə BMT sülhməramlıları ilə birgə fəaliyyət göstərib. Bu dövlətlərin hər ikisi NATO-nun ən güclü ordularına sahibdir. Sülhməramlı əməliyyatlarda iştirak Azərbaycan sülhməramlılarının təcrübəsini artırmaqla yanaşı, həm də ikitərəfli hərbi əməkdaşlığı daha da möhkəmləndirir və Azərbaycanın beynəlxalq nüfuzuna öz müsbət təsirini göstərir.

Azərbaycanın sülhməramlı fəaliyyəti BMT, NATO kimi beynəlxalq təşkilatlarla və bir sıra xarici dövlətlərlə əməkdaşlığını keyfiyyətcə yeni mərhələyə qaldırmış, eləcə də onun beynəlxalq aləmdə nüfuzunun artırılmasına və etibarlı tərəfdaş kimi tanınmasına töhfə vermişdir.

Sülhməramlı əməliyyatlarda iştirak Azərbaycan Ordusunun döyüş qabiliyyətinin və kadrlarının peşəkarlığının artırılmasına da töhfə vermişdir. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun sülhməramlı bölmələrinin hərbi qulluqçuları ən ağır döyüşlərdə iştirak edən Azərbaycan Ordusunun bölmələrindən biri olaraq, Zəfərin qazanılmasında mühüm rol oynamışlar.

Azərbaycan Respublikası dünyanın üç müxtəlif qitəsində həyata keçirdiyi sülhməramlı fəaliyyəti ilə yalnız özünün deyil, həm də beynəlxalq ictimaiyyətin təhlükəsizliyini təmin etmək üçün çalışdığını nümayiş etdirir. Kosovo, İraq, Əfqanıstan və Cənubi Sudanda keçirilən mürəkkəb və çətin sülhməramlı missiyalarda ləyaqətlə xidmət göstərən zabitlərimiz həm ordunun peşəkarlığını, həm də xalqın sülhə sadiqliyini göstərir. Bu fəaliyyətlər Azərbaycanın beynəlxalq sülhə və təhlükəsizliyə verdiyi töhfələrin davamlı xarakter daşıdığını sübut edir və ölkənin beynəlxalq nüfuzunu daha da möhkəmləndirir. Gələcəkdə bu sahədə daha genişmiqyaslı iştirakı təmin etmək üçün Azərbaycanın həm siyasi, həm də hərbi potensialı vardır.

# Ədəbiyyat siyahısı

## **Azərbaycan dilində**

İnternet mənbələri


1. Apa.az, *"NATO-nun Baş katibi: Azərbaycan sülhməramlıları Əfqanıstanda çox vacib missiyanı yerinə yetirdi"*, 17 mart 2024, Elektron resurs: https://apa.az/xarici-siyaset/nato-bas-katibi-azerbaycan-sulhmeramlilari-efqanistanda-cox-vacib-missiyani-yerine-yetirdi-830045
2. Azertag.az, *"Azərbaycan beynəlxalq sülhməramlı əməliyyatlara mühüm töhfə verir,"* 17 noyabr 2017, Elektron resurs: https://azertag.az/xeber/azerbaycan_beynelxalq_sulhmeramli_emeliyyatlara_muhum_tohfe_verir-1112650
3. Azertag.az, *"Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin inkişaf perspektivləri müzakirə olunub"*, 6 noyabr 2021, Elektron resurs: https://azertag.az/xeber/azerbaycan_abs_ikitefli_munasibetlerinin_inkisaf_perspektivleri_muzakire_olunub-1919544
4. Azərtag.az, *"Azərbaycan - qəhrəman övladlar vətəni"*, 10 dekabr 2008, Elektron resurs: https://azertag.az/xeber/los_anceles_tayms_azerbaycan___qehreman_ovladlar_veteni-426494
5. Ədalət Verdiyev, "Ən qaynar nöqtələrdə: Azərbaycan sülhməramlı qüvvələri", *Ordu.az*, 16 dekabr 2017, Elektron resurs: https://ordu.az/az/news/124180/en-qaynar-noqtelerde--azerbaycan-sulhmeramli-quvveleri-%E2%80%93-herbi-ekspert
6. Mətin Məmmədli, "Yeni geosiyasi reallıqlarda NATO-Azərbaycan əlaqələri", *Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi*, mart 2024, Elektron resurs: https://aircenter.az/uploads/_tZrQRkOwf68.pdf
7. News.milli.az, *"Azərbaycanın beynəlxalq sülhə və təhlükəsizliyə növbəti töhfəsi"*, 27 avqust 2021, Elektron resurs: https://news.milli.az/politics/975418.html
8. News.milli.az, *"Əfqanıstanda Türkiyə hərbçiləri ilə birlikdə son günə qədər təhlükəsizliyi təmin etdik – Sülməramlı"*, 27 avqust 2021, Elektron resurs: https://news.milli.az/politics/975411.html
9. News.milli.az, *"NATO Azərbaycan kimi etibarlı tərəfdaşla əməkdaşlıqda israrlıdır"*, 24 noyabr 2017, Elektron resurs: https://news.milli.az/politics/601936.html
10. News.milli.az, *"NATO-nun Xüsusi Əməliyyatlar Qərargahının komandanı Bakıya gəlib"*, 3 iyul 2019, Elektron resurs: https://news.milli.az/politics/768026.html
11. Report.az, *"Amerikalı ekspert: 'Azərbaycan Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak etməklə təcrübə qazanır'"*, 14 noyabr 2017, Elektron resurs: https://report.az/analitika/amerikali-ekspert-azerbaycan-efqanistanda-sulhmeramli-emeliyyatlarda-istirak-etmekle-tecrube-qazanir-rey/
12. Report.az, *"Azərbaycan sülhməramlısı Cənubi Sudanda fəaliyyətinə görə təltif edilib"*, 1 may 2025, Elektron resurs: https://report.az/herbi-xeberler/azerbaycan-sulhmeramlisi-cenubi-sudanda-fealiyyetine-gore-teltif-edilib/
13. Riçard Morninqstar, «ABŞ Əfqanıstanın müharibədən sonrakı inkişafı üzrə Azərbaycanın üzərinə götürdüyü öhdəliyi yüksək qiymətləndirir», *News.milli.az*, 23 aprel 2014, Elektron resurs: https://news.milli.az/politics/262797.html

Qəzetlər

14. *Alman Silahlı Qüvvələrinin Balkanlardakı qəzeti*. N465, 2008 (Feldzeitung der Bundeswehr für den Balkan)
15. *Azərbaycan qəzeti*, "Azərbaycan sülhməramlılarının döyüş hazırlığı NATO standartlarına tam uyğundur", 30 may 2009
16. *Azərbaycan qəzeti*, "Sülhməramlı missiya", 31 may 2009
17. *Azərbaycan Ordusu qəzeti*, № 41 (1957), 30 may 2015
18. *Azərbaycan Ordusu qəzeti*, № 70 (2085), 10 sentyabr 2016
19. *Azərbaycan Ordusu qəzeti*, № 3 (2120), 14 yanvar 2017
20. *Azərbaycan Ordusu qəzeti*, № 70 (2782),16 sentyabr 2023
21. *Xalq qəzeti*, № 277 (26042), 12 dekabr 2008
22. *Respublika qəzeti*, № 094 (2639), 30 aprel 2006

Monoqrafiyalar

23. Qasımlı, Musa. *Azərbaycan Respublikasının diplomatiya tarixi/Azərbaycan Respublikasının xarici siyasəti (1991–2003): 2 hissədə, II hissə*, Bakı: Mütərcim, 2015**.**

Rəsmi mənbələr

24. Azərbaycan Respublikasının Küveyt Dövlətindəki səfirliyi, *"İkitərəfli münasibətlər"*, Elektron resurs: https://kuwait.mfa.gov.az/az/category/ikiterefli-munasibetler-haqqinda
25. E-qanun.az, *"Azərbaycan Ordusunun sülhməramlı kontingentinin Türkiyə Respublikası Silahlı Qüvvələrinin və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı"*, № 378-IIQR, 15 noyabr 2002, Elektron resurs: https://e-qanun.az/framework/11351
26. E-qanun.az, *"Azərbaycan Ordusunun sülhməramlı kontingentinin Türkiyə Respublikası Silahlı Qüvvələrinin və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 2002-ci il 15 noyabr tarixli 378-IIQR nömrəli Qərarına əlavə edilməsi barədə Azərbaycan Respublikasının Qanunu"*, № 451-IIIQD, 19 oktyabr 2007, Elektron resurs: https://e-qanun.az/framework/11351
27. Eqanun.az, *"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əfqanıstanda 'Qətiyyətli Dəstək' missiyası çərçivəsində Türk Silahlı Qüvvələrinin bölmələrinin tərkibində fəaliyyət göstərəcək Azərbaycan bölüyü ilə bağlı 2015ci il aprelin 18də Bakı şəhərində imzalanmış Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı"*, № 530, 22 may 2015, Elektron resurs: https://e-qanun.az/framework/30047
28. E-qanun.az, *"Azərbaycan Respublikası Silahlı Qüvvələri kontingentinin beynəlxalq koalisiya qüvvələri tərkibində İraqda sülhməramlı əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı"*, № 432-IIQR, 7 may 2003, Elektron resurs: https://e-qanun.az/framework/14811

29. E-qanun.az, *"Azərbaycan Respublikası Silahlı Qüvvələri kontingentinin İraqdan geri çağırılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı"*, № 714-IIIQR,14 noyabr 2008, Elektron resurs: https://e-qanun.az/framework/15650

30. E-qanun.az, *"Azərbaycan Respublikası Silahlı Qüvvələri taqımının Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələri taborunun tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Yuqoslaviyanın Kosovo regionunda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı"*, № 697-IQR, 2 iyul 1999, Elektron resurs: https://e-qanun.az/framework/14899

31. E-qanun.az, *"Azərbaycan Respublikası Silahlı Qüvvələri taqımının keçmiş Yuqoslaviyanın Kosovo regionundan geri çağırılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı"*, № 553-IIIQR, 4 mart 2008, Elektron resurs: https://e-qanun.az/framework/14899

32. E-qanun.az, *"Azərbaycan Respublikası Silahlı Qüvvələri taqımının Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin taborunun tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarına dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı"*, 2 oktyabr 2008, № 673-IIIQR, Elektron resurs: https://e-qanun.az/framework/16428

33. E-qanun.az, *"Azərbaycan Respublikasının Hərbi doktrinası"*, № 1029-IIIQR, 8 iyun 2010, Elektron resurs: https://e-qanun.az/framework/19722

34. E-qanun.az, *"Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"*, № 2198, 23 may 2007, Elektron resurs: https://e-qanun.az/framework/13373

35. E-qanun.az, *"Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında Azərbaycan Respublikasının Qanunu"*, № 955-VQ, 29 dekabr 2017, Elektron resurs: https://e-qanun.az/framework/37672

36. E-qanun.az, *"Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakı haqqında Azərbaycan Respublikasının Qanunu"*, № 1000-IIIQ, 11 may 2010, Elektron resurs: https://e-qanun.az/framework/19857

37. E-qanun.az, *"NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasında Azərbaycan Respublikasının iştirakının təmin edilməsi haqqında Azərbaycan Respublikasının müdafiə naziri ilə NATO-nun Baş katibi arasında məktublar mübadiləsi formasında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu"*, № 1309-IVQ, 30 sentyabr 2015-ci il, Elektron resurs: https://e-qanun.az/framework/31242

38. E-qanun.az, *"Azərbaycan Respublikası Silahlı Qüvvələri kontingentinin beynəlxalq koalisiya qüvvələri tərkibində İraqda sülhməramlı əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı"*, № 432-IIQR, 7 may 2003, Elektron resurs: https://e-qanun.az/framework/14811

39. Fuad Cəfərov. Mahmud Möhbalıyev, *"Sülhməramlı missiyamızı layiqincə yerinə yetirdik"*, Mod.gov.az, 4 sentyabr 2021, Elektron resurs: https://mod.gov.az/az/pre/37496.html

40. Mod.gov.az, *"Azərbaycan Respublikasının müdafiə naziri ABŞ konqresmenlərindən ibarət nümayəndə heyətini qəbul edib"*, 19 aprel 2014, Elektron resurs: https://mod.gov.az/az/news/azerbaycan-respublikasinin-mudafie-naziri-abs-konqresmenlerinden-ibaret-numayende-heyetini-qebul-edib-11974.html

41. Mod.gov.az, *"Azərbaycan Respublikasının müdafiə naziri BMT Baş katibinin müavini ilə görüşüb"*, 27 mart 2019, Elektron resurs: https://mod.gov.az/az/news/azerbaycanin-mudafie-naziri-bmt-bas-katibinin-muavini-ile-gorusub-26244.html

42. Mod.gov.az, *"Azərbaycan Respublikasının müdafiə naziri Əfqanıstan İslam Respublikasının Xarici İşlər nazirini qəbul edib"*, 19 mart 2014, Elektron resurs: https://mod.gov.az/az/news/azerbaycan-respublikasinin-mudafie-naziri-efqanistan-islam-respublikasinin-xarici-isler-nazirini-qebul-edib-15567.html
43. Mod.gov.az, *"Azərbaycan Respublikasının müdafiə naziri generalpolkovnik Zakir Həsənov: 'Azərbaycan ilə NATO arasında 25 illik dayanıqlı tərəfdaşlıq mövcuddur'"*, 3 may 2019, Elektron resurs: https://mod.gov.az/az/news/azerbaycan-respublikasinin-mudafie-naziri-general-polkovnik-zakir-hesenov-azerbaycan-ile-nato-arasinda-25-illik-day-26704.html
44. Mod.gov.az, *"Azərbaycanın sülhməramlı əməliyyatlarda fəaliyyəti yüksək qiymətləndirilib"*, 8 sentyabr 2016, Elektron resurs: https://mod.gov.az/az/news/azerbaycanin-sulhmeramli-emeliyyatlarda-fealiyyeti-yuksek-qiymetlendirilib-13527.html
45. Mod.gov.az, *"Beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak"*, Elektron resurs: https://mod.gov.az/az/mdb-cercivesinde-emekdasliq-027/
46. Mod.gov.az, *"Cənubi Sudanda fəaliyyət göstərən zabitimiz təltif edilib"*, 1 may 2025, Elektron resurs: https://mod.gov.az/az/news/cenubi-sudanda-fealiyyet-gosteren-zabitimiz-teltif-edilib-54595.html
47. Mod.gov.az, *"Əfqanıstandakı sülhməramlılarımızın iki zabiti müdafiə nazirinin əmrinə əsasən mükafatlandırılıb"*, 7 yanvar 2016, Elektron resurs: https://mod.gov.az/az/news/efqanistandaki-sulhmeramlilarimizin-iki-zabiti-mudafie-nazirinin-emrine-esasen-mukafatlandirilib-12622.html.
48. Mod.gov.az, *"Məlumat"*, 21 sentyabr 2004, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-44073.html
49. Mod.gov.az, *"Müdafiə naziri Avropa Parlamentinin müdafiə və təhlükəsizlik alt komitəsinin sədri ilə görüşüb"*, 21 may 2016, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-naziri-avropa-parlamentinin-mudafie-ve-tehlukesizlik-alt-komitesinin-sedri-ile-gorusub-13058.html
50. Mod.gov.az, *"Müdafiə naziri NATOnun Müttəfiq Transformasiya Komandanının müavini ilə görüşüb"*, 9 mart 2016, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-naziri-nato-nun-muttefiq-transformasiya-komandaninin-muavini-ile-gorusub-12692.html
51. Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 28 iyul 1999, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-44722.html
52. Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 17 oktyabr 2002, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-44289.html
53. Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 11 sentyabr 2003, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-44199.html
54. Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 21 noyabr 2003, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-44212.html
55. Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 27 iyul 2006, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-43648.html
56. Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 15 mart 2007, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-43491.html
57. Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 18 iyul 2008, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-43117.html
58. Mod.gov.az, *"Müdafiə Nazirliyinin məlumatı"*, 21 may 2009, Elektron resurs: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-42542.html

59. Mod.gov.az, *"NATO nümayəndəsi Azərbaycan sülhməramlıları ilə görüşüb"*, 1 iyun 2017, Elektron resurs: https://mod.gov.az/az/news/nato-numayendesi-azerbaycan-sulhmeramlilari-ile-gorusub-18765.html
60. Mod.gov.az, "*Prezident İlham Əliyev Brüsseldə NATO-nun Baş katibi Yens Stoltenberq ilə görüşüb*", 23 noyabr 2017, Elektron resurs: https://mod.gov.az/az/news/prezident-ilham-eliyev-brusselde-nato-nun-bas-katibi-yens-stoltenberq-ile-gorusub-video-20758.html.
61. Mod.gov.az, *"Tabor komandirinin layiq görüldüyü 'NATO-nun Ləyaqətli Xidmət Medalı' şəhidin ailəsinə təqdim edilib"*, 20 fevral 2021, Elektron resurs: https://mod.gov.az/az/news/tabor-komandirinin-layiq-gorulduyu-nato-nun-leyaqetli-xidmet-medali-sehidin-ailesine-teqdim-edilib-video-34950.html
62. Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi, *"BMT-nin Cənubi Sudan Respublikasındakı missiyasında hərbi müşahidəçinin raportu"*, 23.11.2022-ci il tarixli, 9/17 nömrəli iş, səh. 201-202
63. Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi, "*NATO-nun Brüsseldəki Qərargah-mənzilinin Hərbi Komitəsi yanında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndəsi – Azərbaycan Respublikasının NATO-dakı missiyasının hərbi məsələlər üzrə müşavirinin 16 nömrəli 04 aprel 2021-ci il tarixli raportu*", 35/1 nömrəli iş, səh. 181–182
64. Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi, *"Raport"*, 09 oktyabr 2025, 55 nömrəli iş, səh. 103-119
65. President.az, *"İlham Əliyev və ABŞ-ın Vitse-prezidenti Cey. Di. Vens mətbuata bəyanatlarla çıxış ediblər"*, 10 fevral 2026, Elektron resurs: https://president.az/az/articles/view/71561
66. President.az, *"İlham Əliyev ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvünü qəbul edib"*, 29 may 2025, Elektron resurs: https://president.az/az/articles/view/69012


**İngilis dilində**

Books and monographs


67. Bellamy, Alex J., and Paul D. Williams, eds. *Providing Peacekeepers: The Politics, Challenges, and Future of United Nations Peacekeeping Contributions.* Oxford: Oxford University Press, 2013.
68. Biermann, Wolfgang, and Martin Vadset, eds. *UN Peacekeeping in Trouble: Lessons Learned from the Former Yugoslavia. Peacekeepers: Views on the Limits and Possibilities of the United Nations in a Civil War-Like Conflict.* London: Routledge, 2019.
69. Carney, Stephen A. *Allied Participation in Operation Iraqi Freedom.* CMH Pub 59–3–1. First printing. Washington, D.C.: Center of Military History, United States Army, 2011. Available at: https://history.army.mil/portals/143/Images/Publications/catalog/59-3-1.pdf
70. Martin-Brûlé, Sarah-Myriam. *Evaluating Peacekeeping Missions: A Typology of Success and Failure in International Interventions.* London: Routledge, 2017.
71. Paul F. Diehl. *Peace Operations*, Polity Press, 2008, pp. 34–36.
72. Walter L. Perry, Richard E. Darilek, Laurinda L. Rohn, Jerry M. Sollinger, "Operation Iraqi Freedom: Decisive War, Elusive Peace", *Rand Corporation*, 2015, Available at: https://www.rand.org/content/dam/rand/pubs/research_reports/RR1200/RR1214/RAND_RR1214.pdf

Journals

73. *Coalition Bulletin*, Volume 43, July 2007
74. KFOR Chronicle, *"87th Anniversary of Establishment of Azerbaijan Democratic Republic,* Edition 6, June 30, 2005
75. KFOR Chronicle, *"Azerbaijan Contingent in KFOR"*, Edition 5, May 31, 2006
76. Yasameen Hameed, Redvan Ghasemlounia, Thamer Ahmed Mohammed, Abdulwahab Al-Ansi, "Emergency action plan for Haditha dam failure scenario, Al-Anbar, Iraq", *Future Technology*, Vol. 4 (2), May 2025, pp. 1-10, Available at: https://fupubco.com/futech/article/view/254/159

Official sources

77. Embassy of Republic of Azerbaijan to the United States of America, *"Defense and Security Cooperation"*, Available at: https://washington.mfa.gov.az/en/category/defense-and-security-cooperation
78. European Union, *"EUFOR Bosnia-Herzegovina Military Operation ALTHEA"*, 30 November 2020, Available at: https://www.eeas.europa.eu/eufor-althea/eufor-bosnia-herzegovina-military-operation-althea_und_en
79. European Union, *"The European Union Rule of Law Mission in Kosovo (EULEX Kosovo)"*, Available at: https://www.eulex-kosovo.eu
80. Govinfo.gov, *"Comprehensive Peace Agreement: Agreement for Bringing Peace to Afghanistan Between the Islamic Emirate of Afghanistan Which Is Not Recognized by the United States as a State and Is Known as the Taliban and the United States of America"*, 29 February 2020, Available at: https://www.govinfo.gov/app/details/GOVPUB-S-PURL-gpo132866
81. ICRC, *"Protocols additional to the Geneva Conventions of 12 August 1949"*, Available at: https://www.icrc.org/sites/default/files/external/doc/en/assets/files/other/icrc_002_0321.pdf
82. ICRC, *"The Geneva Conventions of 12 August 1949"*, Available at: https://www.icrc.org/sites/default/files/external/doc/en/assets/files/publications/icrc-002-0173.pdf
83. Library of Congress, *"Under the Auspices of the League, Saar Plebiscite"*, Available at: https://www.loc.gov/item/2021670571/
84. Ministry of National Defence of Poland, *"KFOR"*, Available at: https://www.gov.pl/web/national-defence/kfor
85. Mission of the Republic of Azerbaijan to NATO, *"Partnership Staff Post"*, Available at: https://nato-pfp.mfa.gov.az/en/category/partnership-staff-post
86. NATO, *"Bosnia"*, Available at: https://shape.nato.int/page139104827
87. NATO, *"ISAF's mission in Afghanistan (2001-2014)"*, Available at: https://www.nato.int/cps/en/natolive/topics_69366.htm
88. NATO, *"Kosovo Force"*, Available at: https://jfcnaples.nato.int/kfor
89. NATO, *"NATO and Afghanistan"*, 31 August 2022, Available at: https://www.nato.int/cps/en/natohq/topics_8189.htm
90. NATO, *"NATO's role in Kosovo"*, Available at: https://www.nato.int/cps/en/natolive/topics_48818.htm.

91. NATO, *"Partnership for Peace: Framework Document"*, Official Texts, 11 January 1994, Available at: https://www.nato.int/en/about-us/official-texts-and-resources/official-texts/1994/01/11/partnership-for-peace-framework-document
92. NATO, *"Peace support operations in Bosnia and Herzegovina (1995-2004)"*, 21 March 2024, Available at: https://www.nato.int/en/what-we-do/operations-and-missions/peace-support-operations-in-bosnia-and-herzegovina-1995-2004
93. NATO, *"Relations with Bosnia and Herzegovina"*, 9 December 2025, Available at: https://www.nato.int/cps/uk/natohq/topics_49127.htm?selectedLocale=en
94. NATO, *"Resolute Support Mission (RSM): Key Facts and Figures"*, May 2015, Available at: https://www.nato.int/content/dam/nato/webready/documents/factsheets/rsm-placemat-pdfs/2015/20151007_2015-10-rsm-placemat.pdf
95. NATO, *"Resolute Support Mission (RSM): Key Facts and Figures"*, October 2019, Available at: https://www.nato.int/content/dam/nato/webready/documents/factsheets/rsm-placemat-pdfs/2019/20191022_2019-10-RSM-Placemat.pdf
96. NATO, *"Resolute Support Mission in Afghanistan (2015-2021)"*, 30 May 2022, Available at: https://www.nato.int/cps/en/natohq/topics_113694.htm
97. NATO, *"NATO's Role in Kosovo"*, Available at: https://jfcnaples.nato.int/kfor/about-us/welcome-to-kfor/natos-role-in-kosovo
98. The Telegraph, *"Kabul hotel attack death toll almost doubles"*, January 25 2018, Available at: https://www.telegraph.co.uk/news/2018/01/25/kabul-hotel-attack-death-toll-almost-doubles/
99. U.S. Department of War, *"Biden Announces Full U.S. Troop Withdrawal From Afghanistan by Sept. 11"*, 14 April 2021, Available at: https://www.war.gov/News/News-Stories/Article/article/2573268/biden-announces-full-us-troop-withdrawal-from-afghanistan-by-sept-11/
100. UK House of Commons, *"The International Security Assistance Force in Afghanistan"*, 9 February 2009, Available at: https://researchbriefings.files.parliament.uk/documents/SN04854/SN04854.pdf.
101. United Nations Library Geneva, *"The Covenant of the League of Nations"*, Available at: https://libraryresources.unog.ch/ld.php?content_id=32971179
102. United Nations Office at Geneva, *"The League of Nations"*, Available at: https://www.ungeneva.org/en/about/league-of-nations/overview
103. United Nations Peacekeeping, *"Data"*, Available at: https://peacekeeping.un.org/en/data
104. United Nations Peacekeeping, *"How we are funded"*, Available at: https://peacekeeping.un.org/en/how-we-are-funded
105. United Nations Peacekeeping, *"Leadership. Office of the Under-Secretary-General"*, Available at: https://peacekeeping.un.org/en/leadership
106. United Nations Peacekeeping, *"Our history"*, Available at: https://peacekeeping.un.org/en/our-history
107. United Nations Peacekeeping, *"Role of the General Assembly"*, Available at: https://peacekeeping.un.org/en/role-of-general-assembly
108. United Nations Peacekeeping, *"Terminology"*, Available at: https://peacekeeping.un.org/en/terminology
109. United Nations Peacekeeping, *"United Nations Peacekeeping Force in Cyprus"*, Available at: https://peacekeeping.un.org/en/mission/unficyp

110. United Nations Peacekeeping, *"UNMOGIP Fact Sheet: United Nations Military Observer Group in India and Pakistan"*, Available at: https://peacekeeping.un.org/en/mission/un-mogip
111. United Nations Peacekeeping, *"What is peacekeeping"*, Available at: https://peacekeeping.un.org/en/what-is-peacekeeping
112. United Nations, *"About the Responsibility to Protect"*, Available at: https://www.un.org/en/genocide-prevention/responsibility-protect/about
113. United Nations, *"Resolution 50 (1948) adopted by the Security Council at its 310th meeting, of 29 May 1948"*, Available at: https://digitallibrary.un.org/record/111999?v=pdf
114. United Nations, *"Resolution 186 (1964) adopted by the Security Council at its 1102nd meeting, of 4 March 1964"*, Available at: https://digitallibrary.un.org/record/112185?v=pdf
115. United Nations, *"Resolution 1244 (1999) adopted by the Security Council at its 4011th meeting, on 10 June 1999"*, Available at: https://digitallibrary.un.org/record/274488?v=pdf
116. United Nations, *"Resolution 1386 (2001) adopted by the Security Council at its 4443rd meeting, on 20 December 2001"*, Available at: https://digitallibrary.un.org/record/454998?v=pdf
117. United Nations, *"Resolution 1441 (2002) adopted by the Security Council at its 4644th meeting, on 8 November 2002"*, Available at: https://www.un.org/depts/unmovic/documents/1441.pdf
118. United Nations, *"Resolution 1510 (2003) adopted by the Security Council at its 4840th meeting"*, October 13, 2003, Available at: https://digitallibrary.un.org/record/503843?v=pdf#files.
119. United Nations, *"Resolution 1511 (2003) adopted by the Security Council at its 4844th meeting, on 16 October 2003"*, Available at: https://digitallibrary.un.org/record/504316?v=pdf
120. United Nations, *"Resolution 1546 (2004) adopted by the Security Council at its 4987th meeting, on 8 June 2004"*, Available at: https://digitallibrary.un.org/record/523025/?v=pdf&ln=es
121. United Nations, *"Resolution 2189 (2014) adopted by the Security Council at its 7338th meeting, on 12 December 2014"*, Available at: https://digitallibrary.un.org/record/784885?v=pdf
122. United Nations, *"United Nations Charter (full text)"*, Available at: https://www.un.org/en/about-us/un-charter/full-text
123. United Nations, *"United Nations Infantry Battalion Manual (UNBAM), Second edition"*, January 2020, Available at: https://resourcehub01.blob.core.windows.net/$web/Policy%20and%20Guidance/corepeacekeepingguidance/Thematic%20Operational%20Activities/Military/2020.01%20UNIBAM%20Infantry%20Battalion%20Manual_JAN%202020.pdf.
124. United Nations, *"United Nations Truce Supervision Organization"*, Available at: https://untso.unmissions.org/

Online sources


125. Associated Press, *"US and Taliban sign deal aimed at ending war in Afghanistan"*, 29 February 2020, Available at: https://apnews.com/general-news-491544713df4879f399d0ff5523d369e
126. Azertag.az, *"Command of Coalition in Iraq Forces praise Azerbaijani peacekeepers"*, June 15 2008, Available at: https://azertag.az/en/xeber/command_of_coalition_in_iraq_forces_praise_azerbaijani_peacekeepers-575568
127. BBC, *"Spanish embassy attack in Kabul: Special forces at scene"*, 11 December 2015, Available at: https://www.bbc.com/news/av/world-asia-35075184
128. Council on Foreign Relations, *"The Role of the UN Secretary-General. Backgrounder"*, 17 September 2025, Available at: https://www.cfr.org/backgrounder/role-un-secretary-general
129. Doug Struck, "The coolest posting in a hot war zone", *NBC News,* 8 August 2004, https://www.nbcnews.com/id/wbna5637694
130. Forcesnews, *"The NATO task force that's been keeping the peace in Kosovo for 25 years"*, 12 June 2004, Available at: https://www.forcesnews.com/services/army/kfor-nato-task-force-thats-been-keeping-peace-kosovo-25-years
131. Gunnery Sgt. Jason Bortz, *"Small country, big mission; Azerbaijanis complete tour in Iraq"*, United States Marines Corps, 3 December 2008, Available at: https://www.1stmardiv.marines.mil/News/Article/Article/541823/small-country-big-mission-azerbaijanis-complete-tour-in-iraq/
132. Tech Fusion, *"Azerbaijan's Role in International Peacekeeping Missions"*, 15 October 2024, Available at: https://techfusion.tistory.com/9
133. Today.az, *"Azerbaijani peacekeepers returning from Iraq awarded in Baku"*, 24 January 2008, Available at: http://www.today.az/news/politics/42597.html
134. Zachary Laub and Lindsay Maizland, "1999–2021: The U.S. War in Afghanistan", *Council on Foreign Relations*, Available at: https://www.cfr.org/timeline/us-war-afghanistan

Azərbaycan Respublikası
Müdafiə Nazirliyi

BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ MƏRKƏZİ

# AZƏRBAYCAN ORDUSUNUN SÜLHMƏRAMLI ƏMƏLİYYATLARINA DAİR HESABAT

Bu hesabat
Azərbaycan Respublikasının Müdafiə Nazirliyi
və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi
tərəfindən birgə hazırlanmışdır

BAKI - 2026

Azərbaycan Respublikası
Müdafiə Nazirliyi

BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ MƏRKƏZİ

# AZƏRBAYCAN ORDUSUNUN SÜLHMƏRAMLI ƏMƏLİYYATLARINA DAİR HESABAT